www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 30-31 iyul 2016-cı il Şənbə № 165 (6486) Qiyməti 60 qəpik

Xəbər

## Novxanıda müdhiş adam oğurluğu

yazısı səh.14-də

Gündəm

### Azərbaycanla Türkiyənin də arasını vurmaq istəyən gizli təşkilat varmış - ilginc iddia



15 iyul çevriliş cəhdinin üzə çıxardığı daha bir mübhəm; bayrağımızı təhqir edən eks-qubernatorun şok etirafının pərdəarxası

yazısı səh.10-da

### Müxalifətdə və hakimiyyətə yaxın düşərgədə referendum hazırlıqları

yazısı səh.5-də

*Emin Hüseynov:*

### "Mənim 247 min manatlıq vergi borcumu kimin ödədiyini bilmirəm"

yazısı səh.4-də

### Vitse-prezidentlərdən biri müxalifətçi ola bilər - iddia

yazısı səh.5-də

### Eldar Mahmudovun ölkədən getməsinə "yaşıl işıq"

yazısı səh.6-da

### Neft şirkətlərinin mənfəətləri azalır - hasilat isə artırılır...

yazısı səh.7-də

### Amerika seçim qarşısında - qadınla, yoxsa "dəli Tramp"la yola davam?

yazısı səh.10-da

### İrəvandakı "silahlı üsyan", yoxsa "dərin dövlət"in oyunu?

yazısı səh.9-da

### Hovuz və dənizdəki təhlükəli viruslar...

yazısı səh.15-də

### Türkiyədə yeni yaradılan "Xainlər məzarlığı" ləğv edildi

yazısı səh.10-da

### Sumqayıtda bir sinifdən 17 şagirdin 600-dən artıq bal toplamasının "sirri"...

yazısı səh.13-də

### Bakıda qadın avtobusdan yıxılıb öldü

yazısı səh.14-də

## Türkiyədəki çevriliş cəhdində amerikansayağı məxfi kodlaşma

# GENERALLARIN CİBİNDƏN ÇIXAN 1 DOLLARLIQ ƏSGİNASLARIN QORXUNC SİRRİ...

"Ukraynadan sonra növbəti hədəf Türkiyə və Cənubi Qafqazdır" iddiaları doğrulmağa başlayıb; 1 dollar ABŞ-a sədaqətin və xidmətin rəmzi sayılır




yazısı səh.8-də

## Hacıbala Abutalıbov rəsmən maxinasiyada suçlandı

Hesablama Palatası büdcədən ayrılan pulların BŞİH-də mənimsənilməsi faktlarını aşkarlayıb; Milli Məclis Bakı merini bitirə bilər...

yazısı səh.3-də



*Mirşahin Ağayev:*

### "Ümid edirəm ki, tezliklə haqq-ədalət öz yerini tapacaq"

yazısı səh.3-də



*Ərəstun Oruclu:*

### "Yüksək ehtimalla referendumdan sonra parlament buraxıla, hətta prezident seçkiləri də keçirilə bilər"

yazısı səh.6-da



### Əhməd Davudoğlunun Azərbaycanın önəmi barədə açıqlamasının pərdəarxası

yazısı səh.3-də

YENİ MÜSAVAT
N 165 (6486) 30 iyul 2016



## Prezident Gədəbəydə yol tikintisinə 1,8 milyon manat ayırdı

**Prezident İlham Əliyev Gədəbəy rayonunun Qarıkənd-Miskinli-Çalburun və Qızıltorpaq-Ağbaşlar avtomobil yollarının tikintisi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

APA-nın məlumatına görə, 27 min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirən Qarıkənd-Miskinli-Çalburun və Qızıltorpaq-Ağbaşlar avtomobil yollarının tikintisinin başa çatdırılması məqsədi ilə dövlət büdcəsində "Avtomobil Yolları" Məqsədli Büdcə Fondunda nəzərdə tutulmuş vəsaitdən 1,8 milyon manat ayrılıb.

Maliyyə Nazirliyinə və "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinə müvafiq məbləğdə maliyyələşməni və tikinti işlərini müəyyən olunmuş qaydada təmin etmək tapşırılıb.

## Ərdoğandan ABŞ generalına sərt cavab: "Sən kimsən?"

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ölkəsində baş verən hadisələrlə bağlı açıqlama verən ABŞ generalına sərt cavab verib. Musavat.com yerli mətbuata istinadən xəbər verir ki, Ərdoğan çıxışı zamanı bunları deyib:**

"Amerikalı bir general Türkiyədə bir çox yüksək rütbəli hərbçi ilə münasibətinin olduğunu və bəzilərinin həbs olunduğunu bildirib. İnsan bir az sıxılar. Bunun qərarını vermək sənin nə həddinədir? Sən kimsən? Birincisi özünü tanıyacaqsan. Sən mənim ölkəmdə baş verən qiyamı püskürdən bir dövlətə təşəkkür etməlisən, lakin tam əksinə qiyamçıların yanında yer alırsan. Qiyamçı sənin ölkəndədir, ölkənizdə bəsləyirsiz".

Qeyd edək ki, ABŞ generalı Cozef Votel Türkiyədə baş verən hadisələrə görə narahat olduğunu bildirib.

## 17 dini icma təsisçilərin istəyi ilə ləğv edilib

**Bu il ərzində 17 dini icma ləğv edilərək, dini qurumların dövlət reyestrindən çıxarılıb. Bu barədə "Report"un sorğusuna cavab olaraq Azərbaycan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) məlumat verib. Məlumatda qeyd olunub ki, həmin dini icmaların təsisçiləri dini icmanın dövlət qeydiyyatının ləğv edilməsi ilə bağlı DQİDK-yə müraciət ediblər. Onların müraciəti əsasında həmin icmalar ləğv edilərək, dini qurumların dövlət reyestrindən çıxarılıb:**

"Dini etiqad azadlığı" haqqında qanunun 12-1-ci maddəsində dini qurumun ləğv edilməsinin iki qaydası göstərilib.

Dini qurumlar təsisçilərin və ya nizamnamə ilə buna vəkil edilən orqanın qərarı ilə, eləcə də müvafiq icra hakimiyyəti orqanının müraciəti əsasında məhkəmənin qərarı ilə ləğv edilə bilər. 2009-cu ildə "Dini etiqad azadlığı" haqqında qanununa edilən dəyişikliklərə görə qeydiyyatdan keçən bütün dini icmalar öz hüquqi statusunu saxlamaq üçün yenidən qeydiyyata alınmalı idilər. Bu zaman bir çox dini icmalar yenidən qeydiyyata alınmaları ilə bağlı müraciət etməyiblər və hal-hazırda könüllü şəkildə ləğv edilərək yeni dini icmalar formalaşdırırlar".

2013-cü ildən bu günə qədər 72 dini icma ləğv olunub. Ləğvetmə prosesi zamanı hazırki, qanunvericiliyə görə hüquqi qüvvəsi olmayan dini icmaların təsisçiləri dini icmaların dövlət qeydiyyatının ləğv edilməsi ilə bağlı müraciət edirlər. Həmçinin, mövcud qanunvericiliyin tələblərinə uyğun olmayan dini icmaların ləğv edilməsi ilə bağlı Dövlət Komitəsi məhkəmə qaydasında iddia qaldırır.

Qeyd edək ki, ümumilikdə Azərbaycanda 707 dini icma dövlət qeydiyyatına alınıb. Bu ilin ötən dövründə isə 62 dini icma dövlət qeydiyyatına alınaraq dini qurumların dövlət reyestrinə daxil edilib.

# ABŞ dünyada ucuzlaşır

## Azərbaycanda isə 1,58 manatı ötdü...



**ABŞ dolları avroya nisbətdə sürətlə ucuzlaşmağa başlayıb. "APA-Economics" xəbər verir ki, buna II rübdə ABŞ iqtisadiyyatının proqnozlaşdırılandan daha az artması səbəb olub. ABŞ-ın Ticarət Nazirliyinin bu gün açıqladığı statistikaya əsasən, II rübdə ÜDM illik müqayisədə 1,2% artıb. "Bloomberg" agentliyinin sorğu keçirdiyi ekspertlər isə bu rəqəmin 2,5% olacağını proqnozlaşdırıb.**

Yenidən baxılan göstəricilərə əsasən, ABŞ iqtisadiyyatı 1,1% deyil, 0,8% artıb. Bu isə 2 illik minimum göstəricidir.

Bu statistika açıqlandıqdan sonra avro 1,1058 dollardan 1,1152 dollaradək bahalaşıb.

Bununla yanaşı, dollar Yaponiya yeninə qarşı 105,4 səviyyəsindən 102,88-dək enib.

Yenin bahalaşmasına həmçinin Yaponiya Bankının monetar siyasətin bir qədər yumşaltması barədə qəbul etdiyi qərar olub. Bununla Mərkəzi Bank iqtisadi artımı və inflyasiyanın 2%-lik səviyyəyə çıxmasını dəstəkləmək niyyətindədir...

Bu arada Azərbaycan Mərkəzi Bankı (AMB) avqustun 1-ə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb.

AMB-dən "APA-Economics"ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi avqustun 1-ə bu günlə müqayisədə dəyişməyərək 1,5851 səviyyəsində müəyyən olunub.

## Qazaxda "vergi əməkdaşları" həbs edildi

**Qazax rayonunda özünü vergi xidmətinin əməkdaşları kimi təqdim edən 3 nəfərdən ibarət qrup ifşa edilib.**

Qazax Rayon Polis Şöbəsindən APA TV-nin qərb bürosuna verilən məlumata görə, şöbə əməkdaşlarının həyata keçirdiyi əməliyyat tədbirləri nəticəsində özünü vergi xidmətinin əməkdaşı kimi təqdim edərək mağaza, səyyar satış məskənləri və yol kənarlarında meyvə tərəvəz satan şəxslərə yaxınlaşaraq onların satdığı məhsulun ya keyfiyyətsiz, ya da müddətinin keçməsini bəhanə gətirərək onlardan bunun əvəzində pul tələb edən 3 nəfər Bərdə rayon sakinləri - Atabəy Seyidzadə, Məhəmməd Bayramov və Ağdam rayon sakini Sahib Ağayev saxlanılıb.

Həmin şəxslər saxlanılarkən onların üzərində "Sahibkarlıq və Hüquq" MMC-yə məxsus vəsiqələr aşkar edilib. Çox güman ki, onlar dələduzluq əməllərini həyata keçirən zaman vətəndaşlara həmən vəsiqələri təqdim ediblər.

Yoxlama zamanı dələduzluq edən şəxslərin üzərindən Ağcabədi, Tovuz, Şəmkir, Gəncə kimi şəhərlərdən toplanmış qəbzlər tapılıb. Bu şəxslər tərəfindən aldadılan və şantaja məruz qalan şəxslərdən Qazax Rayon Polis Şöbəsinə müraciət etmək xahiş edilir.

## İrəvanda qiyamçılarla polis arasında atışma oldu - 3 yaralı

**İrəvanda iyulun 29-da axşam saatlarında atəş səsləri eşidilib. APA-nın Ermənistan mətbuatına istinadən verdiyi məlumata görə, bu barədə "Təsisedici parlament" adlı qurum xəbər yayıb. Qurumun mətbuat katibi Süzan Simonyan sosial şəbəkədə paylaşdığı məlumata əsasən, Sari taxa adlı yerdə atəş səsləri eşidilir. O həmçinin polis şöbəsini nəzarətdə saxlayan "Sasna çrer" silahlı qruplaşmasının üzvü, "Tənha canavar" ləqəbi ilə tanınan Araik Xandoyanın ayağından yaralandığını yazıb.**

Xandoyana snayper tərəfindən atəş açıldığı bildirilir.

Erməni polisi İrəvanda atışma baş verdiyini təsdiqləyib. Polisin yaydığı bəyanatda deyilir:

"Hüquq-mühafizə orqanlarının təkidli tələb və xəbərdarlıqlarına baxmayaraq qiyamçılar PPS alayının ərazisindən hüquq-mühafizə orqanlarının əməkdaşları istiqamətində avtomat silahdan atəş açıblar. Polis cavab atəşi açmaq məcburiyyətində qalıb və Arayik Xandonyan da ayağından məhz bu zaman yaralanıb".

İrəvanda polis bölməsini ələ keçirən silahlı qrupla polis arasında baş verən atışma zamanı 3 nəfər yaralanıb.

APA-nın TASS agentliyinə istinadən verdiyi xəbərə görə, bu barədə Ermənistan polisi mətbuat xidmətinin rəhbəri Aşot Aqaronyan bildirib.

"Post-patrul alayının ərazisində atışma baş verib. Cavab atəşi ilə polis silahlı qrupun 3 üzvünü yaralayıb. Onlar artıq xəstəxanaya çatdırılıb", deyə A.Aqaronyan bildirib.

## Türkiyədə dövlət çevrilişi cəhdi ilə bağlı 18044 nəfər saxlanılıb

**Türkiyənin daxili işlər naziri Efqan Ala çevrilişə cəhdə təqsirləndirilərək tutulanlara dair son rəqəmləri açıqlayıb. Musavat.com yerli mətbuata istinadən xəbər verir ki, daxili işlər naziri Efqan Ala iyulun 15-də ölkədə çevrilişə cəhddən sonra 18 min 44 nəfərin saxlanıldığını, 9 min 677 nəfərin həbs olunduğunu qeyd edib.**

E.Ala onu da bildirib ki, 49 min 211 nəfərin pasportu ləğv edilib.

❑ Aygün SƏFƏRLİ

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərində də abunə qəbul olunur.



## SOCAR Ukraynaya 10 milyon dollarlıq yanacaq satacaq

**SOCAR "Ukrayna Dəmir Yolu" dövlət şirkətini ümumi dəyəri 10 mln. dollardan çox olan 14,08 min ton dizel yanacağı ilə təchiz edəcək.**

"APA-Economics" xəbər verir ki, SOCAR Ukrayna dövlət şirkətinin keçirdiyi tenderin qalibi olub.

Satış "SOCAR Energy Ukraine" (SOCAR-ın Ukraynadakı törəmə şirkəti) şirkəti tərəfindən həyata keçiriləcək.

## Qarabağ münaqişəsi İtaliyanın 2018-ci ildə ATƏT-ə sədrliyi dövründə gündəlikdə əsas yer tutacaq

**"Ukraynadakı böhran və ATƏT məkanındakı həlli uzanmış münaqişələr (Dağlıq Qarabağ, Dnestryanı, Abxaziya və Cənubi Osetiya münaqişələri), miqrant və qaçqın axını, Aralıq dənizinin cənub sahillərində olan ölkələrlə gücləndirilmiş tərəfdaşlıq ATƏT-ə sədrliyimiz dövründə gündəliyimizdə əsas yer tutan məsələlər olacaq".**

APA-nın xəbərinə görə, bunu İtaliya xarici işlər naziri Paolo Centiloni ölkəsinin 2018-ci ildə ATƏT-ə sədrliyi zamanı diqqət yetirəcəyi məsələlərlə bağlı danışarkən bildirib.

P. Centiloni qeyd edib ki, İtaliyanın ATƏT-ə sədrliyi ilə bağlı qəbul edilən qərar ölkənin Avropada sülh və sabitliyin möhkəmləndirilməsinə fəal şəkildə töhfə verməyə sadiq olduğunu göstərir.

Qeyd edək ki, ATƏT-in hazırkı sədri Almaniyadır. Quruma sədrliyi 2017-ci ildə Avstriya, 2018-ci ildə isə İtaliya təhvil alacaq.

## Rusiyadan neftlə bağlı proqnoz

**Dünya neft bazarında disbalans 2017-ci ilin ortalarında yox olacaq.**

Axar.az xəbər verir ki, bunu "Rossiya 24" telekanalına müsahibəsində Rusiyanın Energetika naziri Aleksandr Novak söyləyib. Onun sözlərinə görə, bu il ərzində neftin 50 dollardan yuxarı olacağını demək çox çətindir.

Novak buna fundamental faktorların imkan verməyiniyini bildirib.

YENİ MÜSAVAT
N 165 (6486) 30 iyul 2016

# ANS bir daha efirə qayıtmaya bilər

İyulun 18-də gözlənilmədən ANS telekanalının yayımı dayandırıldı. İlkin olaraq TV-nin qapadılma səbəbi kimi, ANS TV-nin ABŞ-dakı müxbiri Qənirə Ataşovanın Fətullah Gülənlə müsahibəsi göstərildi və bu müsahibənin efirə verilməməsi üçün telekanalın qapadıldığı deyildi.



## Telekanalın lisenziyası məhkəmə qaydasında ləğv edildi; **Mirşahin Ağayev:** "Ümid edirəm ki, tezliklə haqq-ədalət öz yerini tapacaq"

Əməkdaşlar şirkətdən çıxarıldı, qapılara polisin iştirakı ilə möhür vuruldu. Rəsmi qərar isə bir gün sonra, yəni iyulun 19-da elan edildi. Məlum oldu ki, Milli Televiziya və Radio Şurasında (MTRŞ) iclas keçirilib və ANS-lə bağlı məsələ müzakirə edilib. Verilən qərarla ANS Müstəqil Yayım və Media Şirkətinin yayımı bir ay müddətinə dayandırılıb.

MTRŞ tərəfindən mediaya verilən bəyanatda bildirilirdi ki, Türkiyənin hakimiyyət orqanları, bu ölkənin səfirliyi Azərbaycanın dövlət qurumlarına müraciət edərək məsələ ilə bağlı dərin narahatlıqlarını bildirib və müvafiq tədbir görülməsini xahiş ediblər: "...MTRŞ Türkiyə ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin pozulmasına yönəlmiş təxribatın qarşısını almaq, açıq şəkildə terrorizmin təbliğatına yol verməmək məqsədilə, Azərbaycan Respublikası Baş Prokurorluğunun 18 iyul 2016-cı il tarixli müraciətini, "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun 11, 23, 32-ci maddələrinin tələblərini rəhbər tutaraq "ANS Müstəqil Yayım və Media" Şirkətinin yayımının 18 iyul 2016-cı il tarixdən saat 18:30-dan etibarən 1 (bir ) ay müddətinə dayandırılması, 25 oktyabr 2013-cü il tarixli TR 099 saylı xüsusi razılığın (lisenziyanın) qüvvəsinə xitam verilməsi barədə məhkəmədə iddia qaldırılması, "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun 23.2.8-ci maddəsinin tələbinə uyğun olaraq "ANS ÇM Yayım və Media" Şirkətinə 25 oktyabr 2013-cü il tarixdə verilmiş TR 100 saylı xüsusi razılığın (lisenziyanın) qüvvəsinə xitam verilməsi barədə qərar qəbul edilib".



Bu qərardan sonra ANS TV məsələni Apelyasiya Məhkəməsinə apardı. Telekanalın gələcək taleyi bu qərardan asılı idi və qərar qəbul edildi. İyulun 29-da Bakı Apelyasiya Məhkəməsində Milli Televiziya və Radio Şurasının ANS Müstəqil Yayım və Media Şirkətinin lisenziyasının ləğv edilməsi ilə bağlı şikayətinə baxılıb. Məhkəmədə beynəlxalq təşkilat və səfirliklərin nümayəndələri də iştirak edib.

Hakim Ülvi Mayılovun sədrliyi ilə keçirilən iclasda ANS-in lisenziyasına xitam verilməsi ilə bağlı qərar qəbul olunub.

ANS TV isə qərarla bağlı Ali Məhkəməyə müraciət edəcək.

**Bu haqda musavat.com-a açıqlamasında Mirşahin Ağayev ANS-də keçirilən qapalı toplantıdan sonra deyib:** "Vəziyyətin həssaslığını nəzərə alıb, qısa danışacağam. Bu gün məhkəmə olub. Məhkəmədə ANS Müstəqil Yayım və Media Şirkətinin lisneziyasına xitam verilməsi ilə bağlı qərar qəbul edilib. Təbii ki, biz bununla razı deyilik. Bu qərardan digər instansiyalara müvafiq şikayət edəcəyik. Ümid edirəm ki, tezliklə haqq-ədalət öz yerini tapacaq".

"Lisenziya məhkəmə qərarı ilə ləğv edildiyi üçün ANS Müstəqil Yayım və Media Şirkəti lisenziya üçün MTRŞ-yə təkrar müraciət edə bilməz". Bunu isə "Report"a açılamasında Milli Televiziya və Radio Şurasının (MTRŞ) hüquq şöbəsinin müdiri Nemət Cavadov deyib.

O, həmçinin bildirib ki, "ANS Müstəqil Yayım və Media Şirkəti televiziyanın yayım lisenziyasının ləğvi ilə bağlı verilmiş məhkəmə qərarını aldığı vaxtdan 3 gün ərzində kasasiya şikayəti ilə Ali Məhkəməyə müraciət edə bilər.

Telekanalın taleyi həll olunmadan öncə ANS ÇM radiosu MTRŞ-nin qərarı ilə bağlanmışdı. Milli Televiziya və Radio Şurasının sədri Nuşirəvan Məhərrəmli bildirib ki, buna səbəb kimi ANS ÇM radiosunun yayımı zamanı bir neçə dəfə qanunvericiliyin tələblərinin pozulması halları göstərilib: "Qanunda da göstərilib ki, əgər 3 dəfə məsuliyyət tədbiri tətbiq olunursa, şura onun yayımını dayandıra bilər".

Xatırladaq ki, "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununun və "Reklam haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması ilə əlaqədar ötən ilin dekabrında MTRŞ ANS ÇM Yayım və Media Şirkətini 26 qərar üzrə ümumilikdə 161 000 manat məbləğində cərimələmişdi.

Məlumata görə, telekanalın radio ilə birgə yüzlərlə əməkdaşı var idi. Hazırda bu qədər insanın taleyi hər kəsi düşündürür.

❑ **Məhəmməd TÜRKMƏN**
**Fotolar müəllifindir**

# Əhməd Davudoğlunun Azərbaycanın önəmi barədə açıqlamasının pərdəarxası

## **Politoloq:** "Azərbaycan-Türkiyə-Rusiya alyansının yaradılması hər üç dövlət üçün mühüm əhəmiyyət kəsb edə bilər"

**"Türkiyənin Azərbaycan və Qazaxıstanla məsləhətləşmələri Rusiya ilə münasibətlərin normallaşmasına öz töhfəsini verdi". "Trend"in NTV telekanalına istinadən verdiyi məlumata görə, bunu Türkiyənin sabiq baş naziri Əhməd Davudoğlu deyib.**



Əhməd Davudoğlu

Beləcə, Türkiyə hökumətinin sabiq rəhbəri Azərbaycanın yarım ildən çox davam edən Türkiyə-Rusiya münasibətlərindəki gərginliyin ortadan qaldırılmasında oynadığı mühüm rolu bir daha dilə gətirmiş oldu. Qeyd edək ki, Ə.Davudoğlu münasibətlərin pozulmasına yol açmış hadisə - Rusiyaya məxsus "Su-24" təyyarəsinin vurulması mövzusundan bəhs edərkən bir daha "vur" qərarının özü tərəfindən verildiyini təsdiqləyib. Ə. Davudoğlu qeyd edib ki, böhrandan sonra Rusiya-Türkiyə əlaqələrinin necə inkişaf etməsindən asılı olmayaraq, Ankara ölkənin hava məkanının pozulması halında qanun çərçivəsində hərəkət edib. Türkiyənin keçmiş baş naziri təyyarə olayından sonra Azərbaycanda olmuşdu və ölkəmizin əhəmiyyəti barədə mühüm bəyanatlar vermişdi. Bugünlərdə artıq hökumətdə yer tutmadığı halda onun Azərbaycanın Qazaxıstanla birgə Türkiyə-Rusiya münasibətlərinin tənzimlənməsində oynadığı pozitiv rolu vurğulaması ölkəmizin önəminin Türkiyədə də vurğulanmasının növbəti nümunəsidir.

Qeyd edək ki, bundan əvvəl Türkiyənin bir sıra rəsmi şəxsləri Ankara-Moskva münasibətlərinin əvvəlki məcraya qayıtmasında göstərdiyi fəallığa görə rəsmi Bakıya, ilk növbədə Azərbaycan prezidentinə təşəkkür edib. Barışıqdan sonra Rusiyanın Soçi şəhərində səfərdə olan və az öncə rus həmkarı Sergey Lavrovla görüşən Türkiyə xarici işlər naziri Mövlud Çavuşoğlu Türkiyənin Rusiya ilə münasibətlərinin yaxşılaşdırılmasında etdiyi köməyə görə prezident İlham Əliyevə təşəkkür etmişdi. Daha sonra nazir "Türkiyə-Azərbaycan-Qazaxıstan, Türkiyə-Azərbaycan-Rusiya formatında görüşlərin olmasını istəyirik. Bu görüşlər bölgənin rifahına xidmət edəcək" məzmunlu açıqlamalar vermişdi.

**Ondan əvvəl Türkiyənin baş naziri Binali Yıldırım da İlham Əliyevə təşəkkür etmişdi:** "Qarşılıqlı yazışmalarda Rusiya və Türkiyə arasında buzların əriməsi üçün çalışdıq. İndi başqa bir dövr başlayır. Dostlarımız artacaq, düşmənlərimiz azalacaq. Rusiya ilə münasibətlərdə önəmli addımlar atılıb. Bir müddətdir davam edən təmaslar nəticə verir. Vəziyyətin bu yerə gəlməsində bir xeyli əmək var. Özəlliklə qardaşlarımız olan Azərbaycan və Qazaxıstana, region ölkələrinin liderlərinə səylərı üçün təşəkkürlərimizi çatdırırıq".

Qeyd edək ki, "Yeni Müsavat" Bakının Ankara-Moskva münasibətlərində vasitəçi ola biləcəyi barədə mötəbər mənbələrimizə istinadən manşet yazısı yazmışdı və bir müddət sonra yazdıqlarımız təsdiqləndi.

Görünən budur ki, Azərbaycan təkcə enerji ehtiyatları, strateji məkanda yerləşməsi və dəhliz rolu oynamaqla deyil, həm də bölgədə sülhməramlı missiya ilə çıxış etməsi ilə də önəmli dövlətdir. Hətta belə bir yanaşma var ki, Azərbaycan -Türkiyə-Rusiya birliyi yarana bilər. Bu müttəfiqlik bölgə və ölkəmiz üçün nə vəd edir? Azərbaycanın bu mövqeyi gələcək üçün nə vəd edir? Ə.Davudoğlunun Azərbaycanın önəmi barədə açıqlamasının pərdəarxası nədir?

**Politoloq Arzu Nağıyev "Yeni Müsavat"a bildirdi ki, burada əsas amil kimi Azərbaycanın məhz Türkiyə-Rusiya münasibətlərinin düzəlməsi istiqamətində oynadığı rolu, bir vasitəçi statusunda çıxış etməsini qeyd etmək lazımdır:** "Məhz Azərbaycanın hər iki tərəflə normal xarici və daxili siyasət aparması belə bir münaqişənin sülh yolu ilə həllinə gətirib çıxardı. Ümumiyyətlə, Azərbaycan bu gün Rusiya üçün də çox mühüm əhəmiyyət kəsb edir. Bu, istər iqtisadi layihələrlə bağlı, o cümlədən İranla iqtisadi layihələrin həyata keçməsində mühüm proseslərin iştirakçısı olmasıdır. Burada Azərbaycan həm də dəhliz rolunu oynayır. Bundan başqa, Qərbin Rusiyaya qarşı sanksiyalar tətbiq etdiyi bir vaxtda Azərbaycanın regional layihələrdə iştirakına şərait yarada bilər. Təbii ki, Rusiyada müsəlman inanclı bir çox federasiya subyektləri Azərbaycanla mühüm ikitərəfli əlaqələrə malikdirlər və bu da Rusiya üçün təhlükəsizlik və digər baxımdan əhəmiyyət kəsb edir".

**A.Nağıyev Bakı-Ankara-Moskva alyansının yaranmasını da faydalı sayır:** "Azərbaycan -Türkiyə-Rusiya alyansının yaradılması da hər üç dövlət üçün mühüm əhəmiyyət kəsb edə bilər. Yuxarıda qeyd edilənlərlə birlikdə əsas məsələ təbii ki, Dağlıq Qarabağ münaqişəsinin həlli və ərazi bütövlüyü məsələsidir".

❑ **Cavid TURAN**

# Hacıbala Abutalıbov rəsmən maxinasiyada suçlandı

## Hesablama Palatası büdcədən ayrılan pulların BŞİH-də mənimsənilməsi faktlarını aşkarlayıb; Milli Məclis Bakı merini bitirə bilər...

**Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov bir müddətdir ki, ortalıqda yoxdur. Əndirəbadi açıqlamaları, hərəkətləri ilə gündəmdən düşməyən Bakı meri xeyli vaxtdır ki, telekanalların efirində görünmür, mətbuatda gedən xəbərlərin baş qəhrəmanı deyil. Hacıbala Abutalıbovun öz hücrəsinə çəkilməsinin sirri bilinib. Belə aydın olur ki, Hesablama Palatası uzun müddət Bakı Şəhər İcra Hakimiyyətinin Mənzil-Kommunal Təsərrüfatı Departamentində audit həyata keçirib. Açıqlanan nəticələr isə Bakı meri üçün heç də ürəkaçan deyil.**

"Report"un xəbərinə görə, audit müəyyən edib ki, bu təsərrüfatlarda təmir xərcləri fantastik dərəcədə artıq göstərilib. Başqa sözlə, büdcədən ayrılan və işlərin görülməsi üçün xərclənməli olan pulları "yeyib"lər.

Bundan başqa, departamentdən maliyyələşmə əvəzinə verilən mal-materialların dəyərinə tətbiq edilmiş Əlavə Dəyər Vergisi də xərc kimi silinib.

Hesabatda bildirilir ki, ev təsərrüfatının saxlanılması və cari təmir xərcləri düzgün hesablanmayıb. Büdcəyə mənzil fonduna aid olmayan xərclər daxil edilib.

**"Bəzən smeta sənədlərinə, qəbul aktlarına əsassız və eləcə də tikinti texnologiyasına görə yerinə yetirilməsi mümkün olmayan işlər daxil edilib. Layihələrin yerinə yetirilməsi zamanı vaxtın azlığı əsas götürülərək, işlər əsasən birbaşa müqavilələrin bağlanılması üçün icazə alınması ilə icra edilib"**, - hesabatda bildirilir.



Hacıbala Abutalıbov

Auditin nəticələri ilə bağlı Milli Məclisə məlumat verilib.

Hesablama Palatası AZAL-da, "Su və Meliorasiya" ASC-də və Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsində də pozuntular aşkarladığını açıqlayıb.

Qeyd edək ki, ötən ilin iyulunda da Hacıbala Abutalıbovun başı dərddə idi. Vergilər Nazirliyi Bakı Şəhər İcra Hakimiyyəti Mənzil-Kommunal Təsərrüfat Departamenti tərkibindəki "Bakılift-təmir" İstehsalat Birliyində yoxlamalar həyata keçirmişdi. Uzun müddət davam edən yoxlamalar nəticəsində ciddi vergi pozuntularının və yeyintilərin olması üzə çıxmışdı. 3 böyük idarənin - "Bakılift-təmir"ə tabe olan "Bakılift-1", "Bakılift-2" və "Bakılift-3" ixtisaslaşdırılmış istehsalat idarələrinin rəisləri həbs olunmuşdu. Yeri gəlmişkən, Vergilər Nazirliyinin hər il açıqladığı büdcəyə borclu təşkilatların siyahısında "Bakılift-təmir"in də adı var. Məlumata görə, "Bakılift-təmir"in rəsmən 8 milyon manat vergi borcu var idi. Həbslərdən sonra vergi borcunun bir qismi ödənilmişdi. Hacıbala Abutalıbov ötən 1 ili səksəkə içində keçirib başa vurmamış onun başının üstünü növbəti dəfə "qara bulud"lar alıb. Hesablama Palatasının hesab-kitabı, apardığı yoxlama Bakı merinin kitabını bağlaya bilər. Əlbəttə ki, Milli Məclisə göndərilən faktlar araşdırılması üçün hüquq-mühafizə orqanlarına göndərilərsə...

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 165 (6486) 30 iyul 2016

**2014-cü ildə baş verən hüquq müdafiəçilərinin həbsi dalğasından qurtulan yeganə şəxs o oldu. Çox peşəkarcasına qurduğu plan, bir az da şansı sayəsində öncə İsveçrənin Azərbaycandakı səfirliyinin binasında 10 ay qaldı, daha sonra isə elə həmin ölkəyə köçdü. Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun direktoru Emin Hüseynovla İsveçrəyə köçdüyü ilk gündən müsahibə etmək istəsək də, ancaq indi buna razılaşdı.**




# "Mənim 247 min manatlıq vergi borcumu kimin ödədiyini bilmirəm" - mühacir jurnalistin film kimi hekayəsi

## Emin Hüseynov: "Hər şeyimizi müsadirə etdilər, bir kibrit qutumuz belə yoxdur..."; "Xədicə xanıma bir sualım var, ona cavab versə..."

*Son günlər adı jurnalist həmkarı Xədicə İsmayılla aralarındakı qalmaqala görə hallanır. Biz bu istiqamətdəki suallarımızı yönəltmək üçün onunla müsahibəyə yenidən cəhd etdik və bu dəfə... alındı. Üstəlik, skayp vasitəsilə, canlı-görüntülü ünsiyyət. Söhbətin ikinci hissəsini isə aşağıda təqdim edirik:*

**- Və necə oldu ki, siz İsveçrənin Azərbaycandakı səfirliyini tərk elədiz, ölkədən çıxdız? Həmin sürədə nələr yaşandı? Səfirlikdəki son gününüzdən danışaq, mümkünsə...**

*(əvvəli ötən sayımızda)*

- Günlərin bir günü bəlli oldu ki, Azərbaycan ölkə rəhbəri ilə İsveçrə ölkə rəhbəri arasında uzun sürən diplomatik danışıqlardan sonra əldə olunmuş razılığa əsasən, ölkəni tərk edə bilərəm. Hər iki dövlətin verdiyi qarşılıqlı razılığa əsasən, belə oldu. Bu danışığın detallarını açıqlamaq mənim səlahiyyətimə aid deyil. Düzdür, mən bu detalları bilirəm, amma yaxşı olardı ki, siz bu barədə Azərbaycan Prezident Administrasiyasından, Xarici İşlər Nazirliyindən, ya da İsveçrənin səlahiyyətli qurumlarından soruşasınız. Amma ümumilikdə deyə bilərəm ki, 10 ay qısa bir müddət olmasa da, bir qədər çətin oldu. Günlərin bir günü bəlli oldu ki, mən artıq daha təhlükəsiz bir məkana gedə bilərəm. İsveçrə səfirliyindən çıxıb, İsveçrənin özünə gəldim. Hazırda da burda siyasi mühacir və vətəndaşlığı olmayan şəxs kimi yaşayıram.

**- İsveçrədə yaşamaq arzusu sizə aid idi? Yoxsa İsveçrə səfirliyi sizə sığınacaq verdiyi üçün yaşamaq məqsədilə oranı seçmək zorunda idiz? Belə bir anlaşma var idi?**

- Mən İsveçrəyə daxil olandan iki gün sonra bildim ki, artıq Azərbaycan vətəndaşı deyiləm. Ondan sonra da bəlli oldu ki, bu, yeganə çıxış yoludur ki, kötük sənədlərin əldə olunması üçün harasa müraciət edim. Müraciət etməsəydim, mənimçün sərbəst yer dəyişmək çətin olardı. Mən istənilən ölkənin miqrasiya orqanlarına müraciət etməliydim ki, işimi davam etdirmək, səfər etmək üçün mənə sənəd versinlər. Bundan öncə İsveçrənin dəyərlərinə bələd olduğum üçün yaşayış məqsədilə də məhz ora müraciət etməyə qərar verdim.

**- Gəldiniz İsveçrəyə. Dərhal yaşayış üçün normal şərtlər təmin olundumu? Müavinət alırsız? Belə deyək, bu ölkəyə qədəm qoyan kimi hər şey hazır məcməyidə sizə təqdim olundumu?**

- Mən İsveçrəyə gələndən sonra İsveçrənin dövlət qurumlarına sosial müavinət, güzəştlər üçün müraciət etməmişəm. Gəldiyim ilk gündən hüquq müdafiəçisi fəaliyyətimi, donorlarla ünsiyyətimi bərpa etmişəm. Həyata keçirdiyim layihələrdə də özümə maaş yazıram, onunla ev kirayəmi də verirəm, suyumu da alıram, yeməyimi də. İsveçrənin mənə Azərbaycandakı səfirliklərində etdiyi fədakarlıqlar yetərli oldu. Mən istəmirəm ki, İsveçrədə yaşaya-yaşaya orda hansısa təqaüdçü, vergi ödəyicisi məni saxlasın. Bugünkü biliklərim, potensialım imkan verir ki, mən fəaliyyətimi davam etdirim. Amma İsveçrə məndən fərqli olaraq digər mühacirlər üçün sosial proqramlar tətbiq edir. İnsanlar oranın dilini öyrənir, ora qaynayıb qarışır, sonda isveçrəli olur. Mən İsveçrənin bütün qanunlarını, mədəniyyətini, cəmiyyətini, tarixini öyrənsəm də, özümü daha çox həsr edirəm Azərbaycandakı hüquq müdafiə sahəsinə. Halal zəhmətimlə qazandığım gəlirlə yaşayıram. Amma elə insanlar var ki, Suriyadan, ya da Azərbaycandan gəlirlər, burda dil kurslarına gedir, dil öyrənirlər, sonra da hansısa müəssisədə çalışıb, o ölkənin sistemini mənimsəyirlər. Mənsə bunu görmürəm, köhnə işlərimi görürəm.

**- Hazırda statusunuz nədir?**

- Qaçqın statusundayam. Bir sənəd veriblər (o sənədi skayp vasitəsilə göstərir - müəl.)

**- Amma o statusun verdiyi heç bir güzəştdən istifadə etmirsiz...**

- Xeyr, etmirəm.

**- Səhv etmirəmsə, hazırda heç bir ölkənin vətəndaşı deyilsiz. Vətəndaşlıq üçün müraciət etmisizmi?**

- Mən nə İsveçrə hökumətinə, nə də başqa bir dövlətə vətəndaşlıq üçün müraciət etmişəm və belə bir müraciət etmək fikrim də yoxdur. Hesab edirəm ki, mənim Azərbaycan vətəndaşlığından çıxarılmağım insan haqları konvensiyasına və konstitusiyamıza ziddir. Buna görə də məhkəməyə müraciət etdim. Çalışacam ki, gələcəkdə də Avropa İnsan Haqları Məhkəməsi vasitəsilə pozulmuş hüquqlarımı bərpa edim. Ona görə də mən buna bir müvəqqəti status kimi baxıram.

**- Yeri gəlmişkən, siz ölkədən çıxandan sonra Siyavuş Novruzov sensasion açıqlama ilə çıxış edərək "Emin Hüseynov Azərbaycandan qanunsuz şəkildə, gizlicə qaçırılıb", deyə bir açıqlama verməşdi. "CNN üçün son illərdə Azərbaycanda baş verən ən böyük hadisə Emin Hüseynov adlı birisini tapıb söhbət etmək olub". Bunu da Azərbaycan Prezident Administrasiyası rəhbərinin müavini, xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov özünün twitter səhifəsində yazaraq Amanpura, dolayısı ilə də sizə istehza etmişdi. Bu, nə üçün lazım idi, sizcə? Əgər ortada dövlətlərarası ciddi anlaşma var idisə, sizin 160 min dollar məbləğindəki vergi borcunuz ödəndikdən sonra bu baş vermişdisə, YAP və hökumət rəsmilərinin bu mövqeyi nədən xəbər verirdi?**

- Birincisi, vergi borcunun məbləği 160 min dollar yox, 247 min manat idi. 52 qrant layihəsi üzrə 247 min ƏDV hesablayıb, bunu ödətdiriblər. Qeyri-kommersiya təşkilatı əlavə dəyər vergisi ödəmir, amma bunu bizə ödətdiriblər. Bu pulu kim necə ödəyib, bilmirəm.

**- Mən də elə onu soruşmaq istəyirdim. Bu qədər böyük pulları kim sizin üçün ödəyə bilərdi?**




- Bilmirəm. Böyük qüvvələr var da, ödəyiblər. O pulu geri almaq üçün Avropa İnsan Haqları Məhkəməsinə müraciət etmişəm. Ofisimizin möhürlənməsi, son 2 ildə fəaliyyətimizin iflic halına salınmasına görə itirilmiş iş yerləri, insan taleləri məsələsini də əlavə edib, iddiamızı hazırladıq. O iddianın içində 247 min manat məbləğin geri alınması məqamı da var. Mən o pulu Azərbaycan hökumətinə ödətdirəcəm. Sonra da onu hansı böyük dostlar bizim əvəzimizə ödəyiblərsə, qaytaracağıq. Bu, müvəqqəti borcdur. Bunu niyə ödətdiriblər? Azərbaycan hökuməti bunu etməklə öz simasını qorumağa çalışıb. Yəni ki, biz o boyda vergini ödətdirəndən sonra Emin Hüseynovu buraxdıq. Bu da bir danışıq idi bəlkə. Mən detallar barədə heç nə deyə bilməərəm. Amma mən bununla razılaşmıram, iddiamı da göndərmişəm.

**- Siyavuş Novruzovun və Novruz Məmmədovun açıqlamalarına qayıdaq...**

- Siyavuş Novruzov heç özü də bəzən nə dediyini bilmir. Bu, onun səlahiyyətində, şərh verəcəyi bir məsələ deyildi. Ona görə də özü üçün danışırdı. Molotov kokteylinə "molotov kotleti" deyir. Özünə aid olmayan məsələlərə şərh verir. Bəlkə də bununla reklam olunmaq istəyir? Axı o, bu və ya digər media orqanlarında görünməyi xoşlayır, özünü böyüklərinin yanında ağıllı göstərmək istəyir. Novruz Məmmədovda isə yumor hissi var, hərdən tvitterdə kimisə iynələməyi xoşlayır. Amma yekunda özü özünü sancır. Görünür, mənim müsahibəmdən xoşu gəlməyib, hansısa formada buna rəy bildirmək istəyib. Onun tveet yazmaq hüququnu da tanıyıram.

**- Belə... Pis günlərlə bu qədər. İndisə keçək sizin İsveçrə həyatınızın detallarına. Hansı şəhərdə yaşadığınızı soruşmağımda bir problem yoxdur?**

- Deyə bilərəm. Cenevrədə. Hərdən Berndə də qalıram. İsveçrənin hər tərəfində dostlarım var. Sözün açığı, heç evdə də çox tapılmıram. Görüşlər, səfərlər çoxdur. İsveçrənin özündə 30 günün heç 5-ni keçirmirəm.

**- Günləriniz necə keçir? Konkret hansı layihə ilə məşğulsuz?**

- Azərbaycanda insan haqları ilə bağlı vəziyyəti izləyir, beynəlxalq ictimaiyyəti bununla bağlı məlumatlandırırıq. Müvafiq bülletenlər yayırıq, ekspert dəyərləndirməsini hazırlayırıq. Nəyi bacarırıqsa, edirik. Gələcəyə planlaşdırırıq ki, Obyektiv TV layihəsini davam edək. Vətəndaşlar telefonla nəsə çəkirsə, onları biz ictimailəşdirək. Gözləyirdik ki, Azərbaycan iqtidarı bizdən müsadirə etdiyi avadanlıqları qaytarar. Pulu bizə ödətdiriblər, amma təşkilatın ofisi möhürlənib, avadanlıqlarımız müsadirədədir. Bizim bir kibrit qutumuz belə yoxdur. Bizdə elə kameralar var idi ki, hərəsi 7-8 min manat idi, serverlər, digər aparatların da qiyməti çox baha idi. Planımızda da var ki, müxbirlərə bu avadanlıqları verib, hansısa çəkilişə göndərməkdənsə - onun əlindən həmin avadanlığı polis alandan sonra heç bir mənası qalmayacaq - vətəndaş jurnalistikasını inkişaf etdirək. Vətəndaşlar çəkib bizə yollasınlar, biz yayaq.

**- Bugünlərdə müstəqil jurnalist Xədicə İsmayıl sizə ciddi ittihamlar ünvanladı. Sizi onun və onun kimi siyasi məhbusların taleyi ilə pul qazanmaqda ittiham etdi. Söhbət hansı layihədən gedirdi?**

- Siz çox çətin sual verdiniz. Çünki məndə ona cavab yoxdur. Mən siyasi məhbuslarla təkbaşına heç vaxt işləməmişəm. Hər zaman əqidə yoldaşlarımla birgə bu siyahıların üstündə işləmişik. Bununla bağlı xüsusi layihəmiz olmayıb, öz istəyimizlə, əlavə iş kimi işləyirdik. Yaxşı olardı ki, siz Xədicə xanımdan bunu soruşaydız. Qrant layihəsi budur ki, hansısa sahənin inkişafı üçün donorlardan pul alırsan və o layihəni həyata keçirirsən. Bu, normal bir şeydir. Mənim Xədicə xanıma qarşılıqlı bir sualım var. O, bir hüquq müdafiə təşkilatı göstərsin ki, hər hansı maliyyə, qrant, ianə qəbul etmədən uzunmüddətli işləsin. Göstərə bilməz. Ona görə də onun yazışmasını anlamadım. Sanki bolşevik yanaşması olur ki, biz bu işi öz fədakarlığımız hesabına edirik. Tutaq ki, sən regiondakı hansısa məhkəməni izləməlisən, bunun üçün ora gediş, rabitə xərcin, orda qalmağın... hamısı puldur. Bunun üçün sənə maliyyə lazımdır. Xədicə xanım mənə yazdığı iradı hansısa xarici hüquq müdafiə təşkilatına yazsaydı, onlar onu gülünc yerinə qoyardılar. Mən onu ingilis dilində yazmadım, amma xaricilər bunu oxusaydılar, gülərdilər. Xədicə xanım da həyata keçirdiyi fəaliyyət üçün maliyyə alıb. Mənim də ona bir sualım var: Həmin məntiqlə o da həmin verilişləri, araşdırmaları pulsuz etməliydi. Niyə etmədi? Mən onun bu yanaşmasını gülünc və emosional hesab edirəm. Görünür, nədənsə məndən küsüb, əlaqə saxlamağa çalışdım, səhvim varsa üzrxahlığımı edim, amma o, mənə aydınlıq gətirmədi. O, nəsə aydınlıq gətirsə, qarşılıqlı mətbuat polemikası apara bilərik. Xədicə xanıma böyük hörmətim var. Amma bu hörmətə rəğmən heç kimə imkan verməərəm ki, mənim barəmdə həqiqətə uyğun olmayan məlumatlar yazsın.

**- Jurnalist xanım sizi həm də donos yazmaqda ittiham etmişdi. Demişdi ki, "bundan sonra nə etsən də, özünü dissident kimi təqdim edə bilməyəcəksən".... Hər halda, ciddi ittihamlardır. Bu, nədən qaynaqlanır?**

(davamı növbəti sayımızda)

❑ Sevinc TELMANQIZI

# Müxalifətdə və hakimiyyətə yaxın düşərgədə referendum hazırlıqları

## Müsavat Partiyası təşviqat qrupu yaratdı, Milli Şura isə... səfərbərlik elan etdi; **Fəzail Ağamalı** "onların çağırışları xalq tərəfindən rədd ediləcək" deyir

**Seçki Məcəlləsi siyasi partiyalara və vətəndaşlara ölkədə keçirilən referendumla bağlı təbliğat və ya anti-təbliğat aparmaq üçün təşviqat qrupu yaratmaq hüququ verir. Hakimiyyət partiyası və iqtidara yaxın partiyalar hazırlıqlara başlayıb. Müxalifət partiyaları isə hələ ki ancaq bəyanatlar verirlər. İki gün öncə ən sərt bəyanatlardan birini isə AXCP və digər bəzi qüvvələrin təmsil olunduğu Milli Şura verib. Milli Şura xalqı referendum əleyhinə səfərbər etmək üçün ümumxalq hərəkatının yaradılmasının vacibliyini bəyan edib, xalqı etiraz etməyə çağırıb. Qurum bu məsələ ilə bağlı müzakirələrin davam etdirilməsini, antireferendum fəaliyyəti üçün əlavə imkanların hərəkətə gətirilməsini, kütləvi tədbirlərin keçirilməsini məqsədəuyğun sayıb.**

Bəs partiyalar referendumla bağlı təşviqat qrupu yaradacaqmı? Milli Şuranın çağırışı necə qiymətləndirilir? Bu cür çağırışlarla ciddi nəticəyə nail olmaq mümkün olacaq?

**Ümid Partiyasının sədri İqbal Ağazadə** bildirdi ki, müxalifətin antireferendum təşviqat qrupu yaratması müzakirə olunur. Hələlik dəqiq nəticə yoxdur: "Amma bəlli olan odur ki, müxalifətin bəlli bir kəsimi, o cümlədən Ümid Partiyası da referenduma çıxarılan məsələlərin əksəriyyətinin əleyhinədir, bununla bağlı mövqeyini ifadə edib. Etiraz formaları və konstitusiyaya dəyişikliklərin olmaması üçün seçiləcək taktika isə fərqli ola bilər. Bu barədə müzakirələr gedir. Yəqin ki, gələn həftə bəlli olacaq ki, referendumda iştirakın formaları necə olacaq".

**Milli Şuranın çağırışlarına gəlincə, İ.Ağazadə qeyd etdi ki, bu gün xalqı meydana etiraza çağırmaqdan daha çox təşkilatçılığın üzərində dayanılmalıdır:** "Siyasi institutlar təşkilatlanandan, mövqe ifadə edəndən sonra vətəndaşlarla işləməyin mexanizmi tapılmalıdır, nəinki vətəndaşa müraciət etmək. Güman etmirəm ki, indi vətəndaşlara müraciətin effekti böyük olsun".

**Müsavat Partiyası Divanının üzvü İkram İsrafil bildirdi ki, müxalifət adına iddia edən hər bir qurumun bu mərhələdə atacağı ən birinci addım antireferendum təşəbbüs qruplarının yaradılması olmalıdır:** "Zatən siyasi partiyaların seçkilərdə iştirak etməkdən, olub-bitənləri xalqa, seçicilərə çatdırmaqdan başqa vacib işi ola bilməz. Yəni müxalifət adına iddia edən hər bir qurum bunu ya birlikdə, ya da təkbaşına etməlidir".

Müsavat başqanı Arif Hacılı isə facebook səhifəsində yazıb ki, partiya referendum təşviqat qrupu yaratmaq barədə qərar verib. Qrupun adı "Respublika" olacaq.

**AMİP-in sədr əvəzi Arzuxan Əlizadə isə hesab edir ki, referenduma çıxarılacaq məsələlərə hüquqi müstəvidə münasibət bildirmək, bunu televiziya və digər KİV-lər vasitəsilə ictimaiyyətə çatdırmaq baxımından referendum üzrə təşviqat qruplarının yaradılmasına ehtiyac var:** "Müxalifət bu imkandan Seçki Məcəlləsi ilə təsbit olunmuş müddəalar əsasında yararlana bilər. 2002 və 2009-cu illərdə keçirilmiş referendumlarda həm müxalifət, həm də iqtidar tərəfindən belə təşviqat qrupları formalaşdırılmışdı. Amma açığı, bugünkü mövcud reallıqlar fonunda real müxalifətin referendum üzrə təşviqat qrupu yarada biləcəyi və həmin qrupun qeydə alınacağına bir o qədər də inanmıram.




Milli Şuranın xalq hərəkatı yaradılması çağırışına gəldikdə isə, bu çağırışın effektliyinə də bir o qədər inanmıram. Əvvəla, Milli Şura bütövlükdə müxalifət düşərgəsini təmsil etmir və ikinci əsas məsələ də odur ki, bunun üçün ölkədə real şərait mövcud olmalıdır. Son illər ərzində Milli Şura tərəfindən belə çağırışlar dəfələrlə olub. Amma reallıq odur ki, nəticə etibarilə meydana çox az sayda insanın çıxdığının şahidi olmuşuq".

**Hakimiyyətyönlü Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı isə bildirdi ki, rəhbərlik etdiyi partiya təbliğat-təşviqat prosesində fəal iştirak edəcək:** "Ancaq iştirakımızın formasını dəqiqləşdirmək üçün təbii ki, müzakirələr aparılmalıdır və biz bu müzakirələri aparacağıq. Təbliğat-təşviqat kampaniyasına rəsmi start veriləndən sonra biz xalqın iradəsinin reallaşması üçün qanunların vermiş olduğu imkanlar çərçivəsində öz potensialımızdan maksimum istifadə edib bu prosesdə fəal iştirak eləyəcəyik. Bəzilərinin referenduma qarşı xalq hərəkatı yaratmaq kimi çağırışlarına gəldikdə, müxalifətin radikal qanadı, yəni Əli Kərimlinin himayəsində olan Milli Şura və AXCP referendumla bağlı konkret arqumentləşdirilmiş, hüquqi cəhətdən əsaslandırılmış fikirlər söyləyə bilmirlər. Çünki belə fikirləri söyləmək üçün heç bir əsas yoxdur. Xalqı meydana etiraza çağıranlar, xalq hərəkatı yaratmaq çağırışı edənlər, sadəcə, öz siyasi baxışlarının mahiyyətindən doğan konyukturanı ortalığa qoyurlar. Onlar dövlətçiliyimizi daha da möhkəmləndirəcək referendumun əleyhinə getməklə bir daha öz ənənələrinə sadiq olduqlarını nümayiş etdirirlər. Onların bu çağırışlarının xalq tərəfindən dəstəklənməyəcəyinə tam əminəm. Uzun illərdən bəri Əli Kərimli və ətrafının mitinq təyin eləmələri, xalqa meydanlara çıxmaq çağırışları eləmələri heç bir nəticə verməyib. Yenə də verməyəcək. Onların çağırışları xalq tərəfindən rədd ediləcək və sentyabrın 26-da xalq referenduma gedib səs verəcək".

❑ **Etibar SEYİDAĞA**

# Vitse-prezidentlərdən biri müxalifətçi ola bilər - iddia

## Parlamentdə azlıqda olan partiyalardan və ya müxalifətdən kiminsə bu posta gətiriləcəyi ideyasının müzakirə edildiyi bildirilir

**26 sentyabrda keçiriləcək referendumda konstitusiyaya dəyişiklik təkliflərindən biri ölkədə vitse-prezidentlər postunun yaradılmasıdır. Bu təklif konstitusiyada rəsmi şəkildə əksini tapandan sonra ölkənin ikinci şəxsi birinci vitse-prezident olacaq. Məlumatlara görə, iki nəfər vitse-prezident olacaq. Hakimiyyətə yaxın mənbədən "Yeni Müsavat"a verilən xəbərdə iddia olunur ki, yuxarı dairələrdə vitse-prezident postlarından birinə parlamentdə azlıqda təmsil olunan partiyalardan və ya müxalifətdən olan partiyalardan birinin sədrinin təyin olunacağı məsələsi ideya olaraq müzakirə edilir.**

Bəs siyasi partiyalar belə bir məsələnin reallaşacağını düşünürmü? Onlara təklif gəlsə, qəbul edərlərmi?

**İqtidaryönlü Ana Vətən Partiyasının sədri, deputat Fəzail**







**Ağamalı** bildirdi ki, vitse-prezidentlərdən biri postunun parlamentdə azlıqda təmsil olunan partiyalardan və ya müxalifətdə olan partiyalardan birinin sədrinə veriləcəyi barədə onda məlumat yoxdur: "Müxtəlif rəylər, ideyalar ola bilər. Lakin bütün bunların hamısı hələ ki qumanlardan o tərəfə keçmir. Gəlin tələsməyək, referendum keçirilsin. Bundan sonra Azərbaycan Konstitusiyasının verdiyi hüquqlar çərçivəsində ölkə prezidenti özünün yanaşmalarını, bu və ya digər məsələ ilə bağlı addımlarını ortalığa qoyacaq. Güman edirəm ki, vitse-prezidentlərin təyinatları müxtəlif Azərbaycan dövlətçiliyinin gələcək perspektivinə, unitar dövlətçiliyimizin möhkəmlənməsinə xidmət edəcək. Əgər doğrudan da vitse-prezidentlərdən biri parlamentdə təmsil olunan azlıqda olan partiyalardan və ya kənarda olan partiyalardan hər hansı birinin sədrinə həvalə edilərsə, bu seçim də yenə ölkə prezidentinin səlahiyyətinə aid olan məsələdir. Ölkə prezidentinin seçiminə uyğun olaraq da məsələ reallaşacaq".

**AMİP-in sədr əvəzi Arzuxan Əlizadə isə qeyd etdi ki, müxalifət partiyalarından birinin rəhbərinin vitse-prezident postuna təyin olunacağı o qədər də inandırıcı deyil:** "Əvvəla, bunu ölkədəki mövcud şərait diktə etməlidir, yəni ölkədə elə bir situasiya yaranmalıdır ki, iqtidar müxalifətlə birlikdə etimad hökuməti formalaşdırmağın zəruriliyini qəbul etsin. Parlament seçkiləri ərəfəsində də parlament sədrinin müavinlərindən birinin müxalifəti təmsil edəcəyi fikirləri mövcud idi, hətta belə fikirlər parlamentdə təmsil olunan bir sıra partiyalar tərəfindən də səsləndirilmişdi. Lakin bu da baş vermədi. Halbuki bu, dünya praktikasında qəbul olunan məsələdir və yaxın qonşularımızda, məsələn, Gürcüstanda belə praktikadan istifadə olunur.

Vitse-prezident postuna təyinatla əlaqədar bizə edilə biləcək təklif məsələnin isə belə təklif olmadığı üçün münasibət bildirməyə də ehtiyac görmürəm".

**Ümid Partiyasının sədri İqbal Ağazadə bildirdi ki, bir müxalifətçi vitse-prezident təyin olunursa, bu o deməkdir ki, həmin şəxs artıq müxalifət deyil:** "Ortaq hakimiyyət anlayışı var dünyada. Ortaq hakimiyyətdə olanlar da müxalifət yox, iqtidar hesab olunurlar. Bugünkü iqtidar-müxalifət münasibətləri sistemi elə səviyyədədir ki, güman etmirəm vitse-prezidentlərdən biri indiki müxalifətdən olsun. Hesab edirəm ki, bu məsələnin ortaya atılması elə də ciddi arqumentə söykənmir. Hətta bu gün parlamentdəki azlıq sayılan partiyalardan da hansınınsa sədrinə vitse-prezident postu veriləcəyini güman etmirəm".

Müsavat Partiyasının Divan üzvü İkram İsrafil isə dedi ki, Müsavat referendumun və konstitusiyaya təklif olunan dəyişikliklərin əleyhinədir. Ona görə kimlərin vitse-prezident olacağı Müsavatın maraq dairəsində deyil.

❑ **Etibar SEYİDAĞA**

## Rüstəm İbrahimbəyov konstitusiya dəyişikliyindən yazdı




**Milli Şuranın fəxri sədri Rüstəm İbrahimbəyov son dövrlər ölkədə baş verənlərlə bağlı məqalə yazıb. O, ölkədə keçiriləcək referenduma, konstitusiyaya gözlənilən dəyişikliklərə, həmçinin "Nardaran işi"nə, Tale Bağırzadəyə işgəncə verilməsi faktına münasibət bildirib.**

"Neçə gündür "Nardaran işi" ilə bağlı məhkəmədə Tale Bağırzadənin verdiyi bəyanatın ağır təsiri altındayam. İnanclı adam müstəntiqlərin ona verdiyi ağır işgəncələrdən danışıb. Ondan Milli Şura liderləri Cəmil Həsənli və Əli Kərimlini şərləmək tələb edilib. Bağırzadə sərt işgəncələrə tab gətirib, cinayət əməlinin qarşısını alıb və nüfuzlu müxalifətçiləri insanların ölümünə səbəb olan hadisələrin ilhamvericiləri və təşkilatçıları elan etməyə mane olub",- deyə R.İbrahimbəyov bildirib.

R.İbrahimbəyov konstitusiyaya ediləcək dəyişikliklərə tənqidi yanaşıb və sərt mövqe sərgiləyib.

R.İbrahimbəyov referendumun rəmzi məzmun daşıdığını ifadə edib: "...Belə bir faciəvi sual yaranır: yaranmış vəziyyətdə ölkəmizin vətəndaşları nə etməlidirlər?"

❑ **RÖYA**



# Yenə də yaş senzi...

Xalid KAZIMLI

**Bu günlərdə mərhum müğənni İlhamə Quliyevanın məşhur "Yaşın nə fərqi var ki" hitinin leytmotiv misrası növbəti dəfə çək-çevir predmeti olub. Ortaya çıxıb ki, bəlkə eşq-məhəbbət məsələlərində yaşın fərqi yoxdur, amma dövlət idarəetməsi xüsusunda yaşın fərqi varmış.**

Ən azı konstitusiyada seçkili orqanlarda azyaşlıların, daha dəqiqi, yaşı az olanların iştirakına məhdudiyyət vardı. Ölkə prezidenti olmaq istəyənlər 35 yaşlarını doldurmalıydı.

İndi təklif var ki, yaş senzi aşağı düşürülsün.

Hey, gidi dünya... Bir zamanlar prezidentlik üçün yaş senzinin yuxarı həddi də vardı. Ayaz Mütəllibovun prezidentlik dönəmində konstitusiyaya belə bir dəyişiklik etmişdilər ki, yaşı 70-i ötmüş şəxs prezident seçilə bilməz.

Bu, sırf Heydər Əliyevin qarşısını almaq üçün nəzərdə tutulmuşdu. Çünki onu hakimiyyətə gətirmək istəyən qüvvələr fəallıq edirdilər. 50+ yaşı olan Mütəllibov bunu bilir və müqavimət göstərirdi, qayıdışın qabağını "konstitusion yolla" almaq istəyirdi.

Tale elə gətirdi ki, konstitusiyaya növbəti dəfə düzəliş olundu, Əliyevin hakimiyyətə yolu açıldı. Həttа artıq 80 yaşı olanda da hakim partiya onun prezidentliyə namizədliyini irəli sürmüşdü.

İndi isə prezidentlik yaşının aşağı həddini yenidən müəyyənləşdirmək, bir də prezidenti səlahiyyət müddətinin 7 il edilməsi təşəbbüsü var.

Ortalıq bu təşəbbüslərin dəstəkçiləri ilə dolub-daşır. Rəsmən qaynaşırlar. Hərəsi öz dünyagörüşünə uyğun şəkildə ali saraydan qaynaqlanan layihəyə dəstək, qüvvət verir.

Baş nazirin müavini Əli Əhmədov yaş senzi ilə bağlı tarixdən nümunələr gətirib, Şah İsmayılın, Makedoniyalı İsgəndərin, Napoleonun adını çəkib, onların erkən yaşda dövlət başına keçdiklərini deyib.

Birincisi, orta əsr xanədanlıqları ilə müasir dövrdə seçki yoluyla formalaşdırılmalı olan idarəetmə sistemlərini müqayisə etmək çox qüsurludur. Çünki qədim dövrlərdə hökmdar olmaq üçün heç 14 yaşa çatmağa da ehtiyac yox idi, xanədanlığın 1-2 yaşlı varislərinin də taxta çıxarıldığı hallar olub. Buna isə hakimiyyətə gəlmək deyilməz.

Heç Napoleon da hakimiyyətə seçki yoluyla gəlməyib, qazandığı hərbi qələbələrə görə malik olduğu şöhrətdən və dövrün konyukturundan istifadə edərək, hərbi-siyasi çevriliş yoluyla hakimiyyəti götürüb.

Bir başqası da ciddi-cəhdlə prezidentin səlahiyyət müddətinin 7 il olması ideyasını müdafiə edir, bir çox ölkələrdə artıq bu sistemin qəbul edildiyini bildirir.

O "bir çox ölkələr" hansılardır, hansı inkişaf etmiş, demokratiya örnəyi olan ölkələrdir, konkret bir şey yoxdur. Dünyanın ən demokratik ölkələrində artıq prezidentlik institutunun özü simvolik hala gəlib, heç onun səlahiyyət müddətinin nə qədər olması da mübahisə predmeti olmaqdan çıxıb.

Bu cür ideyaları müdafiə edənlər adi şahsevənlərdir. Onlar ya saray əyanlarıdır, ya da özlərini birtəhər əyan-əşrəf arasına pərçim etmək istəyənlərdir.

Əgər sabah ali saraydan təşəbbüs gəlsə ki, prezidentin səlahiyyət müddət azaldılıb 4 il olsun, bu adamlar dərhal qabağa düşəcək, ideyanı müdafiə edəcəklər. Əksinə olsa, prezidentlik müddətinin 10 il, hətta ömürlük olması təklif edilsə, onlar yenə də sübut etməyə çalışacaqlar ki, düzü budur, çox ağıllı təklifdir, dünyanın çox yerində belədir.

Biz bu cür, özlərinə ziyalı deyən, özlərini cəmiyyətin qaymağı sayan adamlarla, məmurlarla insan haqlarına riayət edilən demokratik dövlət qurmaq, Avropa ailəsinə inteqrasiya etmək istəyirik.

Mümkün ola bilərmi? Əsla ola bilməz. Konstitusiya üzərində vaxtaşırı düzəlişlər aparmaqla, bu toxunulmaz qanunları hər dəfə arzuya, günün konyukturasına uyğunlaşdırmaqla xəyallarda olan, haqq-ədalətin bərqərar olduğu, dünya miqyasında adından yaxşı mənada söz etdirən dövləti qura bilməyəcəyik.

Bax, elə bu cür də davam edəcəyik. Az çəkəcək, çox çəkəcək, bilinmir. Ancaq bu yol bizi işıqlığa, gülüstana aparmayacaq. Bunu əminliklə demək olar. Fəqət böyüklər bu kimi xəbərdarlıqlara baxan deyil, öz iradələrini yeridəcək, bildiklərini edəcəklər. Nə də xalq onlara "dur" deməyəcək.

# Milli Məclis buraxılacaqmı...

**Konstitusiyaya təklif edilən dəyişikliklər referendumda qəbul edilsə, prezident Milli Məclisi buraxmaq səlahiyyətinə malik olacaq. Bəzi ekspertlər hesab edir ki, referendum aktında nəzərdə tutulan dəyişikliklər üstün səs toplasa, prezident Milli Məclisi buraxacaq və bu ilin sonlarına doğru yenidən parlament seçkiləri keçiriləcək.**

## Ərəstun Oruclu: "Yüksək ehtimalla referendumdan sonra parlament buraxıla, hətta prezident seçkiləri də keçirilə bilər"
## Vahid Əhmədov: "Buna inanmıram"





Bəs görəsən, politoloqlar və Milli Məclisin deputatları özləri bu haqda nə düşünür?

**Politoloq Ərəstun Oruclunun** fikrincə, referendumdan sonra həm prezident, həm də parlament seçkiləri keçirilə bilər: "Yüksək ehtimalla referendumdan sonra Milli Məclis buraxıla bilər, hətta prezident seçkiləri də keçirilə bilər. Yeksək ehtimalla onlar eyni günə də təyin oluna bilər. Çünki struktur olaraq bəzi düzəlişlər var. Onlar da əlavə olunacaq. Hesab edirəm ki, prezident və parlament seçkilərinin yenidən keçirilməsi üçün ehtimal var və bu ehtimal heç də az deyil.

**Milli Məclisin deputatı Vahid Əhmədov isə qeyd etdi ki, parlamentin buraxılması və təkrar seçkilərin keçirilməsi gözlənilmir:** "Mən Milli Məclisin buraxılacağına inanmıram. Çünki parlament seçkiləri təzə olub. Hələ noyabrdan cəmi 5-6 ay keçib. Mən elə bir qərar gözləmirəm. Lakin dövlət referendumla təzə konstitusiya qəbul etsə, bu, prezidentin səlahiyyətində olan məsələ olacaq. Şəxsən mən millət vəkili kimi bunu özüm üçün problem hesab etmirəm. Amma bu əlavə xərcdir, hər seçkinin keçirilməsi milyonlarla manat xərc deməkdir. Hesab edirəm ki, Milli Məclis təzə seçilib. Yenidən Milli Məclisə seçkilərin keçirilməsinə ehtiyac yoxdur. Ancaq dövlət başçısı nə qərar verəcəksə, onu da həyata keçirəcəyik. Əsas odur ki, xalq millət vəkillərindən razı olsun, deputatlar da xalqın problemlərinə həssas yanaşsınlar. Cənab prezident də çıxışında yeni formalaşan Milli Məclisdən razılığını bildirdi, bizim qarşımızda bir sıra məsələlər qoydu. Yəni elə bir narazılığı da yox idi".

**Deputat Fazil Mustafa isə MM-in buraxılmasını gözləmədiyini, əksinə böyük ehtimalla prezident seçkilərinin təyin olunacağını bildirdi:** "Milli Məclisin buraxılması iddiası əsaslı görünmür. Ona görə ki, birbaşa prezidentlik institutu ilə bağlı məsələdə dəyişikliklər daha çox nəzərdə tutulur. Milli Məclislə bağlı köklü dəyişikliklər nəzərdə tutulmur, bura təkrar seçkilərin keçirilməsi real görünmür. Lakin referendumdan sonra konstitusiyaya dəyişikliklər qəbul olunarsa, bu, mümkündür. Çünki parlamentin funksional məsələləri ilə bağlı ciddi bir dəyişiklik yoxdur. Prezident seçkilərinin keçirilməsi isə realdır. Çünki vitse-prezident, birinci vitse-prezident institutu təsis olunur və bu, yeni bir situasiya yaradır. Ancaq Milli Məclislə bağlı elə bir zərurət yoxdur. Həm də eyni vaxtda bir neçə seçkinin keçirilməsi böyük maddi problemdir, ciddi bir iş tələb edir".

❑ Nərgiz LİFTİYEVA

# Eldar Mahmudovun ölkədən getməsinə "yaşıl işıq"

## Sabiq naziri susması qarşılığında xaricə yola salmaq planı var

**9 ay əvvəl Milli Təhlükəsizlik Nazirliyində (MTN) başladılan qəfil yoxlamalar qurumun ləğv olunması, 10 MTN generalı da daxil olmaqla, ümumilikdə 21 MTN-çinin həbsi ilə sonuclandı. Sabiq nazir Eldar Mahmudovun kreslosu ilə vidalaşması da həmin yoxlamaların başlandığı günə təsadüf etdi.**



Amma həbslər dalğasında istintaqının əli həbs edən Eldar Mahmudovun yaxasına yapışa bilmədi. Ötən müddət ərzində Eldar Mahmudovun ölməsi, ölkədən qaçması, həbsə alınması, istintaqa çağırılması, ürəyinin ağrımasınadək xəbərlər yayıldı. Onun əlindəki 2800 seks videosunun üzərindən azadlıqda qalması da gələn xəbərlər sırasında oldu.

Fakt odur ki, bu gün sabiq nazirin barəsində mətbuat 3-5 ay əvvəlkitək yazmır. İstintaqçıların da ona sarı uzanan əlləri artıq görünməz olub. Kənardan belə görünür ki, artıq istintaqçılar "MTN işi" üzrə Eldar Mahmudova sarı addımlar atmaq niyyətində deyillər.

Onun kadrı - MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin rəisi Akif Çovdarov azadlığa aparacaq yolun üzərindəki dəmir qapılar bir-birinin ardınca açılır. Bu təsadüfidirmi?

A.Çovdarovun mundirində bir-birinə qarışmış "Monitor" jurnalının baş redaktoru Elmar Hüseynovun, reportyor Aqil Xəlilin qan ləkələri qartmaq bağlayıb, poqonları üzərindən arxaya baxanda neçə-neçə müxalifətçinin döyülməsi, qorxudulması, sahibkarların, qanunsuzluqlarla razılaşmayan MTN-çilərin intihar səhnələri görünür.

Akif Çovdarov qanı özbaşına tökməyib, heç sahibkarların cibini və ömürlərini də "yuxarı"dan xəbərsiz kəsməyib. Ona qarşı yumşalma, onun birbaşa şefinə qarşı yumşalmadır. A.Çovdarovu xəstəliyinə görə azadlığa buraxmaq təşəbbüsləri və ya cəhdləri ortadadırsa, deməli, Eldar Mahmudovun vəziyyəti də düşünüldüyü kimi pis deyil.

Bu arada Eldar Mahmudova ölkədən getmək üçün "yaşıl işıq" yandırılması xəbərləri də gəlməkdədir. Onu qarşı tərəfə "güllə" - informasiya "bomba"ları atmamaq öhdəliyi ilə ölkədən buraxmaq istəyirlər; "getsin və səsini kəssin!", "Üçqat agent" iddialarını ortaya atıb siyasi səhnədə zəlzələ, məmurların canında vəlvələ salmasın".

İddia edilir ki, buna ilkin razılıq var və yaxınlarda səssizcə sabiq MTN şefini ölkədən yola salacaqlar. "MTN işi"nin öləzimiş şəkildə, ictimaiyyətdən gizlin aparılmasının səbəblərindən biri də budur.

Gələn məlumatlara görə, E.Mahmudov bu gün faktiki olaraq təcrid olunmuş vəziyyətdədir. Eldar Mahmudovdan tələb edilən xaricədə susması və şərtlərə əməl etməsidir. Əgər o, əvvəllər qohumları ilə əlaqə saxlayıb, onların xeyir-şər məclislərində iştirak edə bilirdisə, indi bu mümkün deyil. Hətta telefondan istifadə etmək belə qadağan olunub. Razılıq əldə olunacaqsa, şərtlər qəbul ediləcəksə, onunla bağlı səhifə bağlanacaq. Amma belə görünür ki, Eldar Mahmudov ölkədə şərt qəbul edib, ağzını bağlayıb xaricə getmək istəmir.

Əsas ehtiyatlanılan məsələ isə onun hansısa məlumatları xaricə ötürə bilməsidir. MTN şefinin xaricə ötürə biləcəyi faktlar və informasiyaların kifayət qədər ciddi olmasını söyləməyə, bir daha xatırlatmağa ehtiyac varmı?

Təkcə Eldar Mahmudovun 11 il Azərbaycanın xüsusi xidmət orqanına rəhbərlik etməsi onun əlinin altında bir qalaq kompromatların toplanmasını söyləmək imkanı yaradır. Mahmudov illərlə əlinin altına yığılan, toplanan materialları qaranlıqdan çıxarıb üstündəki tozu üfürmək iqtidarındadır. Onu azadlıqda saxlayan, yaxasından tutacaq dəmir əlləri uşaq oyuncağıtək vurub kənara atan da bu fakt - "kompromat anbarı"nın üzərində oturmasıdır.

❑ E.HÜSEYNOV

# Eldar Mahmudovla "Altes Qrup"un əlaqələri haqda yeni məlumat

## Şirkət külli miqdarda vergidən yayınır

**"Altes qrup"a daxil olan şirkətlərin rəhbərlərinin bəzilərinə qarşı cinayət işi açılıb. Bu haqda "Yeni Müsavat"a daxil olan məlumatda deyilir ki, bəzi cinayət işləri artıq məhkəməyə göndərilib. Qaynağımız bildirib ki, bunlar arasında "Altes qrup"a daxil olan "Ferid inşaat" şirkəti Bakıda "Altes Plaza" adlı proyekti inşa edib. 38 min kvadrat metr sahəsi olan obyektdə mənzillər 2000-2500 manata, ticarət sahələri isə 5000 manata satılır.**

Mənbə iddia edir ki, ortalama satış gəliri 80 milyon manat olan proyektdən vergi ödənilməyib. Amma şirkətə qarşı cinayət işi də başlanmayıb.

Verilən məlumata görə, "Nur" inşaat, "Lider EN" və Xəzər sənaye texnika" şirkətlərinin vergi borcu 29 milyon manatdan 3 milyon 800 minə endirildiyini iddia edib. Bildirilir ki, vergi orqanları 10-20 min manat vergi borcu olan şəxsləri həbs etdiyi bir vaxtda "Altes qrup"un rəhbəri Rüstəm Abdullayev azadlıqda gəzir.

R.Abdullayevə sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovun himayəçilik etdiyi qeyd olunur: "Eldar Mahmudovun oğlu Anarın şirkətinin baş ofisi də "Altes Plaza"da yerləşir.

Bir məqamı da diqqətə çatdıraq ki, Eldar Mahmudova bağlı şəbəkə VN-də "krışa"sız olmayıb. Belə ki, məlum olaylardan sonra Vergilər Nazirliyi vergi cinayətlərinin ibtidai araşdırılması idarəsinin keçmiş rəisi Vidadi Məmmədov Eldar Mahmudovun adamı kimi işdən azad edilib.

❑ E.HÜSEYNOV

YENİ MÜSAVAT
N 165 (6486) 30 iyul 2016

# Neft şirkətlərinin mənfəətləri azalır - hasilat isə artırılır...

## Ekspertlər bildirirlər ki, şirkətləri çətin bir proses gözləyir, qiymət artımı isə gözlənilən deyil...

**Dünyanın yeddi böyük neft şirkəti arasında yer alan Hollandiyanın "Shell", İngiltərənin BP və Fransanın "Total" şirkətinin ikinci rübdə (aprel-may-iyun) mənfəətləri, ötən ilin eyni dövrü ilə müqayisədə geriləyib. Qlobal neft qiymətlərində 2014-cü ilin iyun ayından bu yana baş verən azalma neft şirkətlərinin mənfəətlərini də əhəmiyyətli dərəcədə azaldıb. Ötən ilin ikinci rübündə 62 dollar olan brent neftin qiyməti bu ilin eyni dövründə orta hesabla 46 dollara enib.**



Şirkətlər rəsmi saytlarında verdikləri açıqlamalarda bu ilin ikinci üç aylıq dövründə gəlirlərinin və mənfəətlərinin ötən ilin eyni dövrünə nisbətən azaldığını açıqlayıblar. "Royal Dutch Shell" ikinci rüb xalis mənfəətinin ötən ilin eyni dövrü ilə müqayisədə 72 faiz azalaraq 1 milyard 45 milyon dollara düşdüyünü açıqlayıb. Şirkətin rəhbəri Ben van Beurden düşən neft qiymətlərinin xüsusilə axtarış və istehsal fəaliyyətində mühüm çətinlik yaratdığını bildirib. BP də ilin ikinci rübündə mənfəətinin düşdüyü bildirilib. Şirkətdən bildiriblər ki, düşən neft qiymətləri və geriləyən marjanın təsiri ilə şirkətin ikinci rübdə xalis mənfəəti 45 faiz azalaraq 720 milyon dollara enib. BP-nin rəhbəri Bob Dadli özlərini gələcəkdə çətin bir prosesin gözlədiyini, amma yeni layihələr üzərində işlərinin davam etdiyini ifadə edib.

Bu ilin ikinci rübündə gözlənildiyindən daha az gəlir əldə edən digər bir neft şirkəti "Total" olub. Şirkətin ikinci rüb xalis mənfəəti ötən ilin eyni dövrü ilə müqayisədə 30 faiz azalaraq 2,2 milyard dollar geriləyib. "Total"ın rəhbəri Patrik Pouyanne şirkətin əməliyyat xərclərini aşağı salmaq üçün işlərinin davam etdiyini və builki 2,4 milyard dollarlıq xərc azaltma hədəflərini keçəcəklərini bildirib.

Dünya Bankı (DB) isə 2016-cı il üçün xam neftin qiyməti ilə bağlı proqnozunu 2 dollar artırıb. Dünya Bankı neftin qiyməti ilə bağlı proqnozunu 41 dollar/bareldən 43 dollar/barelə qədər yüksəldib. Bankın hesabatına görə, bu ilin ikinci rübündə neft qiymətlərində 37 faizlik sıçrayış qeydə alınıb. **"Biz 2016-cı ilin ikinci yarısında neft qiymətlərinin bir qədər yüksək olacağını gözləyirik"**, - deyə bankın iqtisadçısı Con Baffes (John Baffes) deyib. DB həmçinin gələn il metalların qiymətinin 10 faiz düşəcəyini proqnozlaşdırır: **"Apreldə isə bu azalma kəskin şəkildə (8,2 faiz) müşahidə ediləcək. Bu il enerjidaşıyıcılarının qiyməti 16,4 faiz ucuzlaşıb, apreldə isə azalma 19,3 faiz olub".**

"Fitch" neftin qiyməti üzrə proqnozu 20 faiz artırıb. Beynəlxalq Reytinq Agentliyi 2016-cı il üçün neftin qiymətinin proqnozunu 20 faiz- bir barel üçün 35 dollardan 42 dolları̇dək artırıb. Agentliyin yeni proqnozuna əsasən, ilin ikinci yarısında neft qiymətləri sabitləşəcək. Uzunmüddətli perspektivdə "Fitch" neftin qiymətinin 65 dollar səviyyəsinə çatacağını gözləyir.

Qeyd edək ki, Səudiyyə Ərəbistanı neft hasilatını 2020-ci ilə qədər dəyişməyəcək. Hökumət tərəfindən təsdiq olunan yeni iqtisadi islahat paketi çərçivəsində ölkənin neftə asılılığını azaltmaq üçün neft hasilatında 2020-ci ilə qədər mövcud səviyyəsini qoruyacaq. "Marja" xəbər verir ki, Səudiyyə Ərəbistanı iqtisadi islahat planı çərçivəsində gündəlik neft hasilat həcmini 2020-ci ilə qədər gündəlik 12,5 milyon bareldə sabit saxlamağı planlaşdırır.

Amerikanın "JP Morgan" bankının proqnozuna görə isə İran 2016-cı ilin ortalarına gündəlik neft hasilatını 3,5 milyon barelə qədər artıracaq. İkinci rübdə analitiklər ölkədə neft hasilatını birinci rübdəki 3,1 milyon barelə qarşı gündə 3,3 milyon barel səviyyəsində gözləyir. Cari ilin nəticələrinə görə, İranda orta günlük neft hasilatı 3,3 milyon barel təşkil edəcək. "JP Morgan" bankının analitikləri hesab edirlər ki, 2017-ci ildə İranda gündəlik neft hasilatı 3,5 milyon barel səviyyəsində olacaq. "JP Morgan" analitikləri hesab edirlər ki, gündə əlavə 0,5 milyon barel İran nefti 2016-cı ilin ikinci yarısında bazarda həddindən artıq bolluğa səbəb olacaq.

OPEC- neft ixrac edən ölkələr təşkilatının üzvləri 2016-ci il iyun ayında orta hesabla neft hasilatını 2008-ci ildən etibarən maksimum hədd olan 32,73 milyon barel/günə çatdırıblar. Bildirilir ki, iyun ayında hasilat may ayı ilə müqayisədə 0,3 milyon barel və ya 0,92 faiz artaraq 32,77 milyon barelə yüksəlib. Hasilatı ən çox artıran ölkələr sırasında Nigeriya yer alıb. Bu ölkə gündəlik hasilatı 0,15 milyon barel və ya 10,6 faiz artıraraq 1,57 milyon barelə çatdırıb. İran isə öz növbəsində hasilatı 0,08 milyon barel və ya 2,25 faiz artıraraq 3,63 milyon barelə yüksəldib. Eyni miqdarda artım Səudiyyə Ərəbistanında da qeydə alınıb və bu ölkədə iyun ayında orta hasilat gündəlik 10,33 milyon barel təşkil edib. Xatırladaq ki, iyunun 18-də Venesuelanın neft naziri Euloxio del Pino bildirib ki, qarşısı alınmayacağı təqdirdə 2017-ci ildə neft qiymətləri 20 dollar/barelə qədər düşəcək.

Qeyd edək ki, yaxın gələcəkdə neftin qiyməti ilə bağlı proqnozlar bir-birindən çox fərqlənir. Ekspertlər bildirirlər ki, neft qiymətlərinin artımı hələ də kövrəkdir və ABŞ Federal Ehtiyatlarının sərt ritorikası dolların qiymətini yüksəltməkdə davam edir. Dolların bahalaşması da neftin ucuzlaşması deməkdir. Əksər ekspertlər bildirirlər ki, neft bazarı bu ilin sonunadək sabitləşməyəcək. Bəzilərinin fikrincə, neftin qiyməti 2016-cı ildə kəskin bahalaşmayacaq, çünki bunun üçün səbəblər yoxdur. Qiymətlər indiki səviyyədə qərarlaşacaq. Bu ətrafda qiymətdə müəyyən dəyişikliyi müşahidə etmək mümkündür, dəyişiklik qiymət azalması istiqamətində ola bilər. Əksər ekspertlər neftin qiymətinin yüz dollar, yaxud iki yüz dollar olacağı ilə bağlı proqnozları bölüşmürlər. Ancaq bildirilir ki, neftin qiymətinin bahalaşması üçün siyasi əsaslar yarana bilər. Bu, bir anda da baş verə bilər. Regiondakı vəziyyətin gərginləşməsi şərtləri dəyişə bilər. Amma istənilən halda digər şərtlər dəyişmir, indiki şərtlər daxilində neft 50-60 dollar ətrafında, o da ən yaxşı halda dəyişə bilər.

❑ RÖYA

# Zibil qutusuna atılan yazıçı



Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**İrəvanda polis binasının silahlı qrup tərəfindən zəbt olunması ilə başlanan dramatik olaylar pik nöqtəsinə hələ çatmayıb. Hələ ki bir az da əsəb müharibəsi gedir tərəflər arasında. Tərəflər isə Sərkisyan rejimi və terroru əsas mübarizə metodu kimi qəbul edən radikal müxaliflərdir.**

Əslində birincilər - hakimiyyətdəkilər də təfəkkürcə və mübarizə üsullarına önəm baxımından ikincilərdən ciddi fərqlənmir. "Qarabağ klanı" təmsil edən iqtidardakı Sərkisyan bandası da, polis binasını ələ keçirib hakim rejimlə ultimatum dilində danışan silahlılar da *(onlar özlərini həm də kamikadze hesab edirlər)* bir bezin qırağıdır.

Məlumatınız olsun ki, onların hamısı əli günahsız azərbaycanlıların, körpələrin, qadınların, qocaların qanına bulaşanlar, Azərbaycan xalqına qarşı ağır cinayətlərə və vəhşiliklərə imza atanlar, ərazilərimizin işğalında, Xocalı soyqırımında aparıcı rol oynayanlardır. Konkret olaraq Sərkisyanın özü - Xocalı hərbi canisi 2008-cil martın 1-də, saxta prezident seçkisindən az sonra İrəvanda etirazçıları gülləboran edib, bu dəfə öz xalqına qarşı qətliam həyata keçirərək, 8 nəfərin meyiti üzərindən hakimiyyəti ələ keçirmiş kriminal birisidir.

Necə deyərlər, indi daş qayaya rast gəlib. İndi onun özü hakimiyyətə gəldiyi üsulla da getmək aqibəti ilə üzləşib. Belə perspektiv isə istisna olunmur. Ən azı ona görə ki, ortada təcrübə var. Ona görə ki, Ermənistan adlı marionet dövlətdə siyasi mübarizədə zor, siyasi və fiziki terror çoxdan adiləşib.

1999-cu il oktyabrın 27-si olayını yada salmaq kifayətdir. O zaman Unanyan adlı birisi *(türmədə müəmmalı şəkildə ölüb)* avtomatla Ermənistan parlamentinin iclas zalına daxil olaraq parlamentin spikerini, baş naziri və neçə-neçə digər tanınmış siyasi xadimi, deputatı güllələmişdi. Terror olayının üstü indiyədək açılmayıb. Deməli, təkrarlanma ehtimalı qalır. Bunu da qeyd edək ki, o zaman prezident kürsüsündə Sərkisyanın Xocalıdakı cinayət ortağı Robert Köçəryan idi.

Yəni "İlanın ağına da lənət, qarasına da". Ən idealı o olardı ki, düşmən məmləkətdə qarşı duran iki terror dəstəsi bir-birinə qırmağa qalxardı. O zaman onların qurbanları olmuş soydaşlarımızın ruhu bəlkə bir az rahatlıq tapardı...

Düzdür, son günlər belə fikir də səslənir ki, guya İrəvandakı qarşıdurma Sərkisyanın Qarabağa görə, hakimiyyəti əldə saxlanmağa hesablanmış bir oyunudur. Ancaq bu versiyaya inanmaq çətindir. Hər necə olmasa, qarşıdurmada artıq bir polis zabiti - alay komandirinin müavini öldürülüb, onlarla yaralı var, kifayət qədər qan tökülüb. Üstəlik, qiyamçıların iki əsas şərtindən biri silahdaşları Səfilyanın azadlığıdırsa, ikincisi - Serj Sərkisyanın istefasıdır. Bu oyundursa, gərək ki, istefa tələbi qoyulmayaydı.

Sərkisyan isə hakimiyyət naminə nəyə qadir olduğunu ən azı bir dəfə - 2008-ci ilin martında sübut edib. O yeri gələndə kreslo naminə müxalifyönlü tanınmış erməni ziyalılarını zibil qutusuna da atdıra bilər. Necə ki, yazıçı-publisist və ictimai xadim Vardges Qasparinin başına srağagün məhz belə bir olay gəlib.

"Məni tutdular, zorla polis səddinin arxasında dayanmış maşına soxdular. Polis idarəsinə gətirdilər. Orada məni məcbur etmək istədilər ki, nümayişçilərə qarşı böhtanlar, yalanlar yazım. Bundan başqa, polislər məni sözün həqiqi mənasında alçaldır, təhqir edirdilər. Belə ki, əllərini yumağa çıxır, qayıdarkən yaş əllərini mənim paltarıma silərək qurulayırdılar... Onlar məni idarənin yaxınlığındakı zibil qablarının içərisinə atdılar. Bəli, məhz içərisinə... Onu da xatırlayıram ki, polislər idarəyə gətirdikləri digər fəalları da incidir və ələ salırdılar, xüsusən də yaşlı insanları" - Qasparini deyib.

Öz xalqının tanınmış nümayəndəsinə qarşı belə alçaldıcı davranışa yol verib də xalqın qəzəbini artıran Sərkisyanın indi guya oyun oynaması ağlabatan görünmür. Bu, oyundursa da, çox təhlükəli oyundur - əlbəttə ki, erməni xalqından ötrü, hakim qüvvənin özündən ötrü.

Azərbaycan üçünsə öz torpaqlarını qaytarmaq üçün əlavə fürsətdir təbii ki. Çünki Ermənistanda istənilən miqyaslı daxili didişmə, vətəndaş savaşı, düşmən ölkənin daha da zəifləməsi sözsüz ki, milli maraqlarımıza tam uyğundur. Bizim xeyrimizə işləyir.



# Bir az da sizə Tramp olsun

**Zamin HACI**
zaminhaci@gmail.com

**Mən taleyə, mistikaya, alın yazısına, Allahın cəzasına-filana inanan adamlardan deyiləm. Düşünürəm bütün bu əfsanələri totalitar rejimlər, zalım padşahlar uydurublar ki, hakimiyyətləri uzun çəksin, insanlar zülmə etiraza qalxmasınlar, həmişə hansısa gözəgörünməz qüvvənin prosesə qoşulacağına, yaramazları cəzalandıracağına ümid etsinlər. "Allahdan buyruq, ağzıma quyruq", "Allah istəyən danaya qurd dəyməz", "Nahaq qan batmaz", "Qismətdən artıq yemək olmaz", "Dünya beş gündür, beşi də qara", "Yemə yetimin payını, çıxar ahəstə-ahəstə" və sairə söhbətlər, müdrik fikir adıyla xalqa sırınan "afyorizmlər" bu yanaşma tərzinin nəticələridir.**

Ancaq xalqın başqa, gerçək müdrik fikirləri də var, misal üçün, deyərlər quyunu dərin qaz, özün düşərsən. Nə tökərsən aşına, o çıxar qaşığına. Bax, mənim fikrimcə, hazırda Amerika Birləşmiş Ştatları bu ikinci hissəyə uyğun günlər yaşamaqdadır. İzah edim.

Hazırda onlarda növbəti prezident seçkisi ərəfəsidir. Üstəlik, Məzahir müəllimləri və Qafqazın lider dövləti olmadıqları üçün amerikalılar hər dəfə seçkidən qabaq seçki keçirirlər. Orda namizədin işi əsl zülümdür. Gərək partiyanın prezidentliyə namizədliyini udmaq üçün neçə ay bütün Amerikanı sülənəsən, Texasda məktəb remontuna, Floridada pensiyaçılara "Bakkuş", Arizonada kovboylara "Çikkuş" (bala viski) söz verəsən. Onunla ağızlaş, bununla burunlaş, milyonlar xərclə... Uzun sözün qısası, partiyanın namizədi olmaq de-fakto prezident seçkisinin birinci turu fason bir zaddır. Bax, indi orda Respublikaçılar Partiyasından Donald Tramp adlı bir "mırtmilyarder" (bizim camaat belə deyir) namizəddir, bütün ölkəni dəli edibdir. Gah başda Google olmaqla, bir sürü nəhəng şirkətin rəhbəri yığışıb bunu necə dayandırmağı düşünürlər. Gah yüzlərlə ziyalı Amerika camaatına müraciət edib deyir yalvarırıq, bu Trampa səs verməyin, bizi çevirin balalarınızın başına.

Srağagün isə hətta hazırkı prezident Obama müəllim dilə gəlib, Demokrat Partiyasının namizədi Hillari Klinton xanımın prezidentliyə "imenovat" olunduğu iclasda Trumpun dalıyca xeylax qeybət etmişdir. Bəs hanı, hakimiyyətdən sui-istifadə eləmirdiniz? Bəlkə müəllimlərin döşünə-başına bülleten yığıb seçkini saxtalaşdırasınız? Lazımdırsa, bir neçə JEK desantçısı ata bilərik. Onsuz burda zibil pulu yığmaqdan başqa heç bir işə yaramırlar.

Bəs bütün bu milləti Tramp əleyhinə qaldıran nədir? Kimdir bu adam? Təxminən Balıq Hafizin sarışın variantı kimi bir şəxsiyyətdir. Bütün günü onu-bunu söymək, təhqir eləməkdən başqa iş bilmir. Gah deyir müsəlmanları qovacam, gah deyir Putin dostum-qardaşımdır, gah da deyir Rusiyanı əzişdirmək lazımdır. Ağzına gələni danışır, millətin damarının nazik yerini yaman tapıbdır. O üzdən amerikalılar qorxuya-hürküyə düşüblər, deyirlər birdən bu dəli oğlan prezident seçilsə, Amerika məhv olacaqdır.

Əcəb olur. Bəs bilmirdiniz atdığınız daşlar bumeranq effekti ilə bir gün özünüzə qayıdacaq?

... İllərdir bütün dünyada əcaib-əcaib, trampvari rejimlərə, diktatorlara ABŞ dəstək verməkdədir. Donald Tramp mənəvi olaraq həmin diktatorların varislərindən biri kimi qabağınıza, yuxarıda yazdığım kimi, qaşığınıza çıxıb. Niyə yemək istəmirsiniz? Dünya yeyəndə yaxşı olurdu? Yeyin, nuş olsun. Bəlkə Corc Buş-bala-dan yaxşı prezident çıxdı, qəm yeməyin.

Bu həftə ümumiyyətlə mistika həftəsi idi, Formula-1 yarışının şefi, kasıb vaxtımızda neçə milyonu qapazlayıb aparan Barni Ekklstoun adlı tipin qayınanasını Braziliyada oğurlamışdılar. Oğrular yoldaş Eklstoundan 36 milyon dollar tələb edirdilər. Bizim milyonlardır onlar. Düzdür, Eksltoun müəllim özü milyarderdir, ancaq hər halda, 36 milyon da az deyil. Üstəlik, bunu qayınananı girovdan buraxmaq üçün verəsən... Ağır dərddir. Bu da yemədi getdi.

# Türkiyədəki çevriliş cəhdində amerikansayağı məxfi kodlaşma




# Generalların cibindən çıxan 1 dollarlıq əsginazların qorxunc sirri...

## "Ukraynadan sonra növbəti hədəf Türkiyə və Cənubi Qafqazdır", iddiaları doğrulmağa başlayıb; 1 dollar ABŞ-a sədaqətin və xidmətin rəmzi sayılır

**Türkiyədə hərbi çevrilişə cəhdlə bağlı yeni maraqlı və önəmli məqamlar açıqlanmağa başlayıb. Məlum olub ki, bu dövləti cinayətdə suçlanaraq, həbs olunan generalların və digər yüksək rütbəli komandirlərin üzərindən 1 dollarlıq əsginazlar tapılıb.**

Əlbəttə, bəzi insanlar deyə bilər: "Burada nə var ki, hər kəsin cibində 1 dollarlıq əsginaz çıxa bilər". Ancaq məsələ o qədər də sadə deyil. Bu, xüsusi simvolik parol xarakteri daşıyır. Və belə simvolik parolların başqa örnəkləri də mövcuddur.

Həbs edilən generalların demək olar ki, hamısının üzərlərindən tapılan həmin 1 dollarlıq əsginazların sirri barədə danışmaqdan öncə bunun analoji örnəklərindən birinə diqqət yetirək. Çünki 1 dollarlıq əsginazlarla məxfi şəbəkənin qurulması ABŞ-ın dəniz piyadaları arasında mövcud olan oxşar ənənədən qaynaqlanır.

ABŞ Silahlı Qüvvələrinin dünyanın ən qüdrətli ordularından olduğuna yəqin ki, heç kəs şübhə etmir. Ancaq dəniz piyadaları bu ordunun ən elitar tərkib hissəsidir. Belə ki, dəniz piyadalarının sırasına ABŞ-ın istənilən vətəndaşı düşə bilməz. Hər bir dəniz piyadası xüsusi ideoloji-psixoloji hazırlıq prosesindən keçir. Hərbi hazırlıq səviyyəsi ilə yanaşı, ideoloji-psixoloji testlərdən keçdikdən sonra o, dəniz piyadası statusu qazanır.

Digər qoşun növlərinə aid ABŞ əsgəri ilə dəniz piyadası arasında kifayət qədər ciddi fərqlər var. Məsələn, ABŞ əsgəri öz müqaviləsi üzrə hərbi xidmət keçir. Ancaq dəniz piyadası ABŞ dövlətinə xidmət edir. Düşmənlə savaşa girmiş dəniz piyadası üçün məğlubiyyət varianti, ümumiyyətlə, mövcud deyil: O, ya qalib gələcək, ya da ölümü seçəcək.

Ən önəmli məqam isə dəniz piyadaları arasındakı simvolik parolla bağlıdır. Onlar bir-biriləri ilə ünsiyyətdə, ya da hər hansı gizli əməliyyat zamanı tanınma nişanı olaraq, 1 dollarlıq monetlərdən istifadə edirlər. Hər bir dəniz piyadasının üzərində mütləq 1 dollarlıq dəmir monet vardır. Bu, ABŞ dövlətinə xidmətin və ona sədaqətin simvoludur. Hətta döyüşdə şücaət göstərmiş dəniz piyadası dövlət mükafatına təqdim edilməzdən əvvəl, öz komandiri tərəfindən 1 dollarlıq monetlə şərəfləndirilir.

Ordudan təqaüdə çıxdıqdan sonra da dəniz piyadası həmin monetləri öz üzərində daşıyır. Çətinə düşdükdə onu tanımayan və cəmiyyətdə nüfuzu olan imkanlı dəniz piyadasına moneti göstərməklə, hər cür yardımı ala bilər. Eyni zamanda təqaüdçü dəniz piyadasına moneti göstərməklə hər hansı dövləti tapşırığı yerinə yetirməyə razı salmaq olar. Yəni bir dəniz piyadası yaşından və cəmiyyətdəki statusundan asılı olmayaraq, ölənə qədər dəniz piyadasıdır.

Türkiyədəki çevriliş cəhdindən sonra həbs edilən generalların və yüksək rütbəli zabitlərin üzərindən tapılan 1 dollarlıq əsginazların da qorxunc sirri var. Məlum olub ki, onlar çevriliş cəhdindən öncə eyni şəbəkəyə aid bağlılıqları barədə məlumatsız olublar. Çünki məxfiliyi təmin etmək üçün şəbəkələşmə masonçuluq prinsipinə uyğunlaşdırılıb. Yəni bu şəbəkələşmədə hər hansı bir divardakı daşların düzülüşü tətbiq edilib. Belə ki, üçüncü daş ikincini, ikinci daş isə yalnız birinci daşı görə bilər. Ancaq üçüncü daşla birinci daş arasında təmas mümkün deyil.

Çevriliş cəhdindən bir neçə saat öncə şəbəkədəki ən yüksək vəzifəli generala onun əmrində olacaq hərbçilərin siyahısı verilib. Və həmin general *(hələlik kimliyi açıqlanmayıb)* çevrilişə başlamaq əmrini vermək üçün yanına çağırdığı hərbçilərə 1 dollarlıq əsginazı göstərib və onlardan da eynisini tələb edib. Bu tanınma prosedurundan sonra bütün əmrlər sorğu-sualsız yerinə yetirilib.

Ancaq əsginazın sirri bununla bitmir. Dollar ABŞ-ın ən önəmli simvollarından olduğu üçün bu, həm də həmin superdövlətə sədaqətin rəmzi sayılır. Üstəlik, Türkiyə rəsmilərinin son açıqlamalarına görə, "FETÖ" adı qoyduqları şəbəkələşməsini əhatə edən bu sistemi elə vaxtilə ABŞ-ın Balkanlar və Türkiyə üzrə kəşfiyyat rezidenti qurub. Həmin sistemə görə, şəbəkənin hər bir üzvünə 1 dollarlıq əsginaz verilir. Və bu əsginaza sahib olan şəbəkə üzvünün rəsmi sənədləri öz əhəmiyyətini itirmiş olur. Çünki əsginazın üzərindəki seriya nömrəsi həmin şəxsin kimliyini müəyyənləşdirir.

Belə ki, seriya nömrəsi şəbəkənin məxfi ümumi bazasına yerləşdirilibmiş və orada 1 dollarlıq əsginazın sahibi haqqında bütün məlumatlar qeyd edilibmiş... İstənilən vaxt məxfi məlumat bazasına əsginazın seriya nömrəsini daxil etməklə, onun sahibinin kimliyini təyin etmək mümkündür.

Göründüyü kimi, Türkiyə dövlətinə və cəmiyyətinə paralel olan alternativ mərkəzdən idarə edilən sistem qurulubmuş. Belə anlaşılır ki, onilliklər boyu davam edən bu proses Türkiyəni daxildən işğal etmək ssenarisi üzərindən yürüdülüb. Və xarici xüsusi xidmət servislərinin nəzarətində olub. Məsələnin ən qorxunc tərəfi də elə budur.

Bütün bunları təsdiqləyən daha bir önəmli məqam ABŞ-ın xüsusi xidmət servislərinə yaxınlığı ilə tanınan "Stratfor" Analitik Mərkəzinin hərbi çevriliş cəhdinə qeyri-adi informasiya dəstəyidir. Belə ki, sən demə, bu mərkəz bütün baş verənlərdən əvvəlcədən xəbərdarmış...

Hər halda, Türkiyə vaxtı ilə saat 21.00-da başlayan hərbi çevriliş cəhdi ilə bağlı "Stratfor"un saat 21.02-də "Türkiyədə hərbçilər hakimiyyətə sahibləndilər", məzmunlu məlumat yaymasını başqa cür izah etmək mümkün deyil.

Eyni zamanda prezident R.T.Ərdoğanın İstanbula uçan təyyarəsinin olduğu yerin 4-5 dəfə tam dəqiqliyi ilə xəritə üzərindən göstərilməsi də önəmli məqamdır. Bunu Türkiyə prezidentinin hədəfə çıxarılması kimi də dəyərləndirmək olar.

Göründüyü kimi, Türkiyə faktiki olaraq, təhlükəli xarici təcavüzdən xilas ola bilib. Ancaq bu baş verənlərə daha diqqətlə yanaşdıqda, bütün bunların müvəqqəti olduğu da nəzərdən yayınmır. Çünki bu baş verənlər supergüclərin dünya hegemonluğu uğrunda mübarizəsinin Türkiyə mərhələsidir.

Vaxtilə dünya hegemonluğu uğrunda savaşın Ukrayna, Türkiyə və Cənubi Qafqaz üzərindən aparıldığını yazmışdıq. Və Ukraynadan sonra növbəti hədəfin Türkiyə ola biləcəyini proqnozlaşdırmışdıq.

Çox təəssüf ki, bu proqnozumuz reallığa çevrilməyə başlayıb. Əgər Türkiyə ələ keçirilmiş olsaydı, bu dəfə növbəti hədəf Cənubi Qafqaz olacaqdı və savaşın əhatə dairəsi qapanacaqdı. Ancaq Ərdoğan hakimiyyətinin bu fəlakəti müvəqqəti də olsa, önləyə bilməsi Cənubi Qafqazı da müvəqqəti olaraq, hədəfə çevrilməkdən yayındırıb.

Bir daha təkrar edirik ki, bizim iddiamıza görə, bu yayınmalar müvəqqətidir. Və böyük ehtimalla tezliklə ssenarinin ehtiyat variantı işə salına bilər. Bu barədə isə növbəti yazılarımızda bəhs etməyə çalışacağıq.

❑ **Elçin XALİDBƏYLİ**

YENİ MÜSAVAT
N 165 (6486) 30 iyul 2016

**İyulun 17-də Ermənistan polisinin post-patrul alayının binasını ələ keçirməklə ölkədə çox ciddi bir prosesin əsasını qoymuş silahlı dəstəni tamamilə ram etmək hələ ki mümkün olmayıb. İlk günlər "Şuşa" batalyonunun sabiq komandiri Jirayr Sefilyanın həbsdən azad edilməsini istəyən silahlılar artıq siyasi tələblər səsləndirir və prezident Serj Sərkisyanın istefasını tələb edirlər.**




# İrəvandakı "silahlı üsyan", yoxsa "dərin dövlət"in oyunu?

## Serj Sərkisyan istefaya yola salınsa, Qarabağ danışıqları "0"dan başlanacaq, Azərbaycanın aprel döyüşlərindəki uğurları arxa plana keçəcək, düşmən öz mövqelərini möhkəmlətmək üçün vaxt qazanacaq

Fasilələrlə Ermənistan paytaxtında silahlılara dəstək mitinqləri də davam edir və həmin aksiyaların iştirakçıları da Sərkisyandan hakimiyyəti təhvil verməyi istəyirlər. Ancaq hakimiyyətin bəzi istisnaları çıxsaq, silahlı birləşməyə qarşı səbirli davranışı ortada kifayət qədər müəmmaların olduğunu deməyə imkan verir. Düzdür, bir neçə dəfə silahlıların zərərsizləşdirilməsi üçün əməliyyatlar keçirilib, lakin müəyyən həbslər və itkilər olsa da, zəbt olunan post-patrul bölməsinin binasını azad etmək "mümkün olmayıb".

Bu mənada proseslərin arxasında S.Sərkisyanın özünün dayandığı barədə iddialar var. Lakin bəzi müşahidəçilər hesab edir ki, İrəvanda baş verənlər "Ermənistan dərin dövləti"nin, üstəgəl, erməni lobbisinin ssenarisi üzrə davam edir. Lakin bu ssenaridən S.Sərkisyanın özünün də məlumatlı olduğu istisna deyil. Belə ki, aprel döyüşlərindəki uğursuzluqlardan sonra danışıqlarda mövqeləri kifayət qədər zəifləmiş Sərkisyanın artıq qarşı tərəfə diktə etmək imkanlarının olmadığını anlayan erməni lobbisi onun mövqelərini az da olsa, gücləndirmək üçün belə bir oyuna start verib.

Qeyd edək ki, Ermənistan və Azərbaycan prezidentlərinin sonuncu görüşü iyunun 20-də Rusiyanın Sankt-Peterburq şəhərində keçirilib. Növbəti görüşün isə avqustda Parisdə, daha sonra isə ABŞ-da baş tutacağı gözlənilir.

Şübhəsiz ki, erməni lobbisi bu mərhələdə Qarabağ naminə hətta S.Sərkisyanı da vaxtından tez yola sala, istefaya göndərə bilər. Ötən illərin təcrübəsində Ermənistanda belə hallar az olmayıb. Belə ki, ermənilər "Ya hakimiyyət, ya Qarabağ" seçimi qarşısında qalanda birincini qurban veriblər. Ancaq əksəriyyət bu fikirdədir ki, S.Sərkisyanın istefaya göndərilməsi Azərbaycana sərf etmir. Əgər bu ölkədə növbədənkənar prezident seçkiləri olsa, a) ermənilər status-kvonu uzatmaq üçün əlavə vaxt qazanacaqlar, təmas xəttində mövqelərini möhkəmləndirəcəklər; b) yeni seçiləcək prezidentə vəziyyətlə "tanış olmaq" üçün xeyli vaxt lazım gələcək; v) Azərbaycanın aprel döyüşlərindəki uğurları və indiyədək aparılan Qarabağ danışıqlarının mənası qalmayacaq, yeni hakimiyyət hər şeyin "0"-dan başlamasını istəyəcək.

"Ermənistanda süni surətdə qızışdırılan qarşıdurmalar uydurulmuş məsələlərdir. Sərkisyan ölkəni məhz Qarabağa görə bir-birinə qatır. Ermənistanda belə bir fikir formalaşıb ki, guya danışıqlar prosesində Rusiyanın təklif etdiyi yol xəritəsi Azərbaycan üçün xeyli güzəştlər vəd edir. Ancaq sözügedən güzəştlərin nədən ibarət olduğunu açıqlaya bilmirlər". Bunu axar.az-a açıqlamasında **politoloq Qabil Hüseynli** deyib. Sabiq dövlət müşaviri bildirib ki, Dağlıq Qarabağın həlli çoxdan tapılıb: "NATO-nun son sammitində qeyd edildi ki, postsovet dövlətlərinin ərazi bütövlüyü Helsinki yekun aktının müddəalarına uyğun surətdə həyata keçirilməlidir. Yəni hər hansı bir ərazi, sərhəd dəyişikliyinə gedilə bilməz. Beləliklə, Dağlıq Qarabağın taleyi də öz həllini tapmış olur. Güman edirəm ki, prezidentlərin Paris görüşündə Qarabağ məsələsi daha ciddi və sərt şəkildə qoyulacaq. Çünki Fransa nə qədər ermənipərəst dövlət olsa da, NATO-nun üzvüdür və sammitdə qəbul edilmiş qərarlara tabe olmaq məcburiyyətindədir. Helsinki yekun aktının müddəalarının nizamlanma prosesinə tətbiq edilməsi üçün həmsədr ölkə kimi Fransa da səy göstərməlidir".



**Qafar Çaxmaqlı:** "Qarabağ danışıqları ərəfəsində, kritik qərarlar qəbul ediləcəyi gözləniləndə Ermənistanda belə olaylar baş verir"



**Elxan Şahinoğlu:** "Sərkisyan hakimiyyətdə ya sona qədər dirənməyə çalışacaq, ya da vəziyyətin çıxılmaz olduğunu anladıqda üçüncü ölkələrdən birinə qaçacaq"

**Azərbaycan-Erməni Araşdırmaları Mərkəzinin rəhbəri, ermənişünas alim, professor Qafar Çaxmaqlı "Yeni Müsavat"a dedi ki, Ermənistandakı prosesləri yaxından izləyir:** "Şübhəsiz ki, gözlənilməz proseslər deyil. Qarabağ danışıqları ərəfəsində, kritik qərarlar qəbul ediləcəyi gözləniləndə Ermənistanda belə olaylar baş verir. Məsələn, Levon Ter-Petrosyanın hakimiyyətdən uzaqlaşdırılmasını xatırlayın. Guya ki, o, Azərbaycan torpaqlarını işğaldan azad edib, Dağlıq Qarabağı da Azərbaycanın tərkibində görmək istəmişdi. 1999-da İstanbul sammiti ərəfəsində Ermənistanın bəzi sənədlərə imza atması gözlənilərkən 27 oktyabr parlament basqını oldu və bunların hamısını edən də heç də Ermənistandakı qüvvələr deyildi. Bu gün Jirayr Sefilyan da həmin qüvvələrin ortaya atdığı proyektdir. Neçə vaxtdır ki, bunun üzərində işləyirdilər".

**Q.Çaxmaqlı xatırlatdı ki, bir qədər əvvəl Sefilyan maşın karvanı ilə Qarabağa girmək istəmişdi, ancaq buna imkan verilməmişdi:** "Bütün bunlar oyunlardır. İndi də guya onu həbsdən azad etmək üçün polis idarəsini tuturlar və narazı xalq ayaqlanır. Bütün bunlar Kremlin oyunlarıdır. Şəxsən mən Sərkisyanın istefaya gedəcəyinə inanmıram. Çünki Rusiya öz adamından hələ yetərincə istifadə etməyib. Qaldı "dərin dövlət" məsələsinə, Ermənistanda belə yapının olmasına da ehtiyac yoxdur. Erməni diasporu var və bu qüvvələr daha çox Qərbin dediklərinin ifadəçisidir. Həm diaspora erməniliyi, həm də rusofillər eyni məqsədə xidmət edirlər".

**Q.Çaxmaqlı hesab edir ki, ermənilər Qarabağla bağlı heç bir güzəştə getməyəcəklər:** "Əslində hamı bunu bilir, indi belə bir görüntü yaradılmağa çalışılır ki, xalq hətta 7 Azərbaycan rayonunun qaytarılmasını istəmir. Təbii ki, belə olan təqdirdə danışıqlar uzanacaq, sonra seçkilər yaxınlaşacaq və hər iki ölkədə bu məsələləri bəhanə edəcəklər. Fakt budur ki, nə Qərb, nə Rusiya bu məsələnin tezliklə həll edilməsini istəmir. Sadəcə olaraq, burada sabit həyat tərzinin olması onların strateji siyasətinə uyğun gəlmir. Sərkisyanın əlində isə həmişə Sefilyan kimi bəhanələr var".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə bu fikirdədir ki, Serj Sərkisyan keçmiş prezident Levon Ter-Petrosyandan fərqli olaraq hakimiyyətdən asanlıqla ayrılmayacaq:** "Levon Ter-Petrosyan faktiki modern çevrilişə məruz qaldı. Çevrilişi həyata keçirən iki əsas fiqur var idi: biri o zamankı baş nazir Robert Köçəryan, digəri isə indiki prezident, keçmiş daxili işlər və milli təhlükəsizlik naziri Serj Sərkisyan idi. Hər ikisi Levon Ter-Petrosyanın hakimiyyəti tərk etməsi əvəzinə, ona toxunulmazlıq status vəd etdilər. Levon Ter-Petrosyandan fərqli olaraq Serj Sərkisyana heç kim hakimiyyətdən gedəcəyi qarşılığında ona toxunulmazlıq statusu verməyəcək. Onun yeri həbsxanadır. Ona görə də Sərkisyan bunu bildiyindən hakimiyyətdə ya sona qədər dirənməyə çalışacaq, ya da vəziyyətin çıxılmaz olduğunu anladıqda üçüncü ölkələrdən birinə qaçacaq. Sərkisyanın yerinə hakimiyyətə iki qüvvə gələ bilər: birinci qüvvə bu gün polis bölməsini nəzarət altında saxlayan sistemdənkənar silahlı müxalifətdir. Bunlar Sərkisyan qədər qəddardırlar və torpaqlarımızın işğalında və qətliamlarda Sərkisyan qədər günahkardırlar. Ona görə də mən belələrinin hakimiyyətə gəlişi halında onlardan Qarabağ danışıqlarında geri addım atacağını gözləmirəm. İkinci qüvvə Qarabağ klanına aid olmayan Ermənistanın parlament müxalifətindən formalaşanlar ola bilər. Bu qüvvələrlə təmas qurmaq mümkündür. Bilmirəm, onlar Qarabağ danışıqlarında hansı mövqeni tuta bilərlər, ancaq hər halda, münaqişənin davamının Ermənistan üçün necə böyük yük olduğunu anlamamış deyillər".

**Bu ərəfədə Azərbaycan ordusunun Ermənistandakı qarışıqlardan yararlanıb torpaqlarımızı azad etmək üçün hərbi əməliyyatlara başlamasını zəruri sayanlar da var. Ancaq E.Şahinoğlu hesab edir ki, qəfil hücum erməni cəmiyyətini birləşdirə bilər:** "Məncə, buna hələ ehtiyac yoxdur. Ancaq ermənilərin hər atəşkəs pozuntusuna elə cavab verməliyik ki, itkiləri artsın. Snayper müharibəsini gücləndirmək lazımdır". **Ekspert bir az səbirli olmağı tövsiyə edir:** "Bizdən tələb olunan bu prosesin gedişatına mane olmamaqdır. Əksinə, elə etməliyik ki, Ermənistandaxili qüvvələr mümkün qədər bir-birilərini zəiflətsinlər. Doğrudur, Sərkisyan diqqəti yayındırmaq üçün növbəti dəfə cəbhə bölgəsində təxribat yarada bilər. Onun bu təxribatla məqsədi Ermənistandakı bütün siyasi qüvvələrin diqqətini Azərbaycana qarşı yönəltmək olar. Ancaq biz apreldə olduğu kimi işğalçıya cavab atəşi ilə daha böyük zərər verəcəyimizdən Sərkisyanın durumunu daha da ağırlaşdıracağıq. Vaxtilə Azərbaycanda da eyni proseslər baş verib. İndi növbə Ermənistanındır və biz bu prosesdən istifadə etməyi bacarmalıyıq".

**Politoloq şübhə etmir ki, hazırda Rusiya Sərkisyanı müdafiə edir:** "Çünki erməni cəmiyyətində səslər ucalır ki, Rusiya Ermənistanın maraqlarını satıb. Moskvaya elə gəlir ki, Sərkisyanı əvəzləyəcək qüvvə Rusiyadan uzaqlaşacaq, hətta indinin özündə də rusiyalı siyasətçilərin bəziləri İrəvanda polis məntəqəsinin ələ keçirilməsində Amerikanın izini axtarırlar. Qoy axtarsınlar, Ermənistana nəzarət uğrunda baş sındırsınlar. Bu arada elə etməliyik ki, necə ki, işğalçı Ermənistan vaxtilə Surət Hüseynovun qiyamından və dövlətə xəyanətindən öz məqsədləri üçün istifadə edib işğalın miqyasını genişləndirdi, eləcə də biz Ermənistandaxili mümkün qiyamdan öz məqsədlərimiz üçün istifadəyə hazırlaşmalıyıq".

**E.Şahinoğlu bugünlərdə ABŞ-ın Ermənistandakı vəziyyətlə bağlı öz vətəndaşlarına etdiyi müraciəti də şərh etdi.** "Amerika hər yerdə öz vətəndaşlarını maksimum qoruyur. Ermənistan isə hazırda Amerika vətəndaşları üçün təhlükəli yerlərdən biridir. Amerikalı analitiklər yaxşı dərk edirlər ki, bu gedişlə Ermənistanı yaxşı heç nə gözləmir. Bu hesabatlarla Dövlət Departamenti də tanışdır. Ona görə də belə bir açıqlama veriblər", - deyə, ekspert bildirdi.

Qəribəsi odur ki, nə Rusiya, nə də Qərb İrəvandakı təlatümlərə adekvat reaksiya vermir. Sanki silahlı dəstənin hansısa dövlət qurumunu ələ keçirməsi normal hadisədir. Belə görünür onların baş verənlərdən detallı şəkildə məlumatları var.

❑ **Elşad PAŞASOY**

Artıq rəsmi Bakı Minsk Qrupu həmsədrlərinin bu mövqeyini pisləyən bəyanat verib, eyni zamanda fərdi qaydada həmsədr ölkələrə etiraz məktubları göndəriləcək. Azərbaycan prezidenti İlham Əliyev də kəskin mövqeyini ifadə edib. “Minsk Qrupu həmsədrləri münaqişənin həllinə yox, dondurulmasına çalışırlar. Onların bugünkü fəaliyyəti tamamilə mənasızdır”-prezident bildirib. Dövlət başçısı deyib ki, onlar nəinki işğalçı Ermənistana təzyiq etmirlər, hətta Ermənistanı mümkün olan problemlərdən qoruyurlar. Ölkə başçısı bəyan edib ki, Azərbaycan xalqı və dövləti heç vaxt torpaqların işğalda qalması ilə barışmayacaq. Ancaq fakt budur ki, həmsədrlər torpaqlarımızın azad olunması, qaçqın-köçkünlərin yurduna qayıtması üçün addım atan qurumlara dəstək verməkdənsə, onlara maneə yaradırlar. Sadə vətəndaşından prezidentinə qədər ölkəmizin bütün vətəndaşları tərəfindən “arzuolunmaz” sayılan həmsədrlərdən imtina məsələsi də gündəmdədir. Paralel şəkildə ATƏT-in Minsk Qrupunun fövqəladə toplantısının çağırılması, vəziyyətin ciddi şəkildə müzakirə olunması, həmsədrlərin addımlarına qiymət verilməsi, Almaniya, Türkiyənin də həmsədrliyə qəbulu ilə bağlı addımların atılması təşəbbüsləri var.

Xatırladaq ki, 1992-ci ilin martında ATƏT-in Minsk Qrupu prosesi yaradılanda fikir ondan ibarət idi ki, ən tez bir zamanda Minsk konfransı çağırılsın və münaqişənin qarşısının alınması istiqamətində tədbirlər görülsün. Həmin dövrdə Minsk Qrupunun tərkibində 11 dövlət təmsil olunurdu.

XİN-in mətbuat katibi Hikmət Hacıyev “Yeni Müsavat”a bildirdi ki, əgər o zaman güclü siyasi iradə nümayiş etdirilsə və Minsk Qrupu çağırılsaydı, onda mənzərə başqa cür olardı, problem daha erkən formada həll oluna bilərdi: “Təəssüf ki, bu baş vermədi. O vaxt hələ Azərbaycanın əksər torpaqları işğal olunmamışdı və 1 milyon qaçqın-köçkün fəlakəti baş verməmişdi. 11 dövlətin iştirak etdiyi formatda danışıqların aparılmasının bir qədər çətinliyindən çıxış edərək, 1995-ci il martın 23-də həmsədrlik institutu təsis edildi. Həmsədrlərin fəaliyyətini tənzimləyən və onlara mandat verən 23 mart 1995-ci il tarixli ATƏT-in qəbul etdiyi xüsusi bir sənəd də var. Bu sənədə əsasən, BMT Təhlükəsizlik Şurasının qətnamələri, ATƏT-in və beynəlxalq hüququn norma və prinsipləri, ATƏT-in Budapeşt sammitinin qərarları həmsədrlərin fəaliyyətinin əsas istiqamətlərini təşkil edirdi”.

XİN rəsmisi qeyd etdi ki, illərdən sonra ATƏT-in Minsk Qrupu həmsədr institutunun fəaliyyətinin nəticəsizliyi göz qabağındadır: “Beynəlxalq ictimaiyyət tərəfindən onlara verilən mandatı doğrultmayıblar. Ona görə də Azərbaycan dəfələrlə bəyan edib ki, ATƏT-in Minsk Qrupunun həmsədrləri deyil, Minsk Qrupu prosesində olan dövlətlərin hamısı - ABŞ, Rusiya, Fransa, Türkiyə, Almaniya, Belarus, İtaliya, İsveç, Finlandiya, Azərbaycan, Ermənistan - bu prosesdə fəal rol oynamalıdır. Bakı bu xüsusda ilk addımlardan biri kimi təklif etmişdi və təklifində israrlıdır ki, Vyanada, ATƏT-in mənzil qərargahında bütün Minsk Qrupunun iştirakı ilə münaqişə ilə əlaqədar xüsusi bir iclas keçirilsin. Son günlərdə də bu, Daimi Şura səviyyəsində ATƏT rəhbərliyinə bəyan edilib. Eyni zamanda fərdi olaraq da Minsk Qrupu prosesində iştirak edən hər bir dövlətə müraciət olunub ki, biz onların prosesdə aktiv rolunu gözləyirik”. H.Hacıyev qeyd etdi ki, bu toplantının keçirilməsinə ilk növbədə Ermənistan mane olmağa çalışır. Eyni zamanda həmsədr ölkələr Minsk Qrupu formatında görüşün baş tutmasına bir o qədər meylli görünmürlər: “O ki qaldı digər formatlara, Azərbaycan bundan sonra da digər beynəlxalq təşkilatlarda münaqişə ilə bağlı məsələ qaldırmaqda davam edəcək”.

Qeyd edək ki, hazırda ATƏT-in fəaliyyətdə olan sədri Almaniyadır. Üstəlik, Minsk Qrupunun üzvü olan Almaniyanın da üzərinə məsuliyyət və öhdəlik düşür. O halda ortaya haqlı olaraq bir sual çıxır, bəlkə Almaniya da ATƏT-in Minsk Qrupu konfransının keçirilməsi barədə təşəbbüslə çıxış etsin?

Politoloq Arzu Nağıyev “Yeni Müsavat”a dedi ki, doğrudan da ATƏT-in Minsk Qrupunun verdiyi deklorativ bəyanatlar, nəhayət, öz məntiqi sonluqlarına çatmaq üzrədir: “Göründüyü kimi, nüfuz davasından başlamış, öz dövlətlərinin münaqişəyə münasibətinə qədər bariz bir misal nümayiş etdirdilər. Eyni zamanda AŞ PA-nın da qərarlarının dəyişdirilməsinə nail oldular. Təbii ki, digər dövlətlərin də rolu az olmadı, lakin əsas məqam Minsk Qrupunun bəyanatı ilə tamamlandı. Məlumdur ki, Almaniya ATƏT sədri kimi fəaliyyətə başlayıb. Təbii ki, bu dövlət Avropada və dünyada özəl çəkiyə malik bir dövlətdir. Lakin onun da Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində tam şəkildə addımlar atacağı inandırıcı görünmür”. Türkiyənin həmsədrliyinə gəldikdə isə A.Nağıyev bunları vurğuladı: “Düzdür, dost və strateji tərəfdaş dövlət kimi daima dəstək nümayiş etdirən bir dövlətdir, lakin bu məsələnin həllində tək qərar vermək iqtidarında deyil. Zənnimcə, bu gün ATƏT-in geniş tərkibli bir toplantısı keçirilməli və məhz bu suallara aydınlıq gətirilməlidir. Çünki istər Avropa, istərsə də ümumiyyətlə, Qərb münaqişənin bu qədər uzanmasında və status-kvonun saxlanmasında maraqlı olmamalıdırlar. İlk öncə təhlükəsizlik baxımından bu, həll edilməlidir, çünki iqtisadi cəhətdən belə bir çətin vaxtda mühüm layihələrin həyata keçirilməsi üçün ən önəmli məsələdir. Eyni zamanda ATƏT kimi bir qurumun nüfuz məsələsi ortadadır, bu məsələnin həllinə ciddi yanaşmamaq bu nüfuza ağır bir zərbə vurur”.

Konfliktoloq Elxan Mehdiyev isə həmsədr ölkələrin əvvəlki illərdə də anti-Azərbaycan mövqeyi tutduğunu xatırlatdı: “Həmsədr ölkələr 2008 -ci ildə BMT Baş Məclisində açıq-aşkar Azərbaycanın əleyhinə səs verib ermənilərin tərəfini tutdular. Bu dəfə isə birbaşa yox, dolayı yolla öz ölkələrinin gücündən istifadə edib bu işdə ermənilərin tərəfini tutdular. 2008-ci ildən sonra da Azərbaycan rəhbərliyi onlara qarşı sərt etiraz bildirdi və ermənilərin tərəfini tutmaqda, vasitəçi kimi neytral olmamaqda günahlandırdı. Sonralar da bir çox hallarda həmsədrlər günahlandırılıb. Amma biz həm də şahidiyik ki, bütün bunlardan sonra dəfələrlə açıq şəkildə həmsədrlərin səyləri yüksək qiymətləndirilib, təşəkkür edilib. Narahat olmayın, bu kampaniya da başa çatdıqdan sonra yenə də həmsədrlərin işi yüksək qiymətləndiriləcək. Bu, onu göstərir ki, həmsədrlər qınaq üçün lazımdır. Torpaq həmsədrlərin deyil ki...” E.Mehdiyevə görə, biz artıq bildik ki, erməni sülh, torpaqlardan çıxmaq istəmir, danışıqları da uzadır: “Amma 2009-cu ildə bizə hər gün deyilirdi ki, erməni 5 rayondan çıxır və sonra iki rayondan çıxır. İndi isə bir kənddən belə çıxmır. Biz soruşmalıyıq ki, Azərbaycanın qüdrətli dövləti torpaqları azad etmək üçün nə etmək istəyir, hansı planı, strategiyasl var?” Ekspertə görə, Almaniya və Türkiyə məsələsi xəyaldır: “Almaniya həmsədr olmaq istəmir, Türkiyəni isə yaxına qoyan yoxdur. Özü də indiki vaxtda Rusiya ilə Ərdoğanın davasının getdiyi zaman bunun heç bir perspektivi yoxdur. Ümumiyyətlə, Ərdoğan rus təyyarəsini vurmaqla Qarabağı da erməniyə təslim etdi. Bunu artıq Lavrov da açıq söylədi. Yəni ”heç bir Lavrov planı yoxdur və olan sülh planları da ATƏT-in arxivində saxlanmağa verildi" deməklə Lavrov bu məsələnin də arxivə göndərildiyini bildirdi. Azərbaycan rəhbərliyi də bunu yaxşı bilir. Türkiyə ilə indiki münasibətlərdə olan Rusiya heç bir zaman bu işdə Azərbaycanı dəstəkləməz".

QAT sədri Akif Nağı, ümumiyyətlə, Minsk Qrupundan imtinanın tərəfdarıdır: “Biz əvvəldən demisik ki, Minsk Qrupu

həmsədrlərinin məqsədi Dağlıq Qarabağ məsələsini ədalətli həll etmək deyil, vaxti mümkün qədər uzatmaq, Ermənistanın istədiyi nəticəyə nail olmasına şərait yaratmaqdır. AŞ PA-da işğal altındakı ərazilərimizlə bağlı qətnaməyə qarşı bu cür fəal müqavimət göstərmələri, hətta hədələməkdən, saxtalaşdırmalardan çəkinməmələri onların iç üzünü bir daha göstərdi. Mübarizə davam edir, Azərbaycan ikinci qətnamənin qəbulu ilə kifayət qədər yüksək nəticəyə nail oldu. İlk sənədlə bağlı bütün bu qaragüruha qarşı qələbə çalmaq üçün cəmi 4 səsi çatmadı. Digər qətnamə isə xeyli səs çoxluğu ilə qəbul olundu". A.Nağı qeyd etdi ki, həmsədrlərin canfəşanlığına baxmayaraq, qəbul edilən həmin sənəddə də Azərbaycan üçün çox vacib məqamlar var: "Bunları unutmamalıyıq. Ermənilərin saytlarını da izlədim, onlarda qələbə əhvalı yoxdur, daha çoxu "pələngin əlindən müvəqqəti qurtulmus dovşan" təəssüratı bağışlayırlar. Azərbaycan bu yöndə təzyiqlərini və ermənilərin ifşası prosesini davam etdirməlidir. Onsuz da bu sənədlərin elə də ciddi bir əhəmiyyəti yoxdur, torpaq qətnamələrlə azad olunmayacaq. Olunsaydı, BMT qətnamələri bir işə yarayardı. Məsələ döyüş meydanında həll olunacaq. Azərbaycan diplomatik manevrləri davam etdirməklə, uyğun məqamı seçib hərbi əməliyyatlara başlamalıdır!"

Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 165 (6486) 30 iyul 2016







# Amerika seçim qarşısında - qadınla, yoxsa "dəli Tramp"la yola davam?

## Seçki yaxınlaşır, namizədlər qızışır, qarşılıqlı ittihamlar artır...

**Amerika tarixində ABŞ prezidentliyinə ilk qadın namizəd kimi adını yazan Hillari Klinton Demokrat Partiyasının qurultayının sonuncu günü alqışlar altında podiuma çıxaraq həyəcanla bu sözləri dedi:**

"Millət ataları bizim birlikdə daha güclü olduğumuz kimi bir həqiqəti qəbul etmişdilər. Bu gün biz daha mükəmməl ittifaqa doğru gedən ölkədə mühüm bir mərhələyə qədəm qoymuşuq. İlk dəfə olaraq qadın prezidentliyə nominasiya olunub. Burada anamın qızı və qızımın anası kimi dayanaraq, bu günün gəlişinə görə çox xoşbəxtəm".

O, Filadelfiya şəhərinin Amerika tarixində oynadığı rolu qeyd edərək, kampaniyasının əsas mövzusunu bir daha dilə gətirdi. **"Millət ataları bizim birlikdə daha güclü olduğumuz kimi bir həqiqəti qəbul etmişdilər"** - Klinton bildirdi.

Nominasiya çıxışında Klinton Amerikanın gələcəyi ilə bağlı görüşləri paylaşdı və ölkəni qətiyyətlə və nikbinliklə gələcəyə aparmaq üçün görəcəyi işlərdən danışdı. O, orta sinif və fəhlə sinfinin iqtisadi durumunun yaxşılaşdırılması, minimum əmək haqqının yüksəldilməsi, yeni iş yerlərinin açılması, amerikalıların səhiyyə xidmətləri ilə təmin olunması kimi qarşıya qoyulan məqsədlərə nail olmaq üçün birlikdə işləməyin vacibliyini vurğuladı.

Hillari Klinton ölkə daxilində və xaricdə risklər və sınaqların olduğunu dedi, lakin bu sınaqların öhdəsindən gəlmək üçün ölkənin böyük gücə malik olduğunu vurğuladı. **"Biz Azadlıq və bərabərlik, ədalət və imkanlar kimi dayanıqlı dəyərlərə malikik"**, - deyə o qeyd etdi.

O, çıxışında Respublikaçılar Partiyasının namizədi Donald Trampı tənqid edərək, onun ölkəni bölmək üçün qorxu yaratdığını və prezident olmaq üçün lazımi keyfiyyətlərə malik olmadığını söylədi. Xarici siyasət kursundan danışan Klinton İŞİD-ə qarşı mübarizənin davam etdiriləcəyini və ABŞ-ın NATO müttəfiqlərini Rusiyanın təcavüzündən müdafiə edəcəyini bildirdi.

Amerikanın gələcəyi ilə bağlı fikirlərini bölüşən prezident Barak Obama bundan sonra Hillari Klintonun təkcə zəngin təcrübəsi deyil, həm də uşaqlar və veteranların müdafiəsi sahəsində gördüyü işlərə görə ABŞ-ın növbəti prezidenti olmağa ən layiqli namizəd olduğunu bildirdi.

Obama son çıxışlarından birində qeyd edib ki, özü də daxil olmaqla, Hillari Klinton ölkəyə liderlik etmək üçün bütün namizədlər arasında ən layiqlisidir. **"Dövlət katibi qədər bu vəzifəyə layiq heç bir kişi və qadın olmayıb. Nə mən, nə Bill, heç bir namizəd Hillari qədər bu vəzifəyə layiq olmayıb"**.

ABŞ prezidenti ölkənin lideri və ali baş komandanının daşıdığı yüksək məsuliyyəti vurğuladı. **"Heç bir şey sizi əslində Oval kabinetin tələblərinə hazırlamır. Bu kresloda oturana qədər qlobal böhranın necə idarə edilməsi və ya gənc insanları müharibəyə göndərməyin nə olduğunu bilmirsiniz. Lakin Hillari işin içində olub. O, bəzi qərarların çıxarılmasında iştirak edib. O bizim hökumətin işləyən ailələr, yaşlı vətəndaşlar, kiçik biznes sahibləri, əsgərlər və veteranlar üçün nə etdiyini bilir"** - Obama bəyan edib.

ABŞ prezidentliyinə digər namizəd Donald Tramp isə rəqibini qaralama kampaniyasına davam edir. O, tvitter səhifəsindəki son çıxışlarından birində bildirib ki, H.Klintonun Yaxın Şərqdəki müharibəsi dağıdıcılığa, terrorizmin və İŞİD-in dünyaya yayılmasına gətirib çıxarıb. Trampın sözlərinə görə, H.Klinton kimi başqa heç kim pis qərar vermir: **"Korrupsiya və dağıdıcılıq onun əməlləridir. Hillari özünə sərhəd tanımır"**.

Tramp eyni zamanda qeyd edib ki, Hillari heç vaxt Uoll-stritdə islahat keçirə bilməyəcək. Onun digər bir iddiası isə Klinton qədər heç kəsin pis qərar vermək qabiliyyətinə malik olmamasıdır: **"Çünki korrupsiya və iflas hər yerdə onu izləyir. Bizim həyat tərzimiz radikal islam tərəfindən təhdid edilir, Klinton isə bu sözləri tələffüz belə edə bilmir. Hillari radikal islam haqda danışmaqdan imtina edərkən ABŞ-da qaçqınların sayını 550%-ə çatdırmağı planlaşdırır. Bu, bir daha onun ölkəni idarə edə bilməyəcəyinin sübutudur"**.

❑ SEVİNC

# Azərbaycanla Türkiyənin də arasını vurmaq istəyən gizli təşkilat varmış - ilginc iddia

## 15 iyul çevriliş cəhdinin üzə çıxardığı daha bir mübhəm; bayrağımızı təhqir edən eks-qubernatorun şok etirafının pərdəarxası; **KAVKASSAM rəhbəri:** "Məhz bu terror təşkilatının dövlət orqanlarındakı üzvləri sayəsində iki qardaş ölkə arasında vaxtaşırı gərginlik yaşanıb..."

**Türkiyədə 15 iyul uğursuz hərbi çevriliş cəhdinin ağır nəticələri yəqin ki, hələ bir müddət də özünü göstərəcək. Ona görə ki, bu hadisə ən əvvəl Türkiyə ordusuna, onun dövlətçiliyinə daxildən xain bir zərbə oldu və onun təsirlərini aradan qaldırmaq, belə görünür, az vaxt və enerji aparmayacaq - yüzlərlə insan itkisi, günahsız adamların qətli də öz yerində.**

Bunun üstünə toplumun durumuna, psixologiyasına, bütünlüyünə vurulan ağır zərbələr də əlavə olunarsa, vəziyyət daha dolğun təsəvvür edilər. Bütün bunlar isə sonucda şübhəsiz ki, "bir millətin ikinci dövləti" olaraq Azərbaycana da təsirsiz ötüşməyəcək.

***

Hərbi qiyamla bağlı, bu qiyamın arxasında durduğu deyilən *(Türkiyənin AKP-yə yaxın mediasının mediasının "FETÖ" adlandırdığı)* təşkilatla ilgili yeni-yeni ilginc detallar üzə çıxmaqdadır. Məsələn, həmin təşkilatı dəstəkləməkdə ittiham olunaraq saxlanılanlar arasında Türkiyənin Bursa əyalətinin sabiq qubernatoru Şahabettin Harput da var. Yada salaq ki, bu şəxs 2009-cu ildə Bursada keçirilən Türkiyə-Ermənistan futbol matçı zamanı Azərbaycan bayrağını təhqir eləmişdi.

**Həbs olayını rusdilli vesti.az saytına şərh edən türkiyəli tanınmış politoloq, KAFKASSAM Strateji Tədqiqatlar Mərkəzinin direktoru, tanınmış politoloq Hasan Oktay bu mövzuda maraqlı fikirlər söyləyib. O, öncə həmin futbol oyununu şəxsən izlədiyini deyib:** "Matç zamanı görülən bütün tədbirlərə baxmayaraq, orada Daşnak partiyasının bayraqlarını yelləyirdilər. Bursadakı təkrar cavab görüşü ilə bağlı şəhər hakimiyyəti qabaqcadan xəbərdarlıq eləmişdi ki, stadiona Türkiyə bayraqlarından savayı heç bir başqa bayraq buraxılmayacaq. Təbii ki, azarkeşlər arasında bu xəbərdarlıqdan məlumatsız olanlar var idi və onlar özləri ilə Azərbaycan bayrağı gətirmişdilər. O zaman qubernator olan Şahabettin Harput göstəriş verdi ki, Azərbaycan bayraqları yığışdırılsın və zibil qutularına atılsın".



**Politoloqun sözlərinə görə, o vaxt dövlət nümayəndəsinin dövlət mənəviyyatı və intizamı ilə bir araya sığmayan bu cür hərəkətinə etiraz olaraq, o, Türkiyənin müxtəlif televiziya kanallarında çıxış edib və Azərbaycan bayrağını təhqir elədiyi üçün qubernatorun dərhal vəzifəsindən uzaqlaşdırılmalı olduğunu bildirib.**

"Əfsus ki, o zaman hökumət onun müdafiə elədi. Və bir il ötəndən sonra bəlli oldu ki, Şahabettin Harput bu hərəkəti qəsdən törədib, qəsdi də Türkiyə ilə Azərbaycan arasında münasibətləri korlamaq olub. Üstəlik, bunu beynəlxalq arenada Türkiyəyə problemlər yaradan "FETÖ" terror təşkilatının göstərişi əsasında edib. Bu qurumun tərəfdarları dövlət orqanlarına nüfuz edərək, hakimiyyəti hər vəchlə xalqla toqquşdurmağa çalışıblar, hökumət isə ciddi cəhdlə xalqla hakimiyyəti toqquşdurmaq istəyən və cinayətkar fəaliyyətlə məşğul olan məmurları müdafiə eləməli olurdu" - qurum rəhbəri qeyd edib.

**Onun fikrincə, daha rüsvayçı fakt odur ki, sabiq qubernator əvvəllər Türkiyə daxili işlər nazirinin müavini postunu tutub və orada işlədiyi bütün bu müddət ərzində F.Gülən ardıcıllarının DİN-ə daxil olmasına yardımçı olub.**

"Yalnız hərbi çevriliş cəhdindən sonra hakimiyyət dövlət orqanlarına çökmüş FETÖ-çuların, onların tərəfdarlarının fəaliyyətinin bütün dəhşətlərini başa düşə bildilər. Və illər sonra hakim partiya eks-qubernator və onun kimi yüzlərlə "FETÖ" tərəfdarlarının əsl niyyətini anladı. Məhz bu terror təşkilatının müxtəlif postlarda və dövlət orqanlarındakı üzvləri sayəsində Azərbaycanla Türkiyənin münasibətlərində vaxtaşırı gərginlik yaranırdı. Təşkilat ardıcılları istənilən imkandan yararlanaraq çalışırdılar ki, hakimiyyət böhranlı duruma düşsün" - KAFKASSAM rəhbəri əlavə edib.

***

Sonda bu xüsusda daha iki maraqlı detalı qeyd edək: biri odur ki, iki qardaş ölkə arasında az qala böhranlı duruma gətirən, Türkiyə-Ermənistan sərhədinin Qarabağ şərti olmadan açılmasını nəzərdə tutan bədnam "Sürix protokolları"nı sabiq baş nazir, o vaxtkı xarici işlər naziri Əhməd Davudoğlu imzalamışdı. Rusiya-Türkiyə əlaqələrinin korlanmasında da onun əsas fiqur olduğu iddia edilir. 15 iyul hərbi çevrilişindən sonra isə qiyamçıların məhz Davudoğlunu hakimiyyət başına gətirmək istədikləri barədə Türkiyə mediasında məlumat yayılıb.

Maraqlıdır ki, ABŞ-a yaxınlığı ilə fərqlənən cənab Davduoğlu bu ilginc iddiaya hələ də reaksiya verməyib.

❑ Siyasət şöbəsi

# 37-ci illərin "xalq düşmən"ləri üçün "vətən xaini" məzarlığı yaradılmışdımı?

## Türkiyədə yeni yaradılan "xainlər məzarlığı" ləğv edildi

**Türkiyədə dövlət çevrilişinə cəhddə iştirak edən və hökumət qüvvələri tərəfindən öldürülən şəxslərin dəfn olunması üçün "Xainlər məzarlığı"nın yaradılması ölkəmizdə də geniş müzakirələrə səbəb olub.**




Bəzi yerli ekspertlər xainlər üçün qəbiristanlıq yaradılmasının doğru hal olmadığını, tarixdə heç bir ölkədə bu cür hadisənin baş vermədiyini, dində də cəsəddən qisas almağın yolverilməz olduğunu bildirsələr də, bunu dəstəkləyənlər də az deyil.

Tarixdən də məlumdur ki, hələ 1937-ci illərdə yüzlərlə azərbaycanlı ziyalılar, mədəniyyət və incəsənət xadimləri, generallar repressiya qurbanı olub, "xalq düşməni" adını alaraq ya güllələnib, ya da ki, uzaq Sibirə göndərilib, orada həlak olublar. Onlar arasında hərbiçi və generallar da var. Türkiyədə yaradılan "xainlər məzarlığı" bu məqamda bizim üçün bir sual ortaya qoyur. Vaxtilə repressiya illərində bir gündə, hətta bir saat ərzində barəsində qərar çıxarılaraq güllələnməyə, edama məhkum olanlar sonradan hansı qəbiristanlıqda və hansı şəraitdə dəfn olunub?

Bu barədə apardığımız kiçik araşdırmamız zamanı məlum oldu ki, aralarında folklorşünas alim Vəli Xuluflu, məşhur türkoloq alim Bəkir Çobanzadə və bu kimi ziyalılar olan 19 generalın məzarları bu günədək tapılmayıb. İddialara görə, onlar güllələndikdən sonra gizli surətdə hansısa məzarlıqda dəfn olunub və yaxud dənizə atılırmış. Məlumatlara görə, ölümə məhkum olunmuşlar gizli surətdə dəfn olunsalar da onlar qaydalara uyğun olaraq qəbirə gömülüb, məzarları təhqir olunmayıb, hansısa formada aşağılanmayıb və yaxud onlar üçün "xainlər məzarlığı" deyə xüsusi olaraq yer ayrılmayıb.

**Tarixçi alim Dilavər Əzimli də mövzu ilə əlaqədar "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, məlum repressiya illərində Azərbaycanda xainlər üçün xüsusi qəbiristanlıq yaradılmayıb:**

"Sadəcə, həmin vaxtlar belə bir qayda var idi ki, həbsxanada kimsə öləndə xüsusi bir qəbiristanlıqda, qaydalara uyğun olaraq dəfn olunub, müsəlman müsəlmanlar üçün olan qəbiristanlıqda, xristian xristian qəbiristanlığında basdırılıb. 37-ci illərdə düşərgələrin ətraflarında burada yaşayan insanlar üçün qəbiristanlıqlar yaranırdı. Lakin bu qəbiristanlıqlara "xainlər məzarlığı" adı verilmirdi. Yəni qəbiristanlığa hörmətlə yanaşırdılar. Təsadüfi deyil ki, 50-ci illərdə məhkəmələr xain adını almış insanların haqlı olduğu barədə qərar verəndə çoxunu gətirib burdakı qəbiristanlıqlarda dəfn etdilər. Əgər "Xainlər məzarlığı" kimi orda da belə bir qəbiristanlıq olardısa, onların cəsədlərini kimsə ordan verməzdi.

Belə bir şey bu günə qədər görməmişəm. O "Xainlər məzarlığı"nda dəfn olunanların axı övladları, uşaqları var. Onlar məktəbə gedəcəksə, orda özlərini necə aparacaqlar? Onların vətənə münasibəti necə olacaq? Bu, ümumən çaşqınlıq yaradır.

İkinci, bu proseslər heç açılmayıb, həqiqətin ortaya çıxmasına hələ vaxt lazımdır. Çevriliş deyilən bir şeyi heç xalq da qəbul etmədi və xalq küçəyə çıxıb onun qarşısını aldı. Amma ondan sonra bu cür hadisələrin, proseslərin baş verməsi qəbuledilməzdir. Cəmiyyət iki yerə bölünəcək və bunun ağır nəticəsi ola bilər".

Qeyd edək ki, yazı dərc olunmaq üçün hazırlanan zaman Türkiyə mediasından bəlli oldu ki, qardaş ölkədəki "Xainlər məzarlığı"nın adı artıq ləğv olunub.

❑ Xalidə GƏRAY

YENİ MÜSAVAT
N 165 (6486) 30 iyul 2016

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Ermənistandakı qarışıqlığın baş səbəbi - Qarabağ

## Bəzi analitiklərə görə, hazırda danışıqlar prosesində əsas təzyiqlər məhz Ermənistana yönəlib; **rusiyalı politoloq:** “Ankara-Moskva barışığı Qarabağda müharibə ehtimalını zəiflədib...”

**Qarabağa dair hansısa həll planının müzakirə edildiyi bir vaxtda Ermənistanda daxili vəziyyətin kəskinləşməsi analitiklərin diqqət mərkəzindədir. Belə iddialar var ki, bu gərginlikdə müəyyən qədər hakim Sərkisyan rejimi də maraqlıdır. Çünki daxili dayaqları xeyli zəifləmiş mövcud hakimiyyətin Dağlıq Qarabağ məsələsində istənilən güzəştinin ona baha başa gələcəyinin fərqindədir.**

Ancaq bu situasiya sonsuzadək də sürə bilməz. Ya nəhayət ki, Sərkisyan iqtidarı qiyam qaldırmış qüvvəni ram edib öz gücünü, ölkəyə tam nəzarət qabiliyyətini nümayiş etdirməlidir, ya da qarşıdurmadan qalib çıxan etirazçıların şərtlərini qəbul edib istefaya getməlidir. Üçüncü yol yoxdur.

Hər iki hal Serj Sərkisyanın komandasına yaxşı heç nə vəd eləmir. Ona görə ki, ikinci halda hakimiyyət əldən gedəcəksə, birinci halda da Qarabağ məsələsində konstruktiv mövqe tutub Azərbaycan ərazilərinin bir qisminin boşaldılması zərurətini ciddiyə almalı olacaq. Bu, isə yenə də Sərkisyanın istefasını gündəmə gətirə bilər.

***

Bəs Ermənistandakı daxili siyasi təlatümlər və çəkişmələr nə ilə nəticələnə bilər?

“İrəvandakı silahlı qiyamların hərəkətləri daha çox ümidsizlik jestidir. Öz-özlüyündə bu, hakimiyyətin süqutuna gətirməyəcək, lakin müxalifətin Serj Sərkisyanı ittiham elədiyi məsələlərə diqqəti cəlb edəcək. Bundan əlavə, polis binasının tutulmasının uzanması əhali arasında həyəcanın artmasına gətirə bilər. Hakimiyyət üçün bu, şübhəsiz ki, daxili siyasi problemlərin artması deməkdir”.

**Bu fikri vesti.az-a beynəlxalq siyasət üzrə rusiyalı ekspert Mixail Neyjmakov bildirib. Onun sözlərinə görə, Ermənistanda silahlı qiyamçıların hərəkəti hər iki münaqişə tərəfini hələ ki, geniş miqyaslı hərbi əməliyyatlardan çəkindirir, nəinki buna sövq edir. “Serj Sərkisyan və onu silahdaşları indi bu problemin həllinə cəlb olunacaq”** - ekspert qeyd edib.

“Bakı üçün də Ermənistandakı prosesləri kənardan izləmək daha sərfəlidir, nəinki Qarabağda hansısa aktiv hərəkətlər eləmək. Bundan əlavə, Ankara-Moskva barışığı Qarabağda yaxın zamanlarda müharibə ehtimalını zəiflədib. Bununla yanaşı, İrəvandakı qiyam faktı erməni rəsmi şəxsləri üçün Qarabağa dair hətta taktiki güzəştlərə getməmək üçün bir arqument ola bilər. Bu isə problemlə bağlı beynəlxalq danışıqları ləngidə bilər” - rusiyalı ekspert əlavə edib.

***

**Lakin işğalçı ölkədə yaşananlara fərqli rakursdan yanaşanlar da var. Onların nəzərincə, yaşananlar hakimiyyət tərəfindən məqsədli şəkildə düşünülmüş oyundur. Hədəf isə Qarabağ məsələsində yerinə yetirilməsi vaxtı çatan tələbdən - əraziləri boşaltmaqdan yayınmaqdır.**

“Ermənistanda süni surətdə qızışdırılan qarşıdurmalar uydurulmuş məsələlərdir. Prezident Serj Sərkisyan ölkəni məhz Qarabağa görə bir-birinə qatır. Ermənistanda belə fikir formalaşıb ki, guya danışıqlar prosesində Rusiyanın təklif etdiyi yol xəritəsi Azərbaycan üçün xeyli güzəştlər vəd edir. Ancaq sözügedən güzəştlərin nədən ibarət olduğunu açıqlaya bilmirlər”. Bu barədə Axar.az-a açıqlamasında **politoloq Qabil Hüseynli** danışıb.

**Sabiq dövlət müşaviri bildirib ki, Dağlıq Qarabağın həlli çoxdan tapılıb:** “NATO-nun son sammitində qeyd edildi ki, postsovet dövlətlərinin ərazi bütövlüyü ”Helsinki Yekun Akti"nın müddəalarına uyğun surətdə həyata keçirilməlidir. Yəni hər hansı bir ərazi, sərhəd dəyişikliyinə gedilə bilməz. Beləliklə, Dağlıq Qarabağın taleyi də öz həllini tapmış olur. Güman edirəm ki, prezidentlərin Paris görüşündə Qarabağ məsələsi daha ciddi və sərt şəkildə qoyulacaq. Çünki Fransa nə qədər ermənipərəst dövlət olsa da, NATO-nun üzvüdür və sammitdə qəbul edilmiş qərarantdır. Hazırda Ermənistana təzyiq böyükdür, İrəvanın qarşısına beynəlxalq hüquq normalarına əsaslanan faktlar qoyulub və Azərbaycanın ərazi bütövlüyünə hörmət göstərilməsi tələb olunur”.

***

Qeyd edək ki, Ermənistan və Azərbaycan prezidentlərinin sonuncu görüşü iyunun 20-də Rusiyanın Sankt-Peterburq şəhərində keçirilib. Növbəti görüşün isə avqustda Parisdə, daha sonra ABŞ-da baş tutacağı gözlənilir. İrəvandakı son olayları həm də bu kontekstdə dəyərləndirmək lazım gəlir. Belə görünür ki, Sərkisyan iqtidarı qarşıdakı görüşlərə zəif mövqe ilə getmək istəmir. Bu görüşlər isə Vyana və Sankt-Peterburq görüşlərinin ardınca nəhayət ki, problemin həllində real irəliləyişə gətirlara tabe olmaq məcburiyyətindədir. “Helsinki Yekun Akti”nın müddəalarının nizamlanma prosesinə tətbiq edilməsi üçün həmsədr ölkə kimi Fransa da səy göstərməlidir".



**Politoloqun sözlərinə görə, Azərbaycan dünya siyasətində baş verən pozitiv dəyişiklikləri nəzərə almaqla inadla ərazi bütövlüyünün bərpasını tələb edəcək:** “Danışıqlar prosesinin əsas məğzini erməni qoşunlarının işğal edilmiş ərazilərimizdən çıxarılması, Azərbaycanın ərazi bütövlüyünün tanınması və Ermənistan ətrafında yaradılmış blokadanın götürülməsi, yeni kommunikasiya vasitələri, dəmir yolu və qaz kəmərlərinin açılması, həmçinin Türkiyə tərəfdən də blokadanın qaldırılması, Sürix protokollarının işə düşməsi təşkil edəcək. Hətta danışıqlar uğurlu gedərsə, Ermənistanla diplomatik münasibətlər də yaradılacaq. Əgər Sərkisyan bütün bu müddəalara əməl etsə və sülhyaratma prosesində müəyyən kompromislərə getsə, Ermənistan bölgədəki irimiqyaslı layihələrə qoşula, iki ölkə arasında düşmənçilik aradan qalxa bilər. Bu, hər iki ölkəyə sərf edən ən yaxşı variməlidir. Çünki nəticəsiz təmaslar sonsuzadək davam edə bilməz.

Nəticənin olması üçün də ilk addımı Ermənistan atmalıdır - işğal elədiyi Azərbaycan ərazilərini azad eləməyə başlamaqla. Azərbaycanın güzəşt adı ilə atacağı addım artıq qalmayıb, yoxdur. Azərbaycanın Ermənistana ən böyük güzəşti işğal rejiminə 22 il səbir göstərməsi olub - o da münaqişənin ədalətli həlli naminə edilib. Əfsus ki, nə təcavüzkar tərəf, nə də həmsədrlər bu böyük zaman kəsiyini lazımınca ciddiyə almadılar.

## Müdafiə naziri yeni hərbi tikililərin açılışını edib

**Müdafiə naziri, general-polkovnik Zakir Həsənov daha bir hərbi hospitalın tikintisi ilə maraqlanıb, eləcə də mühəndis-istehkam hərbi hissəsində yeni inşa olunmuş tikililərin açılışını həyata keçirib.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Qaradağ rayonunun Ələt qəsəbəsində tikintisi davam edən hərbi hospitalda görülən işlər barədə məlumat verən Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev bildirib ki, bu müəssisə ixtisaslaşdırılmış tibbi yardımın göstərilməsi üçün nəzərdə tutulub və inşaat işlərinin yekununda müasir tibbi avadanlıqlarla tam təmin olunacaq.

Müdafiə naziri tikintinin gedişi ilə bağlı müvafiq tövsiyə və tapşırıqlarını verib. Sonra nazir Silahlı Qüvvələrin əlahiddə mühəndis-istehkam hərbi hissəsinə gəlib. Yeni inşa edilərək müvafiq avadanlıqlarla tam təmin olunmuş əsgər yataqxanaları, tibb məntəqəsi, ərzaq anbarları, döyüş texnikası parkı və digər tikililərə baş çəkən nazirə görülən işlər barədə ətraflı məlumat verilib.

Bildirilib ki, birbaşa təyinatları üzrə praktik fəaliyyətləri üçün bölmələr mühəndis qoşunlarında silahlanmaya yeni qəbul edilmiş müasir texnika, xüsusi avadanlıq və vasitələrlə təmin olunub. Sonra müdafiə naziri hərbi hissənin silahlanmasında olan xüsusi texnikalara baxış keçirib.

YENİ MÜSAVAT
N 165 (6486) 30 iyul 2016

# Yeni qaydalar taksi sürücülərini təlaşa salıb

## Sentyabrda qüvvəyə minəcək qaydalarla bağlı fərdi sürücülərin narahatlığı həm də dayanacaqla bağlıdır; rəsmi qurumdan məsələyə münasibət gəldi...

**Bakıda taksi xidməti sistemində vahid qiymətlər tətbiq ediləcək. Yeni qərarla bağlı taksi sürücülərinin münasibətini öyrəndik. Müşahidə etdik ki, onların əksəriyyəti bu məsələdən xəbərsizdirlər. Sürücülərlə söhbət zamanı əsas problemlərinin dayanacaq məsələsi olduğunu xüsusi vurğuladılar.**

**Fərdi taksi sürücüsü Adil Quliyev** bildirdi ki, nəzərdə tutulan yeniliklərdən məlumatlıdır: "Bildiyimə görə, sentyabrdan sonra yeni qaydalar tətbiq olunacaq. Bu qaydalar isə bizə sərf etmir. Əvvəla, ona görə ki, onsuz da müştəri az olduğu üçün baha qiymət demirik. İkincisi də ondansa bizim yer problemimizi həll etsinlər. Dayanmağa yer tapmırıq. Ölkədə devalvasiyadan sonra müştərilərin sayı tamamilə azalıb. Misal üçün, hazırda saat 13 radələri olsa da hələ burada dayanan 3 taksi sürücüsündən heç biri 1 manat da olsun qazanmayıb. Rəsmi dayanacaqlar elə yerdədir ki, oraya sərnişin axını demək olar yoxdur. Ona görə də bizim əsas problemimiz yer problemidir".

**Digər taksi sürücüsü Vüqar isə bildirdi ki, onların işlərinə maneçilik törədənlərdən biri də taksi şirkətləridir:** "Birincisi, bu qərardan xəbərimiz yoxdur. İkincisi də indiki vəziyyətimiz onsuz da pisdir. İnanmıram ki, bundan sonra qəbul edilən qərar işimizə yarayacaq. Onsuz da şəhərdə elə dayanacaqlar var ki, orada ancaq şirkət taksiləri dayanırlar. Ora bizim girməyə ixtiyarımız yoxdur. Eyni zamanda bir məsələ də var ki, Bakıda beynəlxalq tədbir keçirilən zaman fərdi taksi sürücülərini ora buraxmırlar. Misal üçün, Avropa Oyunları zamanı ancaq şirkət sürücüləri işləyirdilər. Bu baxımdan, əgər hər hansı qiymət eyniliyi nəzərdə tutulubsa, şirkət və fərdi taksilərin arasında bütün ayrı-seçkiliklər aradan qaldırılsın. Biz də dayanacaqlardan normal qaydada istifadə edək".

**Mövcud yenilikdən şirkət sürücüləri isə narahat deyillər. Onlarla söhbətimiz zamanı bildirdilər ki, qiymət məsələsinə sürücü qatışmır. Sürücü Firdovsi Vəliyev bildirdi ki, onların əsas problemi avtomobillərinin köhnə olması ilə bağlıdır:** "Yeni avtomobillərin çoxu taksi şirkətləri ilə işləyirlər. Ancaq şirkətlər 2000-ci ildən köhnə avtomobilləri qəbul etmirlər. Şəhərdəki taksilərin də demək olar ki, 70-80 faizinin ili 2000-ci ildən köhnədir. Əsas problemimiz budur. Qiymətlərə gəlincə, belədir ki, misal üçün, "9933" taksi xidməti hər kilometrinə görə 40 qəpik hesablayır. Minimum isə 1 manat 80 qəpikdir. Biz də görsək ki, müştəri yoxdur, məcbur qalıb həmin qaydalarla işləməliyik. İndi məsələ budur ki, həmin qaydalar, qeyd etdiyim kimi, yeni avtomobillərə şamil edilir. Biz isə gözləmə mövqeyindəyik. Bilirik ki, köhnə maşınların taleyi yaxşı olmayacaq. Məcburən gedib kreditə girib yeni maşın, yaxud Çin istehsallı avtomobil almalıyıq. Bundan başqa, digər sənəd işləri də 1200-1500 manata başa gəlir. Bu da əlbəttə ki, bizim üçün böyük maneədir".





**Söylənən fikirlərə rəsmi münasibət almaq üçün Bakı Nəqliyyat Agentliyinin (BNA) mətbuat katibi Nuridə Allahyarova ilə əlaqə saxladıq. N. Allahyarova bildirdi ki, hazırlanan yeni konsepsiyada istehsal ili köhnə olan taksilər barəsində də müvafiq bənd nəzərdə tutulub:** "İstismar müddəti başa çatan taksi xidməti göstərən minik avtomobilləri xətdən çıxarılacaq. Dayanacaqlara gəlincə isə deyə bilərəm ki, Bakıda 79 adda qeydiyyatdan keçən və 81 adda qeydiyyatsız taksi dayanacağı fəaliyyət göstərir. Ümumilikdə şəhərdə taksi dayanacaqları kifayət qədərdir. Sadəcə olaraq, taksi sürücüləri də iddia edirlər ki, həmin dayanacaqlarda durmamalarının səbəbi sərnişin axınının az olmasıdır. Onlar adətən avtobus dayanacaqlarının, metro çıxışlarının, istirahət və əyləncə mərkəzlərinin önündə dayanmağı daha üstün tuturlar. Dünyanın heç bir yerində belə hal yoxdur. Konsepsiyada da xüsusi olaraq göstərilir ki, taksilər yalnız nəzərdə tutulan dayanacaqlarda dayansınlar. Şirkətlərdən əlavə taksi xidməti göstərən 16 min fiziki şəxs var. Bu isə günün tələbləri ilə tərs mütənasibdir. Taksilərin sayı sərnişinlərin sayından dəfələrlə çoxdur. Ona görə də yeni konsepsiyada bu da nəzərə alınacaq. Sərnişin axını müəyyən olunduqdan sonra kvota təyin ediləcək. Bundan sonra isə taksilər müvafiq dayanacaqlardan başqa, heç bir yerdə dura bilməyəcəklər".

**N. Allahyarova dayanacaqlarla bağlı təhlillər aparıldığını da dedi:** "Hələ sözügedən rəsmi və qeyri-rəsmi dayanacaqların da uyğunluq və optimallığını yoxlayırıq. Daha uyğun yerlərdə olan dayanacaqlar mükəmməlləşdiriləcək sürücülərin ixtiyarına veriləcək. Uyğun olmayanlarla da bağlı müvafiq tədbirlər görüləcək. Konsepsiyanın oktyabr ayına tam yekunu gözlənilir, bundan sonra isə irəli gələn müəyyən tələblər qoyulmağa başlayacaq".

**❑ Əli RAİS**
**Fotolar müəllifindir**

# Tikinti şirkəti məktəb rəhbərliyini necə aldatdı...



## "Dedilər sizə stadion tikirik, sonra isə..."

**Tikinti şirkəti məktəb rəhbərliyini aldadaraq ərazisini zəbt edib. Yaşayış binaları tikən şirkət məktəb rəhbərliyini əmin edib ki, məktəbin hasarlarına bitişik ərazidə yeni bina inşa ediləndən sonra məktəbin həyətində şagirdlərin istifadəsi üçün stadion tikiləcək. Lakin tikinti başa çatandan sonra stadion tikilməyib. Verdiyi sözü tutmayan şirkət bu az deyilmiş kimi məktəbin hasarını uçuraraq ərazisinin bir hissəsini də zəbt edib.**

Bu problem Xətai rayonunda yerləşən 269 nömrəli tam orta məktəbdə 14 ildir həll edilməmiş qalır. Şirkətin bu özbaşınalığına isə heç bir dövlət qurumu "dur" deməyib.

Artıq 14-15 ildir ki, zəbt edilən ərazidə məktəbin hərbi-hazırlıq fənlərinin keçirildiyi ərazi və tir zəbt edilib. Hansı ki, o tirdə təkcə 269 nömrəli məktəbin yox, Xətai rayonunda yerləşən bir çox məktəblərin hərbi təlimləri keçirilirdi.

Qeyd edilən problemlə bağlı musavat.com-a danışan məktəbin direktorunun təsərrüfat işləri üzrə müavini (təsərrüfat müdiri) Fəridə Nağıyeva deyir ki, qarşılaşdıqları problemlə bağlı aidiyyəti qurumlara dəfələrlə müraciət ediblər. Lakin heç bir nəticə əldə olunmayıb.

1996-cı ildən məktəbin təsərrüfat müdiri olaraq çalışan Fəridə Nağıyevanın sözlərinə görə, tikinti şirkəti işə 2001-ci ildə başlayıb. Bu zaman tikintidə istifadə etmək üçün məktəbin ərazisinə - uşaqların futbol oynadığı meydançanın yaxınlığına kran quraşdırılıb. Məktəb rəhbərliyi də bunun təhlükəli olduğunu nəzərə alaraq şirkətə öz narazılığını bildirib.

Sonra şirkətdən məktəb rəhbərliyinə müraciət edilərək deyilib ki, tikintinin ətrafında təhlükəsizliyin təmin edilməsi üçün hasar tikmək istəyirlər.

**F.Nağıyeva deyir ki, uşaqların təhlükəsizliyi üçün məktəb rəhbərliyi müvəqqəti olan bu təklifə "hə" deyib:** "Uşaqların təhlükəsizliyi nəzərə alınaraq məktəb ərazisinə, uşaqların oynadığı, hərəkət etdiyi hissəyə hasar çəkilməsinə razılıq verildi. Hasarın salınmasında məqsəd tikinti zamanı əraziyə hər hansı bir materialın düşməməsi idi. Tikinti başa çatanda şirkət həmin ərazini səliqəyə salmalı, əvvəlki vəziyyətindən də yaxşı şəkildə təhvil verməli idi. O zamankı icra hakimiyyəti də buna razılıq verilməsini istəmişdi. Ancaq tikinti bitdi, hasarı sökmədilər. Bu da az deyilmiş kimi məktəbin ərazisini özününküləşdirdilər. Hasar salınanda dedilər ki, burada kiçik bir ərazidə fəhlələr üçün paltardəyişmə otağı tikirlər və sonra sökəcəklər. Həm də söz vermişdilər ki, guya burada məktəb üçün süni ot örtüklü stadion tikəcəklər. Onu da etmədilər. O tikililər də qaldı".



Hazırda məktəbin zəbt edilən ərazisinin bir hissəsində tikinti şirkətinin istifadəsində olan qarajlar və istixana tikilib. Bir hissəsində isə qaçqın və məcburi köçkün ailələri məskunlaşıb.

**F.Nağıyeva deyir ki, şirkət zəbt etdiyi ərazini hasarlayandan və yararsız hala salandan sonra hərbi-hazırlıq fənlərinin keçirildiyi tir və onun ərazisindən istifadə etmək mümkünsüz olub:** "Qaçqınlar bu ərazidə 1992-ci ildən məskunlaşıblar. Ancaq onların burada yaşaması bizə heç bir problem yaşatmırdı. Lakin şirkət buranı hasarladı, gediş-gəlişi bağladı. Artıq həmin tirdən istifadə etmək mümkünsüzdür. Qarşısını da hasara alıblar. Dərslər indi həyətdə keçirilir".

Məktəbin şirkət tərəfindən sökülmüş hasarları əsaslı təmir zamanı dövlət hesabına tikilib. Haqqında danışdığımız təhsil ocağının digər bir problemi isə təhlükəsizliyinin təmin edilməsi ilə bağlıdır.

**Təsərrüfat müdiri deyir ki, məktəb ərazisindən piyadaların istifadəsi üçün yol keçdiyindən qapıları bağlamaq mümkün olmur. Bu da məktəb ərazisində xüsusilə də axşam saatlarında təhlükəsizliyi təmin etməyə, məktəbi qorumağa çətinlik yaradır:** "Ətrafda xeyli sayda yaşayış binaları var. Əksəriyyəti də son 7-8 ildə tikilib. İnsanları da qınamaq olmur. Bu ərazilərdə camaatın istirahət etməsi üçün park yoxdur. Axşamlar hər kəs bura gəlir. Velosiped sürən, qaçan, futbol oynayan bütün uşaqlar bura yığışır. Axşamlar sanki bura park olur. Camaat əlindən tərpənmək olmur. Əvvəl piyada yolu məktəbin ərazisindən keçmirdi. Məktəbin ətrafında olan boş ərazi satıldı. Hasarlanandan sonra yolu bağladılar. Camaat da məcburi şəkildə buradan istifadə etməyə başladı. Məktəbdə təmir işləri gedəndə qapıları bağlamaq istədik. İnsanlar dəmir barmaqlıqları yerindən çıxardılar. Bizə deyirdilər ki, yolu niyə bağlayırsınız? Ancaq bu bizim günahımız deyil. Lakin insanları da qınaya bilmirsən. Çünki məhəllələrə gedən yeganə yol bura qalıb. Hər tərəfdən hasarlar salıb, binalar tikiblər. Piyadalara belə yol saxlamırlar. Axşamlar bura gələn insanlardan bəziləri məktəbin şüşələrini daşla sındırırlar. Nəzarətçi belə onların qarşısını almaqda çətinlik çəkir".

**F.Nağıyeva deyir ki, məktəbdə 1500-ə yaxın şagird təhsil alır. Məktəb ərazisində yeni korpusun tikintisi də nəzərdə tutulub.**

**❑ İlkin MURADOV**
**Fotolar müəllifindir**

# Bakıda dələduzluqla ələ keçirilən sirli 3.4 milyon dollar...

## Pulun əsl sahibi niyə gizlədilir?

**Bakı Ağır Cinayətlər Məhkəməsində paytaxt sakininin 3,4 milyon dollarını dələduzluq yolu ilə ələ keçirməkdə təqsirləndirilən şəxslərin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**



Təqsirləndirilən şəxslər-Loğman Abdullayev, Emin Qasımov, Ruslan Hacıyev, Pərviz Rzayev, Fərhad Tağıyev və Tural Qasımovun cinayət işi üzrə məhkəmə prosesinə hakim Tamella Nəsrullayevə sədrlik edir.

Məhkəmə prosesində L.Abdullayevin vəkili Cavad Cavadov vəsatətlə çıxış edib. O, hüquqlarını müdafiə etdiyi şəxsin cinayət işində maddi sübutların olmadığını və işin ibtidai istintaqa qaytarılmasını tələb edib. Məhkəmə heyəti vəkilin bu vəsatətini təmin etməyib.

Məhkəmə heyəti ötən prosesdə L.Abdullayevin vəkili Bəxtiyar Hacıyevin qaldırdığı vəsatətə də münasibət bildirib.

B.Hacıyevin L.Abdullayev barəsində seçilmiş həbs-qətimkan tədbirinin dəyişdirilməsi ilə bağlı vəsatəti təmin edilməyib.

Qeyd edək ki, hadisə 2015-ci ildə baş verib. İttiham aktında qeyd edilənlərə görə, Bakı şəhər sakini Tofiq Nadir oğlu Zülfüqarov Daxili İşlər Nazirliyinə (DİN) müraciət edərək, bir qrup şəxsin ona məxsus 3 milyon 400 min ABŞ dolları məbləğində vəsaiti dələduzluq yolu ilə ələ keçirdiklərini bildirib. Baş İdarənin əməkdaşları tərəfindən həyata keçirilən tədbirlər nəticəsində L.Abdullayev, E.Qasımov, R.Hacıyev, P.Rzayev, F.Tağıyev və T.Qasımov saxlanılıb.

Nərimanov Rayon Məhkəməsində F.Tağıyev, R.Hacıyev və T. Qasımov barəsində həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunması ilə bağlı verilmiş təqdimata baxılıb. Məhkəmənin qərarı ilə həmin şəxslər barəsində seçilmiş həbs-qətimkan tədbiri ev dustaqlığı ilə əvəzlənib.

Onlar dələduzluq yolu ilə əldə etdikləri məbləğin bir hissəsini geri qaytardıqları üçün ev dustaqlığına buraxılıblar.

Həmin şəxslər Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda ziyan vurmaqla törədildikdə) və 310-cu (vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmə) maddələri ilə ittiham olunublar.

Təqsirləndirilənlərdən yalnız L.Abdullayev barəsində seçilmiş həbs-qətimkan tədbiri qüvvədə saxlanılıb.

Musavat.com 3.4 milyon dolların hazırda zərərçəkmiş kimi tanınan Tofiq Zülfüqarova məxsus olmadığı haqda məlumat əldə edib. Məlumata görə, 3.4 milyon dollar T.Zülfüqarovun yanında çalışdığı iş adamlarından birinə məxsusdur. Lakin həmin şəxs adının bu işdə hallanmasını istəməyib və zərərçəkmiş kimi T.Zülfüqarov göstərilib.

Növbəti məhkəmə proseslərində əsl zərərçəkminin kim olacağı ilə bağlı dəqiq məlumatların açıqlanacağı gözlənilir.

**Qeyd edək ki, məhkəmənin baxış iclası avqustun 2-nə təyin edilib.**

❑ İlkin MURADOV

## Novxanıda müdhiş adam oğurluğu

**Azərbaycanda özlərini polis kimi təqdim edərək vətəndaşı girov saxlayan şəxslər tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, Novxanı kənd sakini Əli İsmayılov Abşeron Rayon Polis İdarəsinə müraciət edərək iyulun 24-də saat 03 radələrində Novxanı qəsəbəsində gözətçi işlədiyi evə gələn, özünü Cəlilabad Rayon Polis Şöbəsinin əməkdaşı kimi təqdim edən Səid adlı şəxsin onun barəsində şikayət ərizəsi olduğunu bildirib qəsəbənin ərazisindəki evlərdən birinə apararaq orada 1 gün saxlamasını, hədə-qorxu gəlib 5000 manat pul istəməsini, 3000 manat aldıqdan sonra buraxılmasını, lakin sonradan telefonuna zəng edib əlavə 2000 manat pul tələb etməsini bildirib.**

Baş Cinayət Axtarışı İdarəsi və Abşeron Rayon Polis İdarəsi əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində hadisəni törətməkdə şübhəli bilinən Cəlilabad rayon sakinləri, əvvəllər məhkum olunmuş Tural Səfərov, Atakişi Şahmarov və Seymur Qurbanov tutulublar.

T.Səfərovdan 5,58 qram, S.Qurbanovdan isə 5,79 qram marixuana götürülüb.

## Qadın avtobusdan yıxılıb öldü

**Bakıda avtobusdan yıxılan şəxs ölüb. "Report" xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyinin rəsmi saytı məlumat yayıb. Məlumata görə, iyulun 20-də Suraxanı qəsəbəsində Bakı şəhər sakini Sevil Şükürova Murtuza Qəhrəmanovun 104 saylı xətt üzrə idarə etdiyi "İsuzu" markalı avtobusdan yıxılıb. Xəstəxanaya yerləşdirilən S.Şükürova iyulun 28-də orada ölüb.**

Faktla bağlı rayon prokurorluğu araşdırma aparır.

## İnternet kluba basqın edən şəxs polisi də bıçaqlamaq istədi

**Bakıda internet kluba basqın edən şəxs polisə bıçaqla müqavimət göstərib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, iyulun 28-də saat 06 radələrində Sabunçu rayonunun Bakıxanov qəsəbəsindəki internet klublardan birinə girmiş naməlum şəxs orada xəzinədar işləyən İlkin Nəzərəliyevi yumruqla vurub və bıçaqla hədələyərək oradan 99 manat pul aparıb.**

Həmin şəxs ərazidə xidmət aparan Sabunçu Rayon Mühafizə İdarəsinin əməkdaşları tərəfindən saxlanılarkən bıçaqla müqavimət göstərib. Buna baxmayaraq, Mühafizə İdarəsi əməkdaşlarının həyata keçirdikləri tədbirlərlə həmin şəxs tutularaq 13-cü polis bölməsinə təhvil verilib.

Araşdırmalar zamanı onun Sumqayıt şəhər sakini Qüdrət Həsənov olması müəyyən edilib. Üzərinə baxış zamanı 99 manat pul, 1 ədəd bıçaq və 1,517 qram heroin aşkar edilərək götürülüb.

## Paytaxt sakini qonşusunu öldürdü

**Bakıda qətl törədilib. Sabunçu Rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, hadisə Sabunçu qəsəbəsi, Natavan küçəsi 25 ünvanında yerləşən 155 saylı orta məktəbin qarşısında qeydə alınıb.**

Qəsəbə sakini, 1982-ci il təvəllüdlü Fərman Kazım oğlu Eminov qonşusu, 36 yaşlı Elməddin Nəbi oğlu Əmənovu bıçaqlayıb. Ağır vəziyyətdə xəstəxanaya yerləşdirilən E. Əmənov aldığı xəsarətdən orada dünyasını dəyişib.

Hadisəni törədən F. Eminov saxlanılıb.

Faktla bağlı cinayət işi başlanıb, istintaq gedir.

## 3 rayonda qaz təchizatında məhdudiyyətlər olacaq

**İyulun 29-də saat 10:00-dan 18:00-dək "Qaz İxrac" İdarəsinin Ağdaş magistral qaz kəmərləri sahəsinin "Qax", "Zaqatala" və "Balakən" qazpaylama stansiyalarında və bəzi ölçü qovşaqlarında cari təmir işləri aparılacaq.**

«Trend» SOCAR-ın saytına istinadən məlumat verir ki, təmir müddətində Qax, Zaqatala və Balakən rayonlarının qaz təchizatında məhdudiyyətlər olacaq.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Elan**

**Qəbələ rayonunun Vəndam kəndində gözəl bir meyvə bağı satılır. 60 sot sahəsi var, 86 ağac, qoz, şabalıd, qızıl əhmədi alması, fındıq, hamısı bar verir. Bağ dağ ətəyindədir, kvadratdır, qazı, işığı, suyu var. Çox gözəl bağdır. Xeyir iş səbəbindən çox münasib qiymətə satılır.**

**Əlaqə telefonu: (070) 335-90-15.**



**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34


**Elan**

**Etibarlı Sabir Abul oğlunun adına verilmiş Xəzər rayonu, Mərdəkan qəsəbəsində yerləşən 2116 saylı bağ sahəsinə məxsus sənəd itdiyi üçün etibarsız sayılır.**

**Ağayev Kamal Seyidalı oğlunun adına verilmiş Xəzər rayonu, Mərdəkan qəsəbəsində yerləşən 2116 a saylı bağ sahəsinə məxsus sənəd itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 165 (6486) 30 iyul 2016

# Hovuz və dənizdəki təhlükəli viruslar...

**İsti yay günlərində insanlar sərinləmək, əylənmək üçün dənizə, hovuzlara üz tutur. Gün ərzində hovuz və dənizə çoxlu sayda və hər cür insan girir. Onların hansı xəstəliyin daşıyıcısı olduqlarını, gigiyenik qaydalara nə dərəcədə əməl etdiklərini isə bilmirik. Nəticədə isə hovuza girərkən göz, qulaq, mədə-bağırsaqda problemlərlə üzləşirik. Bu cür xəstəliklər dənizdə, hovuzda çimdikdən 2-10 gün sonra ortaya çıxa bilər. Hovuz suyunu təmizləmək üçün xlordan istifadə edilir. Amma unutmaq lazım deyil ki, xlor özü də insan səhhəti üçün zərərlidir.**

## Adil Qeybulla: "Durğun suda mikroblar nəinki qalır, hətta çoxalırlar"

Redaksiyamıza daxil olan məlumata görə, hazırda yüzlərlə uşaq və böyük məhz dənizdə və hovuzda müxtəlif mədə-bağırsaq, göz, qulaq xəstəlikləri tutaraq, xəstəxanalara yatırılıblar...

Əgər dənizə və ya hovuza girdikdən sonra sizdə şiddətli qulaq ağrısı, xarici qulaq yolunda şişmə, qulaq axıntısı, tıxanma və eşitmə çətinliyi yaranırsa, mütləq həkimə müraciət edin. Üzgüçülük hovuzlarında göz xəstəlikləri də çox yayılıb. Belə ki, əgər lazımi tədbirlər görülməzsə, qapalı hovuzlardakı su insan gözünün selikli qişasının xəstəliyinə, tədricən korluğuna, habelə keratitin, yəni buynuz qişanın iltihabına səbəb olur. Xüsusilə də hotel və əyləncə mərkəzlərində kütləvi istifadə edilən hovuzlardakı suyun həzm sisteminə, dəriyə böyük zərərləri var. Su xəstəliyin yayılması üçün ən münbit vasitələrdən biri olduğu üçün viruslar burun-nəfəs yolu vasitəsilə daxilə nüfuz edə bilir. Gözdə quruluq, qaşıntı, çəplik, tor görmə, göz qapaqlarında şişkinlik, kirpiklərdə yapışqanlıq, işığa həssaslıq kimi əlamətlərlə özünü büruzə verən keratit, konyunktivit xəstəlikləri məhz hovuz suyu vasitəsilə insandan insana ötürülür. Hovuza girən bir keratit xəstəsi 100-lərlə insanı bu xəstəliyə yoluxdura bilər.

Uşaqlarda ishal varsa, onu hovuza buraxmaq olmaz. Uşaqlar hovuz və dənizin suyunu udmamalıdır. Hovuza girən zaman gigiyena qaydalarına riayət edilməlidir. Hovuza girməzdən əvvəl duş alınmalı, ayaq yolundan istifadə etdikdən və ya körpə pampersi dəyişdirildikdən sonra əllər sabunla yuyulmalıdır. Əks halda, bədəninizdə olan mikroblar suya bulaşaraq, hovuza girən digər insanlara da təsir edə bilər. Bu cür mikroblar suda daha da artır. Atmosferdən çoxlu oksigen aldığına görə dənizdə xəstəliyə yoluxma ehtimalı nisbətən azdır. Dəniz suyunda duzun çoxluğu da infeksiyaya yoluxma ehtimalını azaldır. Lakin dəniz suyunun çirkli, köpüklü və yaşıl rəngdə olması onun sağlamlıq üçün təhlükəli olmasına dəlalət edir. Orqanizmdə uyğunlaşma yaranmamış birdən-birə, açıq su hovuzlarında çimmək düzgün deyil. Temperaturun kəskin dəyişməsi orqanizmin xəstəliktörədici mikroblara qarşı müqavimətini azaldır və bu, daha çox ürək-damar xəstəlikləri olanlar üçün təhlükəlidir. Temperaturun kəskin dəyişməsi dodaqlarda və üzdə uçuq törədən virusların aktivləşməsinə şərait yaradır. Hovuza girməmişdən əvvəl ilıq duş altında yaxalanmaqla orqanizmdə qan axını tənzimlənir. Xlorlu suyun qalıqlarını yumaq və onun dəriyə qıcıqlandırıcı təsirini yox etmək üçün hovuzdan çıxandan sonra da duş altında yaxalanmaq lazımdır.



Dənizdə çimmək orqanizmə bir çox cəhətdən müsbət təsir göstərir. Dəniz suyunun tərkibindəki vitaminlər, mineral duzlar, amin turşuları insan bədənində olan eyni 84 maddəni ehtiva edir. Suda həll olmuş duzlar, dəriyə və əzələlərə masaj kimi təsir göstərən dalğalar, eləcə də tənəffüs yollarına aerozol kimi nüfuz edən havadakı xırda dəniz suyu damlaları sağlamlıq üçün olduqca müsbət əhəmiyyətə malikdir. Seboreya, sızanaq və civzə kimi dəri xəstəlikləri üçün günəş şüası olduqca xeyirli və əvəzedilməz dərmandır. Dəniz suyunun ən mühüm faydalarından biri də zədələnmiş, zərərə uğramış dərini yaxşılaşdırmaqdır. Dəniz suyu həmçinin immunitet sistemini gücləndirmə qabiliyyətinə də malikdir. Zərərli toksinləri bədəndən uzaqlaşdıraraq, müdafiəni təmin edir. Bunun sayəsində sərbəst mənfi elementlərdən xilas olan qan, ehtiyacı olan elementlərə malik olur və tərkibindəki oksigen səviyyəsi artır. Dəniz suyunda olan yod da immunitet sisteminə müsbət təsir edir. Eyni zamanda təbii bir antiseptik olan dəniz suyu, infeksiyalara qarşı ciddi miqdarda bədənin müqavimətini artırır və bakteriya, göbələk və parazitlərin ölməsinə kömək edir. Tər qoxusundan şikayət edənlər dəniz suyu ilə bu problemdən xilas ola bilər. Dəniz suyunun mühüm bir təsiri də ruhi sağlamlığa aiddir. Tərkibində olan maqnezium, litium və brom beyindəki serotonin, melatonin səviyyələrinə təsir edir. Depressiya, əsəbilik, narahatlıq, diqqətsizlik kimi bir çox sinir xəstəliklərini müalicə edir.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla durğun suda mikrobların nəinki qaldığını, hətta çoxaldığını dedi:** "Bağlarda, evlərdəki hovuzlara ailə üzvləri nəzarət edir. Əgər bu, ictimai hovuzdursa, kreativ olaraq xlorlanır. Əgər şəxsə hovuzda hansısa xəstəlik keçirsə, deməli, o hovuzun suyu vaxtı-vaxtında dəyişilmir və yaxud da ki, xlorlama yetərincə deyil. Ona görə də həmin sudan nümunə götürüb suyun təmizlik dərəcəsi yoxlanmalıdır. Daha sonra qərar vermək olar ki, bu su mikroblardan nə dərəcədə təmizlənib. Çünki həmin su gigiyenik standartlara cavab verməlidir. Bu da xlorlaşma vasitəsilə aparılır. Mikroblar suda uzun müddət qala bilər. Su nə qədər durğun olsa, mikroblar nəinki qalır, hətta çoxalırlar".

❑ **Günel MANAFLI**

# Velosiped sürmək üçün səbəb çox, yer isə yox...

## Velosiped həvəskarları Veloparkdakı kirayə qiymətlərindən və vaxtdan narazıdır






**"Azərbaycanda velosiped sürmək üçün nə yer, nə də şərait var. Bunu Veloparkda rastlaşdığımız paytaxt sakini Tural Əliyev deyir. Velosiped sürənlərin üz tutduğu yeganə təhlükəsiz yer Veloparkdır. Ancaq buradakı şərtlər və qadağalar heç də hamının ürəyincə deyil.**

Bir çox ölkələrdə velosiped əsas nəqliyyat vasitələrindən biri hesab edir. Hətta məmurlar, nazirlər belə işə velosipedlə gedib gəlirlər. Azərbaycanda isə bunun əksidir. Yolları böyük, hündür maşınlar tutub, tıxac yaratmaqla yanaşı ekologiyanın da çirklənməsinə səbəb olur. Amma bir sıra ölkələrdə əksinədir. Məsələn, sosial durumuna görə Avropanın ən yaxşı ölkələrindən hesab olunan Hollandiyada, ümumiyyətlə, Azərbaycanda gördüyümüz iri, bahalı maşınlar yoxdur. Varsa belə, bu, diqqət çəkməyəcək qədərdir. Şəhərdə daha çox velosipedlərdən istifadə olunur. Elə Amsterdamın özəlliklərindən biri də budur. Bu şəhərdə velosipedlərin sayı insanların sayından çoxdur. Amsterdamda 810 min civarında adam yaşayır, ancaq velosipedlərin sayı 1 milyonu keçib. Velosiped sürmək üçün xüsusi yollar var. Şəhərin müxtəlif yerlərində maşın, avtobus yox, məhz velosiped dayanacaqlarına rast gəlinir. Ən böyük dayanacaq "Amsterdam central"dadır ki, burada 10 minə yaxın velosiped dayanır. Velosiped sahiblərinin öz əmlakını buradan necə tapa bildiyi hər bir turisti təəccübləndirir. Çünki dayanacaqda heç bir nömrə-filan yoxdur, bütün velosipedlər də bir-birinə bənzəyir. Bir sözlə, burada yaşından, cinsindən asılı olmayaraq hər kəs velosiped sürür. Arxasına uşaq oturacağı bağlanmış velosipedlər də çoxdur. Hətta velosiped sürən hamilə qadınlara da rast gəlinir.

Azərbaycanda velosipedlərin qiyməti baha sayılmır. Yəni istənilən insan aylıq gəlirinin bir qismi ilə velosiped ala bilər. Monreal və Vaşinqton da daxil olmaqla, dünyanın bir çox şəhərlərində kredit kartı olan şəxs asanlıqla velosiped kirayə stansiyasına gedib velosiped kirayələyə bilir. Fransada isə velosiped kirayələyən zaman onun ilk yarım saatı pulsuzdur.

Azərbaycanda da velosiped kirayələyə bilərsiniz. Amma onların nəzərdə tutduğu ərazidə sürmək şərti ilə və yalnız 1 saatlıq. Qaydalarla daha yaxından tanış olmaq, velosiped sürənlərin olub-olmadığını öyrənmək üçün yolumuzu Veloparkdan saldıq. Velosiped sürənlər kifayət qədər idi. Hətta kassanın qarşısında növbə vardı. Qiymətlərə gəlincə isə 1 saat tur 3 manat, sürətli velosipedlə isə 5 manata idi. Velosipedi götürərkən şəxsiyyət vəsiqənizi, əgər onu üstünüzdə götürməmisinizsə, telefonunuzu girov qoymalısınız. Kağızlara adınız yazılır və telefonun altına qoyulur ki, telefonlar səhv düşməsin. Qaydalara əsasən velosipedlə dəniz kənarına və köhnə bulvara çıxış qadağandır. Əgər kimsə qadağan olunmuş əraziyə çıxarsa, 20 manat cərimə olunacaq. 1 saat vaxt bitdikdən sonra kirayəçi velosipedi 5 dəqiqə gec gətirsə, ondan əlavə bir saatın pulu alınır. Əgər velosipeddə nasazlıq baş verərsə, məsuliyyəti kirayəçi daşıyır.

Burada növbə o qədər çox idi ki, velosipedlər qurtarmışdı və qaytarılmasını gözləyirdilər. İcarədarın sözlərinə görə, velosipedlər Çindən və Almaniyadan gətirilib. İcarədar sadə vətəndaşlarla yanaşı, burada müxtəlif sənət adamlarının, aktyor və müğənnilərin də velosiped sürdüyünü deyir.

**Ərazidə öz velosipedləri ilə gəzib dolaşanlar da vardı. Pərviz Əliyev adlı velosiped sürənə yaxınlaşırıq. O, adi yollarda velosiped sürmək üçün şərait olmadığından hər gün bura gəlib 2-3 saat velosiped sürdüyünü dedi:** "Velosiped sürmək həm səhhətə xeyirlidir, həm də əyləncəlidir. Bu mənim öz velosipedimdir. Şəhərdə sürməyə şərait yoxdur və təhlükəlidir. Maşın sürücüləri bəzən təhqir-söyüşlə velosiped sürənlərə irad tutular ki, yoldan çəkilin. Velosiped zolaqları yoxdur".

**Onunla bərabər velosiped sürən dostu Tural Ağayev də eyni fikirdə idi:** "Maşınım var, amma velosiped sürməyi daha məqsədəuyğun hesab edirəm. Benzin tələb etmir, xarab olmur. Maşınla gedib-gələndə insan oturaq həyat sürür, əl-ayaq işləmir, kökəlmə gedir. Amma velosiped hər cəhətdən yaxşıdır. Çox yaxşı olardı ki, yollarda xüsusi velosiped xətləri olsun ki, özümüzü Veloparkla çərçivəyə salmayaq, istədiyimiz yerə velosipedlə gedib gələk".

**Velosiped sürməkdə çətinlik çəkən və yeni öyrənməyə başladığını deyən Aygün Səlimova velosiped sürməyin çox əyləncəli olduğunu deyirdi:** "Mən rəfiqəmlə gəlmişəm. O sürə bilir, mən isə öyrənirəm. Heç bilmədim 1 saat necə keçdi. Həm insanın yorğunluğu çıxır, həm də maraqlı olur. Əslində burada velosiped sürməyi bacarmayanlara öyrətmək üçün müəllim olsaydı, yaxşı olardı. Amma təbii ki, baha qiymətə yox".

Alimlərin araşdırmalarına görə, velosiped sürmək ürəyin də dərmanı sayılırmış. Belə ki, alimlər gündə 10 dəqiqə velosiped sürməklə daha sağlam bir ürəyə sahib olmağı mümkün sayırlar. Həmçinin mütəxəssislər bildirirlər ki, velosiped sürmək insanın əhvalına da yaxşı təsir edir. Bu zaman orqanizmdə endorfin, dopamin, serotonin hormonları istehsal olunur ki, bunlar da özünüzü daha xoşbəxt və enerjili hiss etməyinizə gətirib çıxarır. Yuxuya getməkdə və ya səhərlər oyanmaqda çətinlik çəkirsinizsə, velosiped sürərək bu problemləri aradan qaldırın. Stanford Universitetinin tədqiqatçılarının apardıqları araşdırmalar gündə 30 dəqiqə velosiped sürənlərin yuxu rejiminin qaydaya düşdüyünü açıqlayıblar. Araşdırmalar göstərib ki, gündə maksimum 10 dəqiqə velosiped sürənlər sürməyənlərə nisbətən daha arıq olurlar. Velosiped sürərkən bütün bədən əzələləri fəaliyyətə keçir. Beləliklə, orqanizmdəki artıq yağlar əriyir. Bir saat velosiped sürərək 500 kalori xərcləmək mümkündür. Halbuki qaçış da daxil olmaqla, digər idman növlərində saatda sadəcə 100-200 kalori xərcləyə bilərsiniz.

Bir sözlə, velosiped hərtərəfli xeyirlidir. Ona görə də Azərbaycanda da tezliklə digər ölkələrdə olduğu kimi avtomobillərin yox velosipedlərin çoxluq təşkil edəcəyinə ümid edirik.

❑ **Günel MANAFLI**
❑ **Fotolar müəllifindir**

YENİ MÜSAVAT

Son səhifə

N 165 (6486) 30 iyul 2016



## İş yerindən bu bəhanələrlə icazə alırlar

"Careebilding" adlı saytın araşdırmaları nəticəsində məlum olub ki, "xəstəyəm" deyə iş yerindən icazə alan adamlar adətən yalan deyirlər. Uzun müddət davam edən araşdırmalar nəticəsində məlum olub ki, xəstəliyi səbəb göstərərək işə getməyən adamların 32 faizi yalan danışırlar. 30 faiz işçilər isə xəstə olduqları halda işə gəlirlər, başqa işləri olduqda isə xəstəlik bəhanəsi ilə icazə alırlar. Bir çoxları rəsmi icazə müddətləri bitdikdən, yeni tətildən qayıtdıqdan sonra xəstəliyi bəhanə edərək 1-2 gün daha istirahət edirlər. Misal üçün, Yeni il tətilindən sonra işçilər işə gəlmək istəmirlər. Çalışanların 16 faizi həmin vaxtlarda, 15 faizi isə 14 fevral ərəfəsində xəstəliyi bəhanə edərək işə gəlmirlər. Bir çox şirkətlər xəstəlik kağızı olmadan icazələri qəbul etmirlər. Şirkətlər işçilərin işə gəlmədikləri zaman nə etdiklərini yoxlamaq üçün bir çox yollara əl atırlar. Bəzi şirkət rəhbərləri davamlı olaraq əməkdaşlarının sosial şəbəkədəki hesablarını təqib edirlər. Araşdırmalar zamanı müdirlərin 19 faizi işçilərini sosial şəbəkələr, 17 faizi telefon vasitəsilə, 15 faizi isə evlərinə gedərək təqib ediblər.

# Bu şəhərdə internet pulsuzdur

İsrailin paytaxtı Tel-Əvivdə pulsuz internet xidməti bələdiyyə tərəfindən xalqın istifadəsinə verilib. Şəhərin fərqli bölgələrində olan 60 wi-fi mərkəzinin köməyi ilə şəhər əhalisi internetdən pulsuz istifadə edə biləcək. İnternetdən pis əməllər üçün istifadə edilməsin deyə, bələdiyyə işçiləri internetə senzura qoyub və sürət həddi müəyyənləşdirib.



Məlumatlara görə, bir müddət əvvəl yalnız hava limanlarında internetdən pulsuz istifadə edilirdi. Hazırda bu xidmət şəhər səviyyəsinə qaldırılıb. Hökumət rəsmiləri bütün ölkədə internetdən pulsuz istifadə edilməsi üçün işlər görürlər.

# Pul oğurladı, 12 il sonra geri qaytardı

**12 il əvvəl bir mağazadan oğurluq edən adam aradan uzun illər keçməsinə baxmayaraq, götürdüyü pulları geri qaytarıb. Amerikada yaşayan Sombook Vu adlı oğlan 12 il əvvəl bir mağazaya girib. O, silahla mağaza sahibini qorxudub və ondan 300 dollar alıb. Daha sonra hadisə yerindən qaçan oğlan peşman olub. 12 il boyunca hər gün etdiyi oğurluğu xatırlayan və utanan Vu pulları geri qaytarmağa qərara verib. O, bir zərfə 400 dollar qoyub və məktubla bərabər mağaza sahibinin oğluna verib. Zərfi təhvil verdikdən sonra mağazadan ayrılan Vu məktubda bu sözləri yazıb: "12 il əvvəl bu mağazadan oğurluq eləmişdim. O vaxtlar narkotikdən istifadə edirdim deyə məcbur qalmışdım. Artıq narkotikdən istifadə etmirəm. Bu zərfdə pullar var. Xahiş edirəm onları qəbul edin. Düşünürəm ki, məni bağışlayacaqsınız".**

Mağaza sahibi oğrunun pulu geri qaytarmasının onu təəccübləndirdiyi və onu bağışlamağa hazır olduğunu bildirib.



I am a drug addict. About 11 or 12 years ago I robber this store with a gun. I do not use drugs anymore and I feel I must make amends to the people I have hurt in the past. I came in your store around 9 or 10 oclock in 2002 or 2003 and I got a 6 pack of beer and ask for cigarets, when the register [illegible] give change I pulled out a gun and took about $300 from the register then drove away in a white car. I hope you will accept this money and find forgiveness.

peace be with you
— Anonymous



## Layla çalınanda uşaqların ağrısı azalır

İngiltərədə aparılan araşdırmalar nəticəsində məlum olub ki, ana laylası uşaqların ürək ritmini azaldır, ağrılarını aradan qaldırır. Great Ormond Street Hospital xəstəxanasında 20 il boyunca davam edən araşdırmaların nəticələrinə görə, ana laylası uşaqlara digər musiqilərdən daha yaxşı təsir bağışlayır. "Psychology of Music" jurnalında yayımlanan məqalədə deyilir ki, ana laylası ilə yatan uşaqların əsəbləri sakit olur və daha az xəstələnirlər. Araşdırma zamanı ürəyi xəstə olan 37 uşağa ana laylası çalınıb. Bir müddət sonra məlum olub ki, layla uşaqların həm ağrısını azaldır, həm də ürəyini sağlamlaşdırır. Uşaqlar laylanı digər musiqilərdən daha çox sevirlər.




**QOÇ** - Şəxsi işlərinizdə əsaslı dönüş gözlənilir. Buna hazır olduğunuz təqdirdə ulduzlar müdafiənizdə duracaq. Uzaq məsafələrə aldığınız dəvətlərdən bacardığınız qədər imtina etməyin.

**BUĞA** - Astroloji göstəricilər qeyri-adi addım atmağınızı məqsədəuyğun hesab etmir. Daha çox neytral mövqedə durmalı, gündəlik qayğılarınızla məşğul olmalısınız. Qəfil iş tutmayın.

**ƏKİZLƏR** - Mənfi yüklü Ay bürcünüzdə olduğu üçün ciddi planlarınızı təxirə salın, istənilən mübahisələrdən uzaq olun. Əgər kiminləsə "haqq-hesab"ınız varsa, bunu başqa vaxta saxlayın.

**XƏRÇƏNG** - Giley-güzarı bir tərəfə atın, təcrübə göstərir ki, bunun heç bir səmərəsi olmur. Sevgi-ailə istiqamətində mülayimlik nümayiş etdirin. Qanqaraldıcı addımlardan uzaq olmağa çalışın.

**ŞİR** - Ulduzlar bu təqvimdə yeganə probleminizin maliyyə məsələləri ilə bağlı olacağını xəbər verir. Odur ki, bəri başdan buna hazır olun. İş yerində rəhbərliklə mülayim davranın.

**QIZ** - O qədər də uğurlu təqvim deyil. Ətrafınızda olan şəxslərlə aranızda anlaşılmazlıqlar yaranmaması üçün maksimum ehtiyatlılıq nümayiş etdirin. Səhhətinizə diqqəti artırın.

**TƏRƏZİ** - İyulun ən uğurlu gününü yaşayacaqsınız. Qarşılıqlı münasibətlərdən tutmuş fəaliyyət zəmininə qədər bütün proseslər xeyrinizə olacaq. Yeni təklif alsanız, imtina etməyin.

**ƏQRƏB** - Ailə zəminində mübahisələriniz gözlənilir. Bu səbəbdən də hər xırda xoşagəlməzliyi ciddi problemə çevirməməlisiniz. Fəaliyyətlə bağlı riskli hərəkətlərə yol verməyin. Bəxtinizdə pul var.

**OXATAN** - Maraqlı səfərlərə çıxmaq üçün Göy qübbəsi sizə şans verəcək. Maddi imkanınız buna yetdiyi təqdirdə imtina etməyin. Bu ərəfədə fəaliyyətə bir qədər ara verməyiniz məsləhət görülür.

**OĞLAQ** - İşgüzar əlaqələrinizi dərinləşdirməklə qarşınızda duran vəzifələri layiqincə yerinə yetirə bilərsiniz. Tələsik qərar verməyin. Gümanınız gələn hər kəsdən məsləhət almağa çalışın.

**SUTÖKƏN** - Təxminən saat 13-ə qədər bütün ciddi işlərinizin həllini təxirə salmalısınız. Əks təqdirdə cəhdləriniz boşa çıxacaq. Sonrakı saatlarda isə perspektivli təkliflər alacaqsınız.

**BALIQLAR** - Bəxtinizdə uğurlu ərəfə durur. Bəzi xırda xoşagəlməzliklər olsa da, situasiyaların nəticəsi zövqünüzə uyğun tərzdə cərəyan edəcək. Yay istirahətinə də vaxt ayırın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Çox portağal yemək qadınlara ziyan imiş



Alimlər portağaldan həftədə 2-3 dəfə istifadə etməyi məsləhət görüblər. Britaniya alimləri bu qərara gəliblər ki, dünyada çox məşhur olan limon və xüsusilə də portağal insanların sümük sisteminə zərər vura bilər. 22 il ərzində 78 min qadının sağlamlığı müayinə edilib. Alimlərin müşahidəsinə görə, tədqiqatın 778 iştirakçısının dişlərinin vəziyyəti kəskin pisləşib. Təhlil göstərib ki, bu meyvələrdən daimi istifadə edən qadınların 41%-nin dişlərində və diş ətlərində problem müşahidə edilib. Problemin əsas səbəbkarı kimi portağalda olan fruktoza sayılıb. Alimlər qadınlara problemdən qurtulmaq üçün portağaldan həftədə 2-3 dəfə istifadə etməyi məsləhət görüblər.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750